İLHAM YAYLAQALI oğlu ƏLİYEV

# İNSANLIĞA XİDMƏT

Bakı-2016

**Ön söz müəllifi: Mahmud Xəlilov**
*Coğrafiya elmləri doktoru*

**Redaktor:  Bəhruz Quliyev**
*Fəlsəfə üzrə fəlsəfə doktoru*

**Korrektor: Qismət İsmayılov**
*İqtisadçı jurnalist*

**Məsləhətçilər:**
**Sevil Yusifova**
*Tədqiqatçı jurnalist*
**Səməd Vəkilov**
*Hüquqşünas*

**İlham Yaylaqalı oğlu Əliyev. İnsanlığa xidmət. Bakı-2016. 207 səh.**

**© İ.Əliyev**

*"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq hər şeydən çox təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".*

*"Şəxsən mən elm xadimlərinə həmişə böyük hörmətlə yanaşmışam… ona görə ki, elm adamları müstəsna adamlardır. Onlar insana əməksevərliklə, fədakarlıqla və bütün digər keyfiyyətlərlə yanaşı, cəmiyyətdə bu və ya digər yeri tutmağa imkan verirlər. Elm adamları istedada, məharətə, xüsusi bacarığa malik olmalıdır… Bu insanlar ən böyük hörmətə layiqdirlər."*

***Ümummilli Lider Heydər Əliyev***

*"Biz elə etməliyik ki, gələcəkdə ölkəmizin uğurlu və uzunmüddətli inkişafını elm, biliklər, texnologiyalar müəyyən etsin. Elmi-texniki tərəqqi hər bir ölkə üçün onun gələcəyini müəyyən edən amillərdir. Xüsusilə XXI əsrdə ölkələrin gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı olacaqdır. Ona görə uşaqlarımız bilikli, savadlı olmalıdırlar, dünyada gedən yenilikləri bilməlidirlər. Əlbəttə ki, müəllim heyəti də təhsilin yüksək səviyyəsini təmin etməlidir".*

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



*Əliyev İlham Yaylaqalı oğlu 1968-ci il aprel ayının 19-da Şamaxı rayonunda anadan olub. İxtisasca hüquqşünasdır, jurnalist fəaliyyəti ilə məşğuldur, "Qafqazda imperiyalar və ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi" publistik əsərin və "Qanlı vadi" romanın müəllifidir. Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Hüquqi və Demokratik İslahatlar Mərkəzinin sədridir.*

# ÖN SÖZ

Qədim tarixə malik Azərbaycan bütün dövrlərdə özünəməxsus adət-ənənəsi, mədəniyyəti, fikir adamlarının qiymətli əsərləri, elmi kəşfləri ilə dünya sivilizasiyasına böyük töhfələr verib. Elm adamları intibah dövrünə qədəm qoyan Azərbaycanımızın dünyada təbliğatçıları olublar. Elə bir mötəbər tədbir, beynəlxalq simpozium olmayıb ki, orada Azərbaycanın fikir adamlarının sanballı, elmi əsərləri müzakirə mövzusu olmasın. Akademik Həsən Əliyev də adı hörmətlə çəkilən, Azərbaycanın təbiət elminin inkişafında böyük xidmətləri olan alimlərimizdəndir. İlham Əliyevin "İnsanlığa xidmət" kitabı akademik Həsən Əliyevin elmi-ictimai fəaliyyətinə verilən dəyərli töhfələrdəndir. Kitabda Həsən Əliyevin Azərbaycan təbiətinin, torpağının, meşələrinin qorunub-saxlanılması və inkişafı sahəsində göstərdiyi xidmətlər elmi faktlar və sübutlarla oxucuların diqqətinə çatdırılır, təbiətşünas alimin elmi tədqiqatlarını əks etdirən bölmələr dolğun, maraqlı və yeni faktlarla qeyd olunur.

İlham Əliyev kitabda akademik Həsən Əliyevin uşaqlıq, gənclik və həyatına, taleyinə yazıl-

mış Böyük Vətən müharibəsinin odlu-alovlu, qanlı-qadalı illərindən geniş və əhatəli söhbət açır, hətta bəzi hallarda oxucunu həyəcanlandıran faktları diqqətə çatdırır. Məsələn, Həsən Əliyevin uşaqlıq illərində Comərdli kəndində erməni vəhşiliyini, qəddarlığını görməsindən, müharibə dövründə döyüşlərdə yaralanmasından danışan müəllif yazır: "1943-cü ilin mart ayında Krasnodar diyarının Sivistieovka şəhəri uğrunda gedən amansız döyüşlərdə ağır yaralanır. Hətta onun öldüyünü də düşünürlər. Ölən və yaralanan sovet əsgər və zabitlərini furqona toplayıb hərbi qərargaha apararkən əsgərlər Həsən Əliyevin ölmədiyini yəqin edirlər. Çünki digərlərindən fərqli olaraq onun üzünə düşən qar dənələrinin əridiyi diqqəti cəlb edir. Onu meyitlərin arasından çıxarıb müayinə etdikdən sonra həqiqətən də, ölmədiyi məlum olur".

Parlaq zəkaya malik Həsən Əliyevi başqalarından fərqləndirən fitri istedadını dəlil və sübutlarla oxucuya çatdıran müəllif haqlı olaraq, onu Azərbaycan təbiətşünaslıq elminin banilərindən biri adlandırır, bunu onun torpaq tədqiqat işləri aparması, elmi maarifləndirməyə xidmət edə

biləcək monoqrafiyalar və əsərlər yazması ilə əlaqələndirir. Eyni zamanda, müəllif düzgün olaraq Həsən Əliyevi təbiətşünas alim Həsən bəy Zərdabinin davamçısı kimi xarakterizə edir, bunu faktlarla əsaslandırır.

Kitabda Azərbaycanın zəngin meşələri, nadir ağac və bitkiləri haqqında da geniş məlumat verilir, haqlı olaraq Azərbaycanda dövlət qoruqlarının yaradılmasının böyük hissəsinin ideya müəllifinin Həsən Əliyev olduğu göstərilir.

Müəllif həmçinin Həsən Əliyevin sovet dövründə azərbaycanlı kadrların yetişdirilməsində, gənclərin elmə gəlişinin təmin edilməsində göstərdiyi zəhməti böyük vurğu ilə səciyyələndirir və akademikin dili ilə qeyd edir ki, yüksəkixtisaslı kadrlar olmadan Azərbaycan elmində uğur əldə etmək mümkün deyildir. Ona görə də elmi kadrların yetişdirilməsinə xüsusi önəm verilməlidir. İdeyaların reallığa çevrilməsinə Həsən Əliyevin xüsusi önəm verdiyini qeyd edən müəllif akademikin Coğrafiya İnstitutuna rəhbərlik edərkən savadı, elmi yaradıcılığa həvəsi olan bacarıqlı gənclərin SSRİ-nin elm mərkəzlərinə təhsil almağa və ya elmi-tədqiqat təcrübələri keçməyə göndərilmələrini də misal olaraq göstərir,

onlarla istedadlı azərbaycanlı gəncin Həsən Əliyev elmi məktəbinin yetirməsi olduğunu qeyd edir. Kitabda əsas uğurlardan biri də ondan ibarətdir ki, müəllif Həsən Əliyevin elmi-ictimai fəaliyyətini yalnız mövcud faktlar və sübutlarla göstərmir, həm də akademiklə bağlı elmi müzakirələrə səbəb ola biləcək fikirlərini də irəli sürür. Bununla da, düşünür və düşündürür. Bu baxımdan, bu kitabı müasir dövrümüzdə elm aləmi üçün çox dəyərli məlumat bazalarından biri hesab etmək olar.

Hesab edirəm ki, Həsən Əliyevin həyat və elmi fəaliyyətini işıqlandıran bu kitab oxucular tərəfindən maraqla qarşılanacaq, özünə müsbət rəy qazanacaq. Kitabla bağlı fikrimi isə böyük Azərbaycan filosofu Əbdülhəsən Bəhmənyarın maraqlı bir fikri ilə tamamlayıram: "Elə adamlar axtarın ki, onlarla söhbət yaxşı kitaba bərabər olsun. Elə kitablar da axtarın ki, mütaliəsi filosoflarla söhbətə dəysin".

***Mahmud Xəlilov***
*Coğrafiya elmləri doktoru*

# İNSANLIĞA XİDMƏT

Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycan bütün dövrlərdə dünyanın iqtisadi və mədəni əlaqələri, eləcə də təbii-coğrafi mühiti üçün əlverişli məkan kimi dəyərləndirilib. Dünyaca tanınmış tədqiqatçı alimlər, tarixçilər Azərbaycanın füsunkar meşələri, şirin suları, münbit torpaqları, xeyirxah, qonaqpərvər insanları haqqında qalaq-qalaq kitablar yazıb, tədqiqat əsərləri çap etdiriblər.

Antik müəlliflər Strabon (e.ə. 64/63 – eramızın 23/24), Polibi (e.ə. təqr. 200 -e.ə. təqr.120) və digərləri qələmə aldıqları əsərlərində Azərbaycanın coğrafi mövqeyi, sərhədləri, çayları, yaşayış məntəqələri, burada məskunlaşmış tayfalar, Xəzər dənizi, onun heç bir dənizlə əlaqəsinin olmaması və s. haqqında məlumatlar vermişlər. Sonrakı dövrlərdə Azərbaycan ərazilərində geniş tədqiqat işləri aparan, eləcə də xalqın adət-ənənəsi, mədəniyyəti ilə yaxından tanış olan **tarixçilər,** alimlər, səyyahlar, cöğafiyaşünaslar ölkəmiz haqqında dünya sivilizasiyası üçün əhəmiyyətli məlumat bazası olan əsərlər **yazıblar.**


SANARİYƏ
Tiflis əmirliyi
TİFLİS
ŞƏKİ HAKİMLİYİ
DƏRBƏND
Dərbənd əmirliyi
ŞƏKİ
Xunan
KAMBEÇİN
Qəbələ
Şabran
Şəmkir
GƏNCƏ
ŞAMAXI
ŞİRVANŞAHLAR DÖVLƏTİ
Bakı
Ani
Bərdə
ARSAX-XAÇIN
SACİLƏR DÖVLƏTİ (898-941)
SÜNİK
Dəbil
Beyləqan
VAYZUR
Naxçıvan
Bərzənd
SALARİLƏR DÖVLƏTİ
Muğan
Xoy
Marand
Əhər
ƏRDƏBİL
Salmas
Təbriz
Sərab
URMİYA GÖLÜ
Urmiya
Marağa
Miyanə
Uşnuh
AZƏRBAYCAN
Xəzər dənizi
Ərəb xilafəti
Kür
Araz
Naxçıvan. Əlincə qalası. VII-XII əsrlər
Saclar və Salarilərdən vassal asılılıqda olan ərazilər
Vassal ərazilərin

Azərbaycan alimi Məhəmməd Naxçıvani (XIII əsrin sonu - XIV əsrin 2-ci yarısı), İran alimi Rəşidəddin Fəzlullah (1247-1318) və başqaları əsərlərində Azərbaycanın iqtisadiyyatı, dağ və çayları, şəhərləri, ticarət yolları və sairə haqqında maraqlı fikirlər söyləyiblər. Alban (Qafqaz) tarixçisi Musa Kalankatlı (VII - VIII əsrlər) "Alban tarixi" əsərində bu ərazilərdə çoxlu məhsuldar torpaqların, gözəl bağların, meşələrin və çayların, göllərin olmasını yazmışdır. Rus carı I Pyotrun tapşırığı ilə 1720-ci ildə tərtib olunan və 1723-cü ildə nəşr edilən "Şərqi Zaqafqaziya və Xəzər dənizi" xəritəsində Azərbaycanın yaşayış məntəqələri, meşələri, dağları, gölləri, çayları və sairə göstərilib. Azərbaycan ərazisinin öyrənilməsində həmçinin İ.Fiqurovskinin, A.Zaxarovun və başqalarının da xidmətləri olub. SSRİ dövründə isə Azərbaycan Respublikası torpaqlarının kompleks tədqiqi, müxtəlif miqyaslı xəritələrin tərtib edilməsi, coğrafi atlasların yaradılması, ətraf mühitin öyrənilməsi bilavasitə akademik Həsən Əliyevin adı ilə bağlıdır.



**Həsən Əlirza oğlu Əliyev** torpaqşünas alim, kənd təsərrüfatı elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü olub. Azərbaycan elminin inkişafında onun keçmiş SSRİ miqyasında, hətta bütün dünyada əvəzsiz xidmətləri, zəhməti və əməyi olduğunu desək, səhv etmərik. Xidmətləri yüksək mükafatlarla qiymətləndirilən akademik Həsən Əliyev "Lenin", "Oktyabr İnqilabı", "Qırmızı Əmək Bayrağı", "Qırmızı Ulduz", "I dərəcəli Və-

tən müharibəsi", "Şərəf" ordenləri və bir çox medallarla təltif edilmişdir. Akademik Azərbaycanın Əməkdar elm xadimi adına layiq görülüb, Dövlət mükafatı laureatıdır. O, həm də Vavilov adına medala layiq görülüb. Bir sözlə, xeyirxah, nəcib insan və qayğıkeş müəllim-akademik Həsən Əliyevin çox şərəfli həyat yolu hamıya örnəkdir. Onun elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub, daha səmərəli istifadə olunması problemlərini, ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə edib. Azərbaycan təbiətinin, torpağının və suyunun, bir sözlə, ətraf mühitinin mühafizəsi sahəsində Həsən Əliyevin müstəsna xidmətləri vardır. Onu Azərbaycan torpaqşünaslıq elminin banisi adlandırsaq, səhv etmərik. Eyni zamanda, o, Azərbaycanda ekologiya elminin əsaslarını qoymuşdur. Ətraf mühitin qorunması, onun insanlar üçün daha yararlı, əlverişli olması ilk dəfə Həsən Əliyev tərəfindən nəzəri cəhətdən əsaslandırılmış, təcrübi cəhətdən həyata keçirilməsi yollarını təklif etmişdir. Çünki o, ətraf mühitlə əlaqədar torpaqşünaslıq, biologiya, botanika,

ekologiya və kənd təsərrüfatı elmlərinin ən istedadlı bilicisi idi.

O, çoxillik tədqiqatlar, ekspedisiyalar, çöl işləri və nəhayət, sadə, ürəksakitləşdirən gəzintiləri nəticəsində öz doğma Vətəninin hər qarış torpağını yaxından tanımış, hər bir çayın dərdini bilmiş, havasının təravətini hiss etmişdir. Bu nurlu, böyük insan uğurlara keşməkeşli həyat yolu ilə nail olub. Yaşadığı ağrılı, acılı uşaqlıq illəri onda həyatının sonuna qədər unudulması mümkün olmayan izlər buraxmışdır. Xüsusi ilə də erməni vəhşiliyini, qəddarlığını görmüş akademik Həsən Əlirza oğlu Əliyev sonralar həmin günləri ömrünün ən ağrılı, acılı günləri adlandırmışdı.

## Pənahəli xan Cavanşirin yadigarı-Comərdli

Akademik Həsən Əlirza oğlu Əliyev 1907-ci ildə Yelizavetpol quberniyası, Zəngəzur qəzasının Comərdli kəndində anadan olub. Bu elə bir vaxta təsadüf edirdi ki, erməni daşnakları Zəngəzur qəzasını qan içində boğurdular. Daşnaklar kəndlərə silahlı basqınlar edir, evləri yandırır, insanları kütləvi şəkildə qətlə yetirirdilər. Sonralar qulağı kəsilən Andronikin bandit dəstələri, Azərbaycanın əksər kəndləri kimi, Comərdli kəndini də xarabazarlığa çevirmişdilər. 1918-ci ilin yayında gecə qəflətən Comərdli kəndinə basqın edən ermənilər azərbaycanlılara qarşı kütləvi qətliamlar həyata keçirdilər. Həmin gecə onlarla insan erməni vəhşiliyinin qurbanı oldu. Ailələrdən canlarını qurtaranlar da oldu.

Bu ailələr Naxçıvana üz tutmaqla daşnak zülmündən xilas ola bildilər. Həsən Əliyevgilin ailəsi də, bir çox azərbaycanlılar kimi, öz doğma yurdlarını tərk edərək Naxçıvana köçdülər. İmkanı olanlar işləməyə və bununla da ailəyə maddi köməklik etməyə çalışırdılar.



Həsən Əliyev kiçik yaşlarından əməksevərliyi ilə fərqlənmiş, ailənin böyük oğlu kimi atasına dayaq durmuşdur. Böyüklərə məxsus qayğı, ailə dolanışığı onu uşaqlıq dünyasından çox tez ayırmışdı. 10 yaşından işləməyə başlayan Həsən Əliyev bununla böyük ailəyə maddi yardım göstərir, bununla belə oxumaq, təhsil almaq istəyindən də qalmır, təhsilini axşam məktəbində davam etdirir. Həsən Əliyev məktəbdə oxuduğu zaman daim ətraf mühit, ərazilərin iqlimi ilə ciddi maraqlanır, müəyyən maraqlı məqalələrlə mətbuatda çıxışlar edirdi. 1925-ci ildə onun "Şərq qapısı" qəzetində "Bizə də teatr lazımdır", 1929-

cu ildə isə "Molla Nəsrəddin" jurnalında "Müəllim lazımdır" məqaləsi dərc olunur. Bu cür aktivliyi, fəallığı ilə o, müəllimlərinin böyük hörmətini, rəğbətini qazanır. Məhz belə bacarığına, fərdi istedadına görə Həsən Əliyevə təhsilini davam etdirmək üçün Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna daxil olmaq üçün zəmanət verilir. 1930–1932-ci illərdə Həsən Əliyev Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsilini davam etdirir və Gəncə şəhərindəki Qarayeri sovxoz və partiya məktəblərində müəllimlik etməklə, ailəyə maddi yardım göstərir. 1934-cü ildə Pambıqçılıq İnstitutunda aspiranturanı başa vurduqdan sonra bir müddət Ucar və Gəncə zona Təcrübə Stansiyalarında direktor vəzifəsində işləyir, 1935-ci ildən etibarən əmək fəaliyyətini Bakı şəhərində davam etdirir və 1941-ci ilə qədər SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı Torpaqşünaslıq bölməsində elmi işçi və elmi katib işləməklə yanaşı, eyni zamanda, Pedaqoji İnstitutda coğrafiya fənnini tədris edir. 1944-cü ildən Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində işləməklə, dissertasiya işini müdafiə edir. Daha sonra Botanika İnstitutunda

direktor, 1952–1968-ci illərdə Kənd Təsərrüfatı nazirinin I müavini, Elmlər Akademiyasının həqiqi üzvü, akademik katibi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi və üzvü olmuş, 1965-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. 1968–1987-ci illərdə Coğrafiya İnstitutunun direktoru, 1987-ci ildən ömrünün sonuna qədər isə həmin institutun müdiriyyəti nəzdində məsləhətçi işləmişdir. Fəaliyyəti dövründə Həsən Əliyev Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti və Təbiəti Mühafizə komissiyasının sədri, bir çox beynəlxalq cəmiyyətlərin üzvü, beynəlxalq konfransların, simpoziumların, qurultayların təşkilatçısı, iştirakçısı, Bakı şəhər və Azərbaycan SSR Ali Sovetlərinin deputatı olmuşdur. Akademik Həsən Əliyevin ölkəmizdə və dünyanın bir çox ölkələrində müxtəlif dillərdə 500-dən artıq elmi əsəri nəşr edilmişdir. Eləcə də onun elmi rəhbərliyi altında 30 elmlər namizədi, 5 elmlər doktoru hazırlanıb. Akademik Həsən Əliyev ömrünün 60 ilə yaxın bir dövrünü elmimizin inkişafına sərf etmiş, respublikada coğrafiya, torpaqşünaslıq, kənd təsərrüfatı elmlərinin inkişafı, ətraf mühitin mühafizəsi və ekologiya sahəsinə

aid problemlərin həlli istiqamətində genişmiqyaslı işlər görmüş, yaxud həmin işlərin bir çoxuna rəhbərlik etmişdir. Respublikada olan 14 qoruğun yeddisi onun şəxsi səyi ilə yaradılmış, ikisi yenidən təşkil edilmişdir. Xəzər dənizinin, çayların, göllərin və şəhərlərin ekoloji vəziyyəti də onun diqqətindən yayınmırdı. Vaxtaşırı Təbiəti Mühafizə Cəmiyyətinin xətti ilə həmin sahədən olan mütəxəssisləri toplayır, bu işdə onlara əlindən gələn köməyi edir, ətraf mühiti mühafizə sahəsindəki tədbirləri ümumxalq hərəkatına çevirirdi. Bu məqsədlə 1975-ci ildə yaratdığı "Azərbaycan təbiəti" jurnalının baş redaktoru olmaqla əhalinin ekoloji təfəkkürünün formalaşmasında xüsusi fəallıq göstərirdi. Akademikin 60 ildən çox bir dövrdə yazıb-yaratdığı əsərlərinin sayı 800-ü keçmişdir. Bu əsərlər, monoqrafiyalar, məqalələr, xəritə və atlaslardan ibarətdir. Həmin əsərlər elmi dəyərinə görə, Azərbaycanın bu günü və gələcəyi üçün salnamə və elm xəzinəsidir.

Məlum faktdır ki, daim Ulu Tanrının yaratdığı insanın beynində, düşüncəsində çaylar, dağlar, meşələr canlanır. Allahın verdiyi yeraltı, yerüstü sərvətlərdən böyük mənfəət əldə etməklə

güc alan insan ömrünün əsas hissəsini torpağa, təbiətə bağlayır.



İnsan şüurlu şəkildə başa düşür ki, təbiətdən ayrı qalmaq yaşam nizamının pozulmasına gətirib çıxara bilər. Bu baxımdan torpaq-insan, insan-torpaq eyni ahəng, eyni güc formatı deməkdir. Onları bir-birindən ayırmağa cəhd etmək  yalnız sadəlövhlərin yanlışlığı ola bilər. Şübhəsiz, bu sözlər boş yerə deyilməyib ki, insan övladı torpaqdan yaranıb, torpağa da qovuşacaq.

Yəni insanın fiziki bədəninin mövcudluğu dönəmində gözü daim yaxınlarını axtarırsa, ruhu haqq dünyasına çəkildikdə də maddi bədən başqa bir əzizinə - torpağa qovuşur. Həm də bu bir həqiqətdir ki, hər bir xalqın və dövlətin mövcudluğu torpağa münasibətdən asılıdır. Torpaq və onunla bağlı münasibətlər istənilən cəmiyyətdə əsas, müəyyənedici amillərdən olmaqla bu funksiyanı nəinki sosial-iqtisadi, həm də sosial-siyasi və beynəlxalq münasibətlərdə qoruyub saxlayır. Tarixə nəzər saldıqda  aydın olur ki, torpağa və onunla bağlı münasibətlərə  düzgün yanaşmağı bacaran dövlətlər daha uzunömürlü olublar. Bu işin öhdəsindən gələ bilməyənlər isə dövlətçiliklərini itirməyə məcbur ediliblər.  Söz yox ki,  dövlətlər kimi insanlar da torpaqla nəfəs alır, onun hesabına uzun ömürlülük qazanırlar. Bütün bunlara əsaslanaraq demək olar ki, torpaqla təmasda olanlar xoşbəxt və gələcək ünvanlı insanlardır. Qısası desək, ömrünü-gününü bütövlükdə torpağa, Azərbaycan təbiətinin öyrənilməsinə həsr etmiş akademik Həsən Əliyev kimi insanlardır. O, deyirdi: "Təbiətin bizə bəxş etdiyi ən böyük sərvət torpaqdır. Torpaq vətən deməkdir..."

Akademik Həsən Əliyev qələmə aldığı kitablarında, etdiyi çıxışlarda təbiətdə baş verən narahat prosesləri aradan qaldırmağa və bununla da insanla təbiət arasında harmoniyanı bərpa etməyə çalışıb. O, nəinki çalışdığı sahəyə, ümumiyyətlə, elmin bütün sahələrinə maraq göstərən, Azərbaycanda elmin inkişafı üçün əlindən gələn hər bir işi görməyə çalışan alim idi. Birmənalı şəkildə demək olar ki, Azərbaycan torpaqşünaslıq elmi yaranışı, inkişafı, tədqiqat yolu üçün həmişə Həsən Əilyevin ruhuna baş əyməlidir. O, bu elmin dirəklərindən biri olmuş və ömrünün sonuna qədər birincilər cərgəsində bu şərəfli yükü daşımaqdan yorulmamışdır. Akademik bu elmin bütün potensialını, bütün təmayülünü, elmi-nəzəri vəzifələrini təbiəti mühafizə ilə, içində yaşatdığımız bioloji dövranla, ətraf mühitlə birləşdirmiş, ayrı-ayrılıqda mövcud olan bu elmlərin hamısının nəticədə bir məqsədə, bəşəriyyətin yaşamasına xidmət etdiyini dilə gətirmiş, bu aydın həqiqəti sübut etməyə çalışmışdır. Azərbaycanın hər guşəsini, rayonunu, kəndini, dağını, dərəsini, meşəsini ovcunun içi kimi tanıyan, harda nəyin daha münasib olduğunu çox yaxşı bilən böyük alim daima axtarışda

olmuş, enişli–yoxuşlu, çətin, lakin şərəfli bir həyat yaşamışdır. Onun haqqında birmənalı mövqe ondan ibarətdir ki, alim, ziyalı və şəxsiyyət kimi akademik Həsən Əliyev torpaq adamı olub, torpağı öyrənib, qoruyub, sevib, elmi axtarışları və tədqiqatları ilə adını Azərbaycan elminin tarixinə qızıl hərflərlə yazıb.

Həsən Əliyev uşaqlıq illərindən təbiətin vurğunu olub, gününün çoxunu meşələrdə, çaylarda, dağ yamaclarında keçirib. Bu da onun sənət seçimində müstəsna rol oynayıb. O yazırdı: "Heç də təsadüfi deyil ki, ədəbiyyatçı və ya rəssam olmağı arzulayarkən taleyim məni başqa sahəyə - təbiətə, torpağa bağladı. Lakin torpağı qazarkən onun əsl ana kimi bütün canlı aləmi "Yedizdirməsi", "Yatarkən onlara layla çalması" məni əbədi düşündürdü. Yalnız torpaq, su, hava canlı aləmin həyatıdır. Bunları yaradan kainatın "Allahı" da günəşdir. Elə mənim də inandığım günəş, həyatım torpaq, su, havadır".

Bəli, torpaq da ana qədər müqəddəs varlıqdır. Torpağı sevmək vətəni sevmək deməkdir. Torpağa bağlılıq millətinə bağlılıq deməkdir. Bütün bunlar akademik Həsən Əliyevin amalı, həyat eşqi idi. Gününü, yaşayışını torpağın təki,

ətraf mühitin öyrənilməsi, ağac əkilməsi ilə keçirdi. Amma bir həqiqət də var ki, keçdiyi şərəfli, qürurverici həyatı boyu heç zaman uşaqlıq illərini, gül, çiçək, meşə aləmi, münbit torpaqlarla bağlı valideynlərinin verdiyi məsləhətləri, tövsiyələri unutmadı. Müəyyən hallarda bu məsləhətləri yadına salıb, elmi tədqiqat işlərində tətbiq etməklə həllinə nail oldu. Bir növ uşaqlıqda ona verilən tövsiyələr zirvələrə qalxmaqda bir işıq oldu. "Həyəcan təbili" kitabında insanı dərin xəyallara dalıb, duyğulandırmağa məcbur edən bir məqamda deyilir: "Uşaqlıq çağlarında yamacın qırağı ilə uzanan cığırla dərəyə enəndə giləmeyvələri görən kimi ağzımızın suyu axardı. Kolluq qalın olduğundan tikanlar nimdaş paltarımızı cırır, içəri girə bilmirdik. Tolamazdı atıb yetişmiş meyvələri yerə tökür, kolluqdan kənara sıçrayanları yığırdıq". Bu fikir onu deməyə əsas verir söyləyək ki, böyük alim Comərdlidə keçirdiyi uşaqlıq illərini yaşının üstünə yaş gəlib ata, daha sonra el ağsaqqalı olanda da heç zaman unutmayıb. Eyni zamanda, Comərdli kəndi Həsən Əliyev üçün yalnız bu kənddə dünyaya göz açmasına görə əziz deyildi. Həm də ona görə doğma idi ki, bu kənd babalarından onlara yadi-

gar qalmışdı. Comərdlini babaları qurub yaratmış, bölgənin az qala ən inkişaf etmiş məskəninə çevirmiş, bununla Pənahəli xan Cavanşirin mükafatını lazımınca qiymətləndirdiklərini nümayiş etdirmişdilər. Çünki Comərdli kəndini onlara 1748-ci ildə Qarabağ xanlığını yaradan, görkəmli sərkərdə və dövlət xadimi Pənahəli xan Sarıcalı Cavanşir bağışlamışdı.

Həsən Əliyevin babası Comərd Pənahəli xan Cavanşirin qoşununda hərbi komandirlərdən biri olub. Hətta bir necə dəfə döyüşlərdə şəxsi şücaət göstərib. O, Pənahəli xan Cavanşirin Şəki xanı Hacı Çələbi və Məhəmməd Həsən xanı devirərək İranda hakimiyyəti ələ alan Fətəli xan Əfşarla apardığı döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Tarixçilərin yazdığına görə, Fətəli xan Əfşar 30 min nəfərlik qoşunla Pənahabad (indiki Şuşa) üzərinə hücum edir. Tərəflər arasında xeyli müddət qızğın döyüşlər gedir. Amma Fətəli xan Əfşar Pənahəli xan Cavanşirin müqavimətini qıra bilmədiyindən geri qayıdır. Pənahəli xan bir müddət sonra Fətəli xanın düşmənlərindən olan Kərim xan Zəndlə birləşir. Onların birləşmiş orduları Urmiya yaxınlığında Fətəli xanın qoşunlarını darmadağın edir. Bu döyüşlərdə Comərd

də böyük sərkərdəlik məharəti göstərir. Onun qəhrəmanlığını yüksək qiymətləndirən Pənahəli xan Cavanşir  o zaman Qarabağ xanlığının ərazisinə daxil olan  kəndi mükafat olaraq Comərdə bağışlayır. Bundan sonra kənd onun şərəfinə Comərdli adlandırılır. Məhz bu və digər səbəblərə görə, Comərdli kəndi Həsən müəllim üçün əziz olub. Ümid edirik, həm də əminik ki, gün keçəcək, zaman gələcək bizlər yenidən o torpaqlara sahib çıxacağıq. Bax, o zaman əksər tarixi ərazilərimiz kimi Comərdli kəndində də böyük şəxsiyyətlərimizin, o cümlədən də böyük alim Həsən Əliyevin çox-çox uzaqlara hesablanan arzularının reallığa çevrilməsinə  nail olacağıq.

Akademik Həsən Əliyev  gül, çiçək, meşə və torpaqla bağlı valideynləri ilə olan söhbətlərini daha çox xatırlayarmış. Alimin söhbətlərini dinləyənlərə,  eləcə də əsərlərini oxuyanlara da məlum olur ki, bu sayaq söhbətlər onun hafizəsində dərin izlər qoyub.

Akademik "Həyəcan təbili" kitabında yazırdı: "Comərdli kəndinin ərazisində hər yerin bir adı var idi. Bir sahənin də adı Badamçalıq idi.



Bir gün babamdan soruşdum: - Nə üçün bu yer belə adlanır? Axı burada heç badam yoxdur. Babam dedi:

- Bala, adı əbəs yerə qoymurlar. Görünür, vaxtilə bu yamaclar meşəlik olub. Onların bəzilərinin nişanəsi indi də qalır. Bax, bizim evin dalındakı dərənin o tayında, güneydə iki-üç qoz ağacı var. Palıdlı quzeydən gedən yolun sol tərəfində, Şırlanlığın yamacında da çoxlu ardıc kolları qalıbdır. Əl çatmadığından onları qıran olmayıb. Soruşdum:

- Axı Vənli dərədə yayda kölgəsində oturduğumuz tək ağacdan başqa heç vən (bizim meşələrdəki göyrüş ağacına vən, bəzi rayonlarda dəndə də deyirlər) ağacı yoxdur. Bəs, bura nə üçün "Vənli dərə" adlanır? O dedi:

- Mən uşaq olanda o tay-bu tay başdan-başa meşəlik idi. Çoxlu irigövdəli vən ağacları vardı. Xırda tala-tala, açıq yerlərdə taxıl əkirdik. Bura kəndə yaxın olduğundan ev və tövlə tikənlər vən ağaclarını qırıb tərk elədilər. Sonralar yerdə qalan kol-kosu da çoban, naxırçı qırıb yandırdı. Körpə pöhrələrin başını qaramal otladı, qabığını da keçilər soydu. Bax beləcə, meşələr sıradan çıxdı. Az-çox düzənlik sahələrdə də arpa-buğda əkirik, bu gördüyün sıldırım yamacları sel-su yuyub, indi orada ot da bitmir. Tək burada deyil, çox yerdə meşələr bu yolla tərk edilib. Bayaq sənə dediyim palıdlı quzeydə də indi palıd ağacı qalmayıb. İrigövdəli düz ağacların hamısını "odunu bərkdir" deyə qırıb tir və dirək kimi damlara döşədilər. Əyri-üyrülərini də yandırıb kömür elədilər. O bir ağacı da kölgəlik üçün mən qoruyub saxlamışam. Yaxşı ki, quzeydə bir qədər kol-kos qalıb. Qışda ora qar yığılır, yazda yavaş-yavaş əriyib torpağa hopur. Ona görə də dərədəki bulaqlar qurumur. Bu kolluqlar olmasaydı, yayın istisində burada susuzluqdan yanardıq. Mən indi babamın söhbətlərini xatırlarkən doğma Azərbaycan ərazisində zəngin meşələrin tədricən qırılıb azalmasına, get-gedə nadir ağacların

nəslinin kəsilməsinə acıyıram. Əgər o vaxtlar babalarımız tarlanı mühafizə etmək üçün yabanı kolları qoruyurdularsa, bəs, bu gün bizim meşələrə münasibətimiz necədir?"

Akademik Həsən Əliyevi Azərbaycanın bölgələrində tanımayan, onun xeyirxah əməllərinin bəhrəsilə rastlaşmayan demək olar ki, yoxdur. O, Azərbaycan vətəndaşlarını sevdiyi kimi, vətəndaşlar da onu ürəkdən sevirlər. O, ömrünü, həyatını torpağa bağladı. Akademik ruha qida verən füsunkar meşələri gəzərkən beynində, firkində ancaq təbiəti necə qorumaq, necə mühafizə etmək haqqında düşünürdü. Həm də ayağını atarkən çox ehtiyatlı olurdu. Fikirləşirdi ki, birdən ayağının altında yenicə cücərməkdə olan pöhrə qalar, yaxud özünə qış hazırlığı görmək üçün çalışan qarışqanı tapdalayar. Ona bunu uşaq ikən, Comərdli kəndində olarkən deyiblər. Anası yol göstərib, məsləhətlər verərkən xırda qarışqaya belə diqqətli olmağı tapşırıb. "Həyəcan təbili" kitabından başqa bir örnək: "Altı-yeddi yaşım vardı. Babam zəmidən biçilmiş dərzləri xırmana daşıyıb taya vurur, mən isə yerə tökülən sünbülləri yığırdım. Bir də gördüm ki, qarışqalar xırmanın yaxınlığındakı kol-koslu yamacdan

cığır salaraq yerə tökülmüş dənləri daşıyıb aparır. Mən işimi qoyub onların izinə düşdüm. Yamacdakı kolluğa getdim. Orada qəribə bir mənzərə gördüm. Alçaqboylu palıd ağacının ətrafında xırda qənd kəlləsi kimi yumru-yumru çoxlu qarışqa yuvası vardı. Xırmandan dənləri daşıyan qarışqalar da bu yuvalara gəlirdilər. Kolluq keçmiş meşənin qalığı idi. İri ağacları kəsib tikintidə istifadə etmişdilər. Tək-tək palıd kolları kötüklərdən pöhrələnib qalxmışdı. Məni qarışqa yuvaları maraqlandırdı. Yuvanın biri daşın yanında idi. Daşı qaldırıb üzü aşağı dığırlatdım, qarışqanın yuvası dağıldı. Daşın altından ağappaq, düyü kimi dənələr ətrafa səpələndi (həmin dənələr qarışqaların toxumları imiş). Dərəyə yuvarlanan daşın səsini eşidən anam qaça-qaça özünü mənə çatdırdı.Yuvanı dağıtdığımı görüb bərk acıqlandı: "Qarışqa yuvasını dağıtmazlar, günahdır. Baban görsə hirslənəcək".

- Axı qarışqa taxılı daşıyır, - dedim. Anam təkidlə:- Sən bilmirsən, bala, onlar həmişə taxıl daşımırlar, görmürsən, qarışqaların yuvası kolların yarpaqlarından, sünbüllərdən və yerdən eşilən torpaqdan ibarətdir?!



Qarışqalar olmasa meşələri tırtıl (yarpaq yeyən qurd) yeyib qurtarar, - dedi. Anamın nəsihəti əbədi olaraq yaddaşıma həkk olundu, necə deyərlər, qulaqlarımdan asılıb qaldı. Bundan sonra bir daha qarışqa yuvasına toxunmadım. Hər dəfə meşəyə itburnu yığmağa gedəndə qarışqa yuvalarına diqqətlə tamaşa edərdim. Sonralar giləmeyvələrin toxumunu, cürbəcür ot qırıqlarını görəndə bilirdim ki, qarışqalar meşənin yaşıl çağında ağacların üzərindən qurdları təmizləyir, qış üçün özlərinə yem toplayırlar.

Yazda onlar torpağı eşir, köhnə xəzəlləri qarışdırıb çürüdür, meşə torpaqlarını münbitləşdirirlər".

Azərbaycan elminin dünya miqyasında tanınmasında əvəzsiz xidmətləri olan akademik Həsən Əliyevin adı xalqımızın dilində bu gün də xüsusi hörmət və məhəbbətlə çəkilir. Vətənə və xalqa təmənnasız xidmətləri ilə Azərbaycan elmində, Azərbaycan tarixində əbədi iz buraxmış bu böyük şəxsiyyətin həyatı və yaradıcılığı gələcək nəsillər üçün əsl tərbiyə və nümunə məktəbidir. Akademik Həsən Əliyev yalnız 1960-1970-ci illərdə torpaqşünaslıq və təbiəti mühafizə problemləri ilə bağlı dünyanın beş qitəsində və 40-dan çox ölkəsində olmuşdur. Keçmiş SSRİ-nin müxtəlif şəhərlərində torpaqşünaslıq və təbiəti mühafizə problemlərinə həsr olunmuş qurultaylarda, simpozium və konfranslarda iştirak etmişdir. Mühüm tədbirlərdə, elmi təcrübələrdə akademik Həsən Əliyev dünyaca tanınmış torpaqşünas alimlər Zoon, Dobrovolski, Kovda, Qlazovskaya, Gerasimov, Mamutov, Babayev və digərləri ilə bir sırada olmuş, eyni mövqeyi, fikiləri ifadə etmişdir. Bu gün onun kitabları keçmiş SSRİ ölkələrinin kitabxanalarında saxlanmaqda,

elmi əsərləri tanınmış universitetlərdə tədris olunmaqdadır. Bu isə onun yalnız Azərbaycan üçün deyil, bütövlükdə  dünya dövlətləri və xalqları üçün gərəkli şəxsiyyət, böyük alim olduğunu göstərir. Yəni Həsən Əliyev nə qədər Azərbaycan xalqı üçün əzizdirsə, bir o qədər də demokratik düşüncəli dünya xalqları üçün dəyərlidir.

Onun adı Böyük Vətən  Müharibəsinin qəhrəmanlarından biri kimi də çəkilir. Faşizmlə döyüşmək üçün müharibəyə gedən 600 mindən çox azərbaycanlıdan biri də Həsən Əliyev olub. O, 1941-ci ildə Böyük Vətən müharibəsinin başlandığı ilk günlərdə cəbhəyə yollanır, döyüşlərdə şücaət göstərir, adını müharibə qəhrəmanları siyahısına yazdırır.

Müharibənin ilk aylarından Həsən Əliyev döyüşən ordu sıralarında qorxmazlığı, qəhrəmanlığı ilə fərqlənir.  1943-cü ilin qarlı, şaxtalı günlərində diviziyanın daxil olduğu Şimali Qafqaz ordusu cəbhə boyu geniş miqyaslı hücuma keçir. Hücumun uğurlu alınması üçün düşmənin çox güclü şəkildə qoruduğu Kuban çayının üstündəki körpünü tutmaq vacib idi. Bu əməliyyatın yerinə yetirilməsi onun taqımına əmr

olunur. Taqım qarşıya qoyulan tapşırığı uğurla yerinə yetirərək, düşməni məhv edib, körpünü alır. Bu döyüşdə Həsən Əliyev qorxmazlığı, şəxsi şücaəti ilə fərqlənir. Komandanlıq buna görə, onu "Birinci dərəcəli Vətən Müharibəsi" ordeni ilə təltif edir.



1943-cü ilin mart ayında Krasnodar diyarının Sivistilovka şəhəri uğrunda gedən döyüşlərdə Həsən Əliyev ağır yaralanır. Hətta onun öldüyünü də düşünürlər. Ölən və yaralanan sovet əsgər

və zabitlərini furqona toplayıb döyüş meydanından çıxararkən əsgərlər onun ölmədiyini yəqin edirlər. Çünki digərlərindən fərqli olaraq Həsən Əliyevin üzünə yağan qar əriyirmiş. Sanitarlar onu meyitlərin arasından çıxarıb, müayinə etdikdən sonra həqiqətən də ölmədiyi məlum olur.

Sonralar ağır yaralı olduğu zaman baş verənləri kino lenti kimi xatırlayır. Döyüş meydanında uzanıb qaldığı günlərin birində huşu özünə qayıdır. Nə baş verdiyini  öyrənməyə çalışır. Bu an fikrindən ilk olaraq ömür gün yoldaşı Zərqələm xanım və övladı Rasim keçir. Cətinliklədə olsa səhra çantasından ailəsinin şəklini çıxarıb, baxır, kövrəlir. Əli ilə yanağından süzülən köz yaşlarını silməyə çalışır. Bacarmır, ağır yaralanması yenidən huşunu itirməsinə səbəb olur.

Bir müddət Krasnodar hərbi hospitalında müalicə olunduqdan sonra yaralı əsgərləri, o cümlədən də Həsən Əliyevi qatarla Tbilisiyə yola salırlar. Bakıya çatanda əsgərlərdən bir qrupu, o cümlədən Həsən Əliyev Bakı hərbi hospitalında yerləşdirməklərini xahiş edirlər. Onların xahişi nəzərə alınır. Onun sağ qalması Allahın hökmü idi! Çünki o, Azərbaycan xalqına, Azərbaycan elminə lazım idi. Yaşadı, və ömrünü xalqına sərf

etdi. Yaşadı Azərbaycan elmini inkişaf etdirdi, dünyaya tanıtdırdı.

Həsən Əliyev Böyük Vətən Müharibəsinin iştirakçısı kimi "Qızıl Ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə", "1941-1945-ci illər Böyük Vətən Müharibəsində əməkdə fərqlənməyə görə" və digər medallarla təltif olunmuşdur.

**Polkovnik Georgi Zapletin** Böyük Vətən müharibəsində iştirak etmiş 26 nəfər Azərbaycan SSRİ Elmlər Akademiyasının müxbir üzvləri, görkəmli akademikləri və bir neçə nəfər elmlər doktoru haqqında maraqlı kitab yazıb. "Vətənə və elmə xidmət etdilər"... adlanan kitabda azərbaycanlı akademikin elmdə olduğu kimi, döyüşlərdə də göstərdiyi qəhrəmanlıqdan, qətiyyətdən xususi şərhlər verilib. Azərbaycan dilinə tərcümə edilərək, azərbaycanlı oxucuların ixtiyarına verilən kitabda Həsən Əliyevin müharibə illərində keçdiyi döyüş yolu haqqında çox maraqlı, həm də gənclərdə vətənpərvərlik ruhunu aşılayan məlumatlar yer alıb. Müəllifin şərhlərində Həsən Əliyev döyüşlərdə öndə gedən, əsgərləri düşmənə qarşı mübarizədə cəsarətə, qətiyyətə çağıran mərd döyüşçü kimi xa-

rakterizə edilir, akademik Həsən Əliyevin elmdə olduğu kimi, düşmənlə mübarizədə də vətən sevgisi ilə seçilmiş bir şəxs olduğu qeyd edilir: "Allah Həsən Əliyevə elə vətən sevgisi verib ki, onu danışmaqla qurtarmaz".

Müharibənin yaralarını tam müalicə etdirmədən elm sahəsində fəaliyyətə başlayan Həsən Əliyev 1944-cü ildə elmlər namizədi alimlik dərəcəsi aldıqdan sonra Azərbaycan EA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutuna elmi işlər üzrə direktor müavini vəzifəsinə təyin edilir. Araşdırma apararkən məlum olur ki, həmin illərdə kənd təsərrüfatında ciddi problemlər olmuşdur.

Xüsusi ilə də təbii sərvətlərin, o cümlədən torpaq ehtiyatlarının uçota alınması və onların potensial imkanlarının öyrənilməsi vacib məsələ kimi gündəmə gətirilmişdir. Akademik Həsən Əliyev məhz belə böhranlı bir dövrdə fəaliyyətə başladı. Bu dövr onun üçün  böyük çətinliklər və həyəcanla dolu olmuşdur.



O vaxtlar torpaq ekspedisiyalarının çətinliyindən, ekspedisiya zamanı keçirdiyi ağır həyat tərzindən, susuzluqdan korluq çəkmələrindən ürək ağrısı ilə danışan Həsən müəllim xatırlayarmış ki, axşamlar  ilan və əqrəblər lampa işığına düşərgəyə axışıb gəlirdi. İşçilərin çoxu bu təhlükə və çətinliyə dözməyib qaçırdılar. Amma o, bütün çətinliklərə baxmayaraq, qarşısına qoyduğu elmi tədqiqat işlərinin öhdəsindən layiqincə gəlmiş və torpaqşünaslıq elminin banisi olmuşdur.

Məşhur təbiətşünas Həsən bəy Zərdabi sistemli şəkildə olmasa da Azərbaycanda  torpaq-

tədqiqat işləri aparmış ilk tədqiqatçıdır. XIX əsrdə Azərbaycan təbiətini tədqiq edən və onun deqradasiyasına qarşı mübarizə aparan Həsən bəy Zərdabi çox fəal işlər görmüş, Azərbaycan təbiətini qorumaq, tədqiq etmək üçün bir sıra əsərlər yazmışdır. Həsən bəy Zərdabinin işlərini ancaq torpağı sevən, elmə bağlı olan adam davam etdirə bilərdi. Məhz Həsən Əliyevin torpaqşünaslıq elmində ardıcıl naliyyətlərə imza atması Həsən bəy Zərdabi irsinin yarımçıq qalmayacağını göstərdi. Bu baxımdan demək olar ki, Həsən Əliyevin apardığı elmi-tədqiqat təcrübələrinin kökündə Həsən bəy Zərdabinin tədqiqatlarından nümunələr dururdu. Torpaq-tədqiqat işlərinə başlayanda Həsən Əliyevin məqsədi elmdə əldə olunan nailiyyətləri təsərrüfata tətbiq etmək olub. Bu baxımdan onun apardığı tədqiqatların böyük iqtisadi əhəmiyyəti vardır. Akademik demək olar ki, Azərbaycanın bütün regionlarında torpaq-tədqiqat işləri aparmışdır. Gəzmədiyi, görmədiyi torpaq sahələri, meşə massivləri qalmamışdı. Azərbaycan bölgələrinin hər izinə, hər cığırına bələd idi. Naxçıvan, Şabran, Şirvan, Pirsaat, Ağsu - Girdimançay, Lənkə-

ran, Samur, Ceyrançöl, Qobustan, və s. bölgələrdə torpaq-tədqiqat işləri aparmışdı.

1953-cü ildə uzun illərin torpaq-tədqiqat işlərinin nəticəsi olaraq akademik Həsən Əliyev və kənd təsərrüfatı elmləri doktoru B.P.Volobuyevin məsul redaktorluğu ilə 450 səhifəlik "Azərbaycan SSR-in torpaqları" adlı monoqrafiya çap olundu.



Beş bölmədən ibarət olan sözügedən kitabın birinci bölməsi - Böyük Qafqazın torpaqlarına həsr olunmuşdur. Bəzi yarımbaşlıqları çıxmaq şərtilə bütün fəsillər Həsən Əliyev, Naxçıvan torpaqları Smirnov - Loqinov, Kür-Araz torpaqları B.P.Volobuyev, Kiçik Qafqazın torpaqları

M.E.Salayev, Lənkəran torpaqları isə Kovoluyev tərəfindən yazılmışdır. Akademik Həsən Əliyev fəxrlə vurğulayırdı: "Azərbaycan təbiətinin zənginlik və gözəlliyini digər yerlərlə müqayisə etmək çətindir. Mən dünyanın bir çox ölkələrini gəzdim, lakin Qafqazın zəngin gözəlliyini heç bir ərazidə görmədim. Qafqazda da təbiət ən gözəl nemətlərini bizim respublikaya bəxş etmişdir".

1950-1960-cı illərdə Kür-Araz düzənliyinin bir çox rayonlarının xəritələşdirilməsində, Qobustan, Ceyrançöl qış otlaqları torpaqlarının tədqiqində, Naxçıvan Muxtar Respublikası ərazisinin, Lənkəran subtropik zonası torpaqlarının iri miqyasda, kompleks ekspedisiya vasitəsi ilə dərindən və hərtərəfli öyrənilməsində Həsən Əliyevin xüsusi xidmətləri olmuşdur. Böyük Qafqaz torpaqlarının şaquli qurşaqlıq üzrə paylanması ilk dəfə V.V. Dokuçayevə məxsus olsa da, bu torpaqların ətraflı tədqiqi və xəritələşdirilməsi Həsən Əliyevə məxsusdur. Onun Böyük Qafqaz torpaqları ilə bağlı dörd monoqrafiyası çap olunmuşdur. Böyük Qafqazın torpaqlarına dair ilk monoqrafik əsərin müəllifi də Həsən Əliyev olmuşdur. Məhz akademikin təşəbbüsü ilə 1957-ci ildə Torpaqşünaslıq və Aqrokimya

İnstitutunun nəzdində meşə torpaqları laboratoriyası yaradılmış, sonralar bu laboratoriya Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun tərkibində beş laboratoriya və Pirqulu stasionarı təşkil olunmaqla böyük bir şöbəyə çevrilmişdi. Uzun illər Həsən Əliyevin rəhbərliyi altında "İnsan və biosfer" Beynəlxalq proqramı üzrə Pirqulu stasionarında biogeosenoloji müşahidələr aparılmışdır. Burada məqsəd torpaqla meşə örtüyü arasındakı qarşılıqlı münasibəti, meşələrin su rejimini tənzim etməsi, istilik dərəcələrinə təsiri, üzvi maddələrin toplanması, meşə örtüyünün məhsuldarlığının öyrənilməsindən ibarət olmuşdur. Belə kompleks tədqiqatlar nəzəri cəhətdən əhəmiyyətli olub, beynəlxalq bioloji proqramın tələblərinə cavab verir, respublikada torpaqların səmərəli istifadə edilməsində, meşə torpaqlarının inkişafında mühüm əhəmiyyət kəsb edirdi. Akademik Həsən Əliyevin müəllifliyi ilə "Azərbaycanın 1:600000 miqyaslı torpaq xəritəsi"nin və "Azərbaycanın 1:200000 miqyaslı torpaq örtüyünün struktur xəritəsi" hazırlanmış, bu xəritələrin hesabına kənd təsərrüfatının inkişafına nail olmaq mümkün olmuşdur. Torpaqşünaslıq elmi inkişaf etdikcə, digər elm sahələrində

olduğu kimi bu elmdə də mübahisəli məsələlər, ziddiyyətli fikirlər yaranırdı və şübhəsiz ki, bunların hamısı elmin xeyrinə idi.

Akademik Həsən Əliyev fəaliyyət göstərdiyi hər bir elmi-tədqiqat institutunda tədqiqat işlərinə rəhbərlik etmiş, onların nəticələrini nəşr etdirmiş və tətbiqinə çalışmışdır. O, səkkiz cildlik "Azərbaycan florası", "Azərbaycanda qara torpaqların yayılması", "Yüksək dağlıq zonada torflu torpaqların bəzi xüsusiyyətləri", "Böyük Qafqazın torpaqları və onlardan səmərəli istifadə yolları" və sair kimi fundamental tədqiqatların nəticəsi olan onlarca monoqrafiya çap etdirmişdir. Həsən Əliyevin  gərgin əməyinin məhsulu olan 800-ə qədər elmi əsər, o cümlədən kitablar və monoqrafiyalar Azərbaycanda torpaqşünaslıq, botanika, biocoğrafiya, meşəçilik, ətraf mühitin mühafizəsi və sairə elm sahələrinin mühüm nailiyyətləri kimi qiymətləndirilmişdir. Həsən Əliyev təbiəti mühafizədə və ekoloji tarazlığın qorunmasında zavod və fabrik rəhbərlərinin üzərinə böyük məsuliyyət düşdüyünü bildirirdi. O deyirdi ki, ekologiyanın və təbiətin qorunması məsələlərini təbliğ edəcək hər bir müəssisənin rəhbəri ekologiyaya aid ətraflı nəzəri biliyə və

müəyyən praktiki vərdişlərə yiyələnməli, təbiəti mühafizəyə dair qanunvericiliyi bilməli, gündəlik fəaliyyətində onları tətbiq etməyi bacarmalıdır.

Bütün varlığı ilə torpağa bağlı olan Həsən Əliyev Azərbaycanda ekologiya problemləri haqqında ilk həyəcan təbili çalan vətənpərvər ziyalı, müdrik şəxsiyyət olmuşdur. Bütün narahatedici məsələləri qələmə aldığı kitablarda geniş şəkildə qeyd edən Həsən Əliyev "Həyəcan təbili" kitabında bu kimi problemləri daha geniş və ağrılı formada yazıb. Problemlərin yaranma və həlli məsələlərinə aydınlıq gətirən akademik cəmiyyəti ümumilikdə yaşam nizamlarının tərkib hissəsi olan torpağa, meşələrə, bir sözlə, təbiətə diqqətli olmağa çağırır. Yaşayıb-yaratmaq görkəmli elm xadiminin xeyirli fəaliyyət prinsipi idi. Azərbaycanda müasir ekologiya və ətraf mühiti mühafizə elminin yaradıcısı olan Həsən müəllim yazırdı: "Bir vaxtlar "Sovet kəndi" qəzeti nadir meyvə ağaclarının əkin sahəsinin genişləndirilməsi problemini qaldırmışdı. Bu problem indi xüsusilə böyük əhəmiyyət kəsb edir. Bəs, mövcud problemi necə həll etməli, hansı üsula üstünlük verməli? Əgər yalnız qoz-fındıq fəsiləsindən

olan bağların salınması məsələsindən söhbət açsaq, o zaman həmin ağacların hər yerdə əkilməsinin mümkün olmaması, onlara xüsusi aqrotexniki xidmət göstərilməsi, uzun inkişaf dövrü ilə əlaqədar faktlarla qarşılaşacağıq. Axı heç də hər bir cavan nəsil badam, püstə, yaxud fındıq bitkilərini becərmək aqrotexnikasına bələd deyildir. Bunun üçün bu və ya digər meyvənin yetişdirildiyi zonanın təbii iqlim şəraitinin coğrafi xəritəyə köçürülməsi üzrə xüsusi tədqiqat aparmaq lazımdır".



Milli maraqlara xidmət edən təkliflərin reallaşması üçün əlindən gələni edən Həsən Əliyev

yorulmaz tədqiqatçı, apardığı tədqiqat sahəsində elmi həqiqətləri və yenilikləri böyük həvəslə aşkar etməyə daim səy göstərmiş, bu səylər, aparılan mübarizələr  böyük təsərrüfat əhəmiyyətli elmi nəticələrin əldə olunmasına səbəb olmuşdur.

Akademik Həsən Əliyevin  "Meşələrin torpaq proseslərinə təsiri", "Azərbaycanın Kür boyu tuqay meşələri", "Yaşıl sərvətin keşiyində", "Meşələrin taleyi insanın öz əlindədir", "Təbiətin yaşıl libası", "Naxçıvan MSSR-in torpaqları", "Böyük Qafqazın torpaqları", "Azərbaycanın torpaq ehtiyatları, onların istifadə olunması və qorunması" kimi kitablarında Azərbaycanın təbiəti, meşələri, torpaq ehtiyatları barədə fikirlərinin ana xəttini həm də üzə cıxan problemlərin yaranma səbəbləri və onların aradan qaldırılması yolları təşkil edir. Akademik yazırdı: "Ümumiyyətlə, həll edilməli məsələlər çoxdur. Məhz elə bu problemlər də seçiləcək yolu müəyyən edir: ixtisaslaşma tədbirləri həyata keçirilməlidir. Əgər respublikamızın ərazisində torpaqdan, sudan, səmərəli istifadə olunarsa, əhalini bütün kənd təsərrüfatı məhsulları ilə təmin etmək olar. Pambıqçılıq və üzümçülük kimi, heyvandarlıq da

intensivləşdirilməlidir. Respublika ərazisində 40 il bundan əvvəl 2,5 milyon hektar otlaq var idi. Onun təqribən 400 min hektarı azalmışdır. Suvarılan rayonlarda yararlı əkin yerlərinin çoxu şoranlaşıb istifadədən çıxmış və qış otlaqlarının bir qismi onları əvəz etmiş, dağ yamaclarında isə otlaqlar eroziyaya məruz qalmışdır. Elə Ceyrançöl otlaqları da qismən eroziyaya uğramışdır. Tezliklə buraya su çıxarılarsa, süni yağış yağdırma vasitəsilə orada gözəl mədəni otlaqlar yaradılar və bir milyona qədər mal-qara saxlamaq olar. Köçəri maldarlıq Ceyrançöl otlaqlarına ziyan verir. Burada payız, yaz aylarında təbii otları heyvanlar otlayır, yayda isə hava quraq keçir, ot bitmir, otlaqlar zəifləyir və keyfiyyətini itirir".

Akademikin bu sözlərinə diqqətlə yanaşsaq, görərik ki, onun irəli sürdüyü təkliflərin və səsləndirdiyi fikirlərin çoxu Azərbaycan Respublikasının ətraf mühit, ekologiya və kənd təsərrüfatı ilə bağlı rəsmi sənədlərində öz əksini tapmışdır. Respublika ərazisində və ilk növbədə Abşeron yarımadasında neft və neft məhsulları ilə çirklənmiş torpaqların təmizlənməsi üzrə işlənən layihələri, ərazilərin radioaktiv tullantılardan tə-

mizlənməsi tədbirləri alimin elmi cəhətdən əsaslandırılmış tövsiyələri istiqamətində həyata keçirilir. Son zamanlar ətraf mühiti, o cümlədən atmosfer havasını insan sağlamlığına kəskin dərəcədə mənfi təsir göstərən toksiki maddələrlə çirkləndirən sənaye müəssisələri olublar. Onların əvəzinə müasir zavod və digər modernləşdirilmiş istehsalat obyektləri istifadəyə verilir, yeni ekoloji cəhətdən təmiz texnologiyalar tətbiq olunur, həmin obyektlərdə və digər müəssisələrdə ekoloji qaydalara və normativlərə ciddi surətdə riayət olunur.

Kənd təsərrüfatının bir çox istiqamətləri üzrə akademik Həsən Əliyevin təklifləri nəzərə alındığından aqrar sahədə müsbət nəticələr əldə olunmuşdur. On illərlə kimyəvi mineral gübrələrlə, o cümlədən, pestisidlərlə zəhərlənmiş torpaqların təmizlənməsi ilə bağlı yerli və xarici layihələr həyata keçirilir, torpaqlar rekultivasiya olunaraq yenidən istehsal dövriyəsinə qaytarılır, torpaqlara diqqət və qayğı çoxalır.

Respublika ərazisində meşəsalma işləri sürətlə davam etdirilir. Bu proses ölkəmizin, demək olar ki, hər bir bölgəsində aparılmaqdadır. Akademik Həsən Əliyevin tövsiyələrinə müvafiq

ərazilərdə torpaq tiplərinə və iqliminə uyğun ağac növləri əkilir, meşə və meşə parkları salınır. Meşələrin bərpası və meşə fondunun qorunması istiqamətində müvafiq dövlət qurumları tərəfindən də sistemli şəkildə mühafizə işləri aparılmaqdadır.

## Həsən Əliyev beynəlxalq simpoziumlarda

Akademik Həsən Əliyev dünya miqyaslı beynəlxalq tədbirlərdə, elmi simpoziumlarda, konfranslarda və konqreslərdə iştirak edərək, aktual mövzular ətrafında məruzələrlə çıxış etmişdir. Onun məruzələri həmişə böyük maraq və alqışla qarşılanmışdır.



Çıxışları böyük diqqətə səbəb olduğundan konfrans iştirakçılarının  yaddaşına əbədi həkk olunurdu. Bir çox tanınmış alimlər akademikin məntiqli elmi çıxışları barədə ölkələrində məqalələr yazıb, gənclər qarşısında çıxışlarında onun fikirlərindən sitatlar gətiriblər. Akademikin elmi fəaliyyəti dünya xalqlarının diqqət mərkəzində olduğundan əsərlərinin ölkələrində nəşr edilərək yayılmasında maraqlı olmuşlar. Bu səbəbdən də onun dünyanın bir çox dövlətlərində müxtəlif dillərdə 500-dən artıq elmi əsəri dərc edilmişdir. Digər diqqət çəkən məqam ondan ibarətdir ki, həqiqi ziyalı adını daşımağa layiq akademik Həsən Əliyev xarici ölkələrdə elmi tədbirlərdə iştirak etdiyi zaman aydın təfəkkürü, məntiqli dəlilləri ilə irəli sürdüyü ideyasına, təklifinə dinləyicilər tərəfindən  dəstək qazanırdı. 1964-cü il sentyabrın 14-də Rumıniyanın paytaxtı Buxarest şəhərində torpaqşünasların VIII Beynəlxalq konqresi keçirilirdi. Bu konqresdə 66 ölkədən 1200 alim və 2000-dən çox adlı-sanlı təsərrüfat başçıları, fermerlər iştirak edirdi. Keçmiş SSRİ-ni 75 alim təmsil edirdi. Bu konqresə Azərbaycandan akademik Həsən Əliyev və B.P.Volo-

buyev qatılmışdılar. Konqres çox yüksək səviyyədə keçmiş və 475 məruzə dinlənilmişdi. Konqresdə xüsusilə üç məsələ daha çox mübahisə və müzakirə predmetinə çevrilmişdi. Birinci, torpağın biologiyası, ikinci, torpaqlarda üzvi maddələrin formaları və nəhayət, üçüncü məsələ torpaqların adı ilə əlaqədar idi. Dünyanın torpaq xəritəsinin nomenklaturasının layihəsi təsdiq üçün konqresə təqdim olunmuşdu. Həmin nomenklaturada qəhvəyi torpaq tipi əvəzinə qırmızı-qonur torpaq və yaxud podzollaşmış adı yazılmışdı. Bu məsələ tədbir iştirakçıları arasında ciddi müzakirə və mübahisə yaradan məsələyə çevrilmişdi. Müzakirələrin qızışdığı məqamda akademik Həsən Əliyevin  konqresdəki çıxışı o dövrün dünya mətbuatında cəsarətli çıxış, qətiyyətli mövqe kimi dəyərləndirildi.

Tədbir iştirakçıları qarşısında akademik bildirdi ki,  qəhvəyi torpaqlar Aralıq dənizi sahili ölkələrdə, Qafqazda, Mərkəzi Asiyanın bəzi yerlərində yayılmışdır. Bu torpaqlar morfogenetik xüsusiyyətlərinə görə tropiklərin quru çöllər və yarımsəhralarına xas olan qırmızı-qonur torpaqlarından fərqlənir. Təkzib olunmaz faklar, dəlillərlə fikrini əsaslandıran akademik Həsən

Əliyev bununla da konqres iştirakçılarını əlahəzrət fakt qarşısında geri çəkilməyə məcbur etdi. Onun əsaslandırılmış fikirləri Azərbaycanın dünyada yerinin və rolunun artmasına təkan oldu. Məhz böyük marağa və diqqətə səbəb olmuş bu məsələ ilə bağlı akademik 1965-ci ildə özünün "Qəhvəyi meşə torpaqları" adlı monoqrafiyasını yazdı. Rus dilində qələmə alınan bu monoqrafiya 1969-cu ildə İsraildə ingilis dilinə tərcümə olunaraq dünyaya yayıldı. Monoqrafiyanın nəşr edilib, yayılmasından sonra dünyanın nufuzlu akademiyalarının Həsən Əliyevlə əməkdaşlıq münasibətləri daha geniş və ardıcıl xarakter daşımağa başladı.



Akademik Həsən Əliyev xarici ölkələrə səfərləri zamanı nüfuzlu elmi toplantılarda fəal iştirak etməklə yanaşı, həm də ətraf mühitin mühafizəsi ilə bağlı həmin ölkələrin ən mühüm təcrübələrini Azərbaycana gətirməyə böyük maraq göstərmiş, əksər hallarda buna nail olmuşdur. Əldə etdiyi təcrübələri gənc alimlərlə bölüşməkdə həvəsli olan Həsən Əliyev bununla yetişməkdə olan kadrlarda torpağa, ətraf mühitə yüksək maraq oyatmağa çalışırdı. Məhz bu cür əyani ünsiyyət nəticəsində, eləcə də dəstəyi və himayəsi sayəsində onlarla torpaqşünas alim Həsən Əliyevin dəstəyindən yararlanmaqla elmi sahədə fəaliyyət göstərmişlər. Akademik Qərib Məmmədov bu barədə deyir: "Həsən Əliyev milli kadrların hazırlanmasında bilik və təcrübəsini əsirgəmirdi. O, istəyinə nail olurdu. Onun bilavasitə yardımı hesabına onlarla torpaqşünas yetişib". Akademik Asəf Nadirov isə Həsən Əliyevin Vətənini qəlbən sevən vətənpərvər ziyalılardan olmasını belə xarakterizə edir: "Akademik Həsən Əliyev hər cəhətdən Azərbaycanın görkəmli vətənpərvər alimlərindən biri kimi özünə şöhrət qazanmışdır".

Həsən Əliyev elmi fəaliyyətini daha cox təcrübə əsasında qurmağa üstünlük verərdi. Onu tez-tez təbiət qoynunda, kənd təsərrüfatı işçiləri arasında, tələbə və şagirdlər qarşısında görmək olurdu. Akademik keçirdiyi görüşlərin təəssüratları, eləcə də bölgələrdə rastlaşdığı maraqlı hadısələr barədə də kitablar yazırdı. Bu işdə məqsəd yerli əhalini yaşadıqları ərazilərin iqlimi, relyefi, təbiəti haqqında maarifləndirmək olmuşdur. Buna misal olaraq "Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə-bozqır torpaqları" kitabını göstərmək olar. Müəllif monoqrafiyanı yazmasının səbəbini açıqlayarkən demişdir: "Mən bu kitabı ona görə yazıram ki, Quba, Qusar, Dəvəçi, Xaçmaz rayonlarının əhalisi, rəhbər vəzifələrdə çalışanları bilsinlər ki, burda hansı torpaqlar yayılmışdır, bu torpaqların xüsusiyyəti necədir və bunlardan necə səmərəli istifadə etmək olar".

Qeyd edilməlidir ki, bu məsələ müasir dövrdə öz aktuallığında qalmaqdadır. Respublika idarələrinin, hər bir rayon rəhbəri, icra strukturları, bələdiyyə orqanlarının üzvləri, istehsalat müəssisələrinin nümayəndələri müvafiq qərar

qəbul edərkən ərazilərin torpaqları haqqında məlumatları nəzərə almalıdırlar.



Azərbaycanda coğrafiya, kənd təsərrüfatı, torpaqşünaslıq, ekologiya kimi elm sahələri Azərbaycan elminin inkişafında müstəsna xidmətləri olan Həsən Əliyevin rəhbərliyi ilə formalaşıb inkişaf tapmışdır. Akademikdən söhbət düşəndə qeyri-ixtiyari Azərbaycan təbiəti göz önünə gəlir. Təbiət o böyük ürəkli insanın bəlkə də ilk məhəbbəti olub. Müasir dövrün üz-üzə qaldığı qlobal problemlərdən biri də təbiətin mühafizəsidir. Bütün dövrlərdə bu problemlər alimləri ciddi maraqlandırıb. Aparılan elmi tədqiqat işləri də məhz mövcud problemlərin həl-

linə yönəlib. Akademik Həsən Əliyev də ömrünü təbiətin üzləşdiyi problemlərin həllinə həsr edən alim olub. Ömrünün hər saatını ancaq təbiəti düşünməklə keçirib.



Sadə qəlbli, kövrək ürəkli akademik Həsən Əliyev təbiəti doğma balası qədər sevirdi. Onun şərəfli elmi ictimai fəaliyyəti hər kəs üçün bir örnəkdir. Ən azı ona görə ki, o, ömrünün 60 ildən çoxunu ölkəmizdə coğrafiya, torpaqşünaslıq elmlərinin inkişafına, ətraf mühitin mühafizəsinə və ekologiya məsələlərinə həsr etmişdir. Həsən Əliyev Vətənimizi qarış-qarış gəzmiş, onun zəngin təbiətini geniş və əhatəli şəkildə öyrənmişdir. Meşədəki hər çinara, hər palıda

vurulan balta, hər qırqovula, hər ördəyə atılan güllə onu sarsıdır, doğma təbiətə ögey münasibət məyus edirdi. O, Azərbaycanda ən görkəmli torpaqşünas alim, ölkəmizin ətraf mühütünü dərindən öyrənən və havası ilə yaşayan bir şəxs idi. Həsən Əliyev xalqı üçün dünyaya gəlmiş, yaşamış, yaratmış, elmi ilə millətinə əvəzsiz xidmətlər göstərmişdir. Birmənalı şəkildə demək olar ki, onun torpağa bağlı olması nəticədə torpaqdan güc almasına, elmi yüksəlişlərə nail olmasına təkan olmaqla yanaşı dövlət idarəetməsində də vəzifə pillərinə yiyələnməsinə yardımçı olmuşdur. Görkəmli təbiətşünas və coğrafiyaçı, eyni zamanda, böyük torpaqşünas və ekoloq alim Həsən Əliyev yeganə şəxsdir ki, elmlər namizədi ola-ola akademik seçilib. Kənd Təsərrüfatı nazirinin müavini, Mərkəzi Komitənin Kənd Təsərrüfatı üzrə katibi işləyib. Sonradan yenə də Elmlər Akademiyasında elmi fəaliyyətini davam etdirib.

## Qətiyyətli və prinsipial alim

Coğrafiyaşünas İbn Haldun coğrafi mühit haqqında yazdığı əsərlərində demişdir: "Dünya qaydaya salınmış və mükəmməl dünyadır. Burada səbəb nəticə ilə əlaqədardır. Mövcud olan şeylər bir-birinə çevrilir. Bütün predmetlər dörd ünsürün-torpaq, su, hava və odun birləşməsindən ibarətdir. Hər şeyin əsası mühitdir. Əlverişli mühit və əhali çoxluğu ictimai inkişafın əsasıdır". Coğrafi mühitin öyrənilməsi akademik Həsən Əliyevin başlıca prinsiplərindən olub. Alim bu sahədə üzə çıxan problemlərin kollegial şəkildə müzakirə olunaraq həll edilməsi üçün təbiəti mühafizəyə həsr edilmiş beynəlxalq konfranslarda simpoziumlarda təklif və ideyalarla çıxış edib, təkliflərinə dəstək qazandırmağa çalışıb. 1976-cı ildə Moskvada keçirilən XXIII Ümumdünya Coğrafiya Konqresində təbiəti mühafizə məsələsinə xüsusi diqqət yetirilmişdir. Konqresdə iştirak edən akademik Həsən Əliyev bir sıra təkliflərlə çıxış etmiş, ətraf mühitin mühafizəsi sahəsində dövlət strukturlarının üzərinə böyük məsuliyyət düşdüyünü söyləmişdir. Həsən Əliyev qətiyyətli və prinsipial çıxışında

bildirmişdir ki, müvafiq qurumların yardımı və nəzarəti olmadan təbiəti mühafizə sahəsində qarşıya qoyulan vəzifələri həll etmək mümkün olmaz. SSRİ Coğrafiya Cəmiyyətinin qurultayında Həsən Əliyevin irəli sürdüyü bu təkliflər paketi ayrıca müzakirə olunmuş və məsələ ilə əlaqədar konkret tədbirlər planının hazırlanması barədə qərar qəbul edilmişdir.

Akademik Həsən Əliyev bitki örtüyü, xüsusilə meşələrlə də maraqlanırdı. O bildirirdi ki, bitki torpağa bağlıdır. Təbii ki, bitki olmasa torpaq da əmələ gəlməz. Bu baxımdan, Həsən Əliyev yalnız torpaqşünas deyil, eyni zamanda, meşəçi kimi də, Azərbaycan elmi üçün dəyərli alim idi. Onun rəhbərliyi ilə respublikamızın müxtəlif bölgələrində aparılan geniş miqyaslı torpaq-tədqiqat işləri nəticəsində məhsuldar torpaqlar müəyyənləşmiş, bununlada həmin torpaqlarda yaşıllıqlar salınmışdır. Akademik deyirdi ki, Azərbaycanın torpaqlarından səmərəli istifadə etmək üçün həmin torpaqlar haqqında dərindən bilgilərə malik olmaq lazımdır. Eyni zamanda, həmin rayonun da iqlimini bilmək vacibdir. Vaxtı ilə Azərbaycanın Qərb zonalarında pambıq əkilirdi.



Lakin pambıq yetişən zaman həmin zonada iqlim tez dəyişirdi və yağışlar yağırdı, nəticədə də pambıq yetişmirdi. Belə olan halda sual yaranırdı ki, bu zonanın torpaqlarından hansı bitki altında istifadə etmək daha yararlıdır. Ona görə də həmin zonalarda torpaq tədqiqatları aparıldı və həmin tətqiqatlar nəticəsində belə qərara gəlindi ki, bu torpaqlarda yalnız üzümçülük yaxşı inkişaf edə bilər. Eyni zamanda bundan yaxşı qazanc əldə etmək olar. Bununla da həmin zonalarda yerli əhaliyə yeni iş yerləri açıldı ki, bu da onların daha yaxşı yaşamalarına imkanlar yaratdı. Həmçinin həmin zonada şərab zavodları tikildi. Zavodlarda üzümdən əldə

olunan  çox keyfiyyətli şərablar hazırlanaraq xarici ölkələrə göndərildi.

Həsən Əliyev iqtisadiyyatı dərindən bilirdi. O, həm də  torpağın rəssamı, torpağın şairi və torpağın yazıçısı idi.  Akademik rayonlara  gedən zaman özü ilə fotoaparat da aparırdı.



Həmin fotoaparatla biri-birindən gözəl şəkillər çəkirdi. Elə çəkirdi ki, fotoqrafların özləri çaşırdılar ki, akademik bunu necə bacarır. Çəkdiyi şəkilləri hazırladığı məruzə və məqalələrində yerləşdirirdi. O, hər dəfə elmi konfranslarda məruzələrlə çıxış edəndə çəkdiyi şəkilləri böyük fəxrlə nümayiş etdirərdi. Vətənin təbiəti, onun gözəllikləri, unikallığı və təkrarolunmazlığı haqqında sevgi ilə danışar, problemləri ilə dinləyiciləri düşündürərdi. Akademik Həsən Əliyev öz

vətənini xarici ölkələrdə tanıtmaq üçün əlindən gələn hər bir işi görürdü. O, Azərbaycana Yer kürəsinin bir hissəsi kimi baxaraq bəşəriyyət haqqında da dərindən düşünür, problemlərini bir-bir araşdırır, planetin gələcəyi barədə həmkarları ilə müzakirələr aparır, ətraf mühitin qlobal miqyaslarda problemləri haqqında onları da düşündürürdü. Yaşadığı dövrdə dünya ölkələrinin sürətli inkişafının şahidi olan və həmin inkişafın ətraf mühitə mənfi təsirini dərk edən akademik Həsən Əliyevi gələcək nəsillərin taleyi dərindən narahat edirdi. Axı dünya bu sürətlə inkişaf etsə, təbiətə vurulan ziyan həndəsi silsilə ilə çoxala bilər və yer kürəsini gələcəkdə xilas etmək mümkün olmaz. Alim deyirdi: "Dövlətlərin, sənayenin, istehsalatın inkişafı elə olmalıdır ki, gələcək nəsillər heç olmasa bizlər kimi təbiətin imkanlarından istifadə edə bilsinlər, təmiz hava uda bilsinlər, təmiz su içə bilsinlər, təmiz qida qəbul edə bilsinlər". Məhz həmin dövrlərdə "davamlı inkişaf" problemləri dünyanın aparıcı alimlərini, dövlət başçılarını və görkəmli insanları düşündürürdü.

1970-1980-ci illərdə akademik Həsən Əliyevi düşündürən və narahat edən problemlər 1992-ci

ildə Birləşmiş Millətlər Təşkilatının Rio-de-Janeyroda (Braziliya) keçirilən "İnkişaf və ətraf mühit" adlı ölkə və hökumət başçılarının toplandığı beynəlxalq sammitdə müzakirə olundu və "XXI əsrin Gündəliyi" adlı rəsmi sənəd qəbul edildi. Sənəd dünya ölkələrinin başçılarını XXI əsrdə yer kürəsini böyük fəlakətdən qorumaq üçün tədbirlər planı ilə silahlandırdı və bu istiqamətdə ölkələr üzərilərinə düşən məsuliyyəti dünyaya bəyan etdilər.

Böyük islam alimi Muhəmməd əl-Buxari yazırdı: "Bir ağacdan insanlar, heyvanlar və ya quşlar istifadə edərsə, o ağacı əkən üçün bir sədəqə olar." Digər müsəlman aləminin hədis alimi əl-Ənvar demişdir: "Əkilən bir ağacın kölgəsindən də istifadə edilsə, ağacı əkən üçün savab vardır. O ağacdan nə qədər istifadə edilərsə, savabı da o qədər çox olar". Xalqın tarixi adət-ənənəsinə, milli dəyərlərinə ən yüksək səviyyədə əməl edən akademik Həsən Əliyev dinimizdə ağac əkməyin əhəmiyyətinin cox böyük olduğunu əməli fəaliyyəti ilə göstərmişdir. O, meyvəli, meyvəsiz ağacların və meşələrin faydalarını əsərlərində qeyd etməklə insanlıq üçün belə bir xidmətin savabının önəmli olduğunu

təbliğati iş aparmaqla vurğulamışdır. Azərbaycanda torpaqşünaslıq elminin inkişafında, təbiətin mühafizəsində və ətraf mühitin problemlərinin həlli sahəsində akademikin müstəsna xidmətləri olmuşdur.



Onun rəhbərliyi ilə yetişən yüzlərlə alimin də əsas amalı və elmi fəaliyyəti öz işlərini böyük alimin tövsiyələrinə uyğun qurmaları olub. Azərbaycanda coğrafiya elminin inkişafında, bu elmlə bağlı bir sıra problemlərin öz həllini tapmasında məhz Həsən Əliyevin xidmətləri danılmazdır. O, Azərbaycanın bütün bölgələrini qarış-qarış gəzərək, məsləhətlər verir, respublikanın meşə örtüyünün az olmasından narahatlı-

ğını bildirir, insanları öz həyatlarına biganə qalmamağa, geniş zolaqlı meşə massivlərinin salınmasında yaxından iştirak etməyə cağırırdı. Həsən Əliyev yazırdı: "Respublikanın ayrı-ayrı rayonlarının meşəlilik dərəcəsi müxtəlifdir. Coğrafi rayonlar üzrə bu göstərici Böyük Qafqazda 7 faiz, Kiçik Qafqazda 12,6 faiz, Talışda 25,5 faiz, Kür-Araz düzənliyində 2,5 faiz, Naxçıvan MSSR-də 0,1 faizdir. Meşəlilik dərəcəsi ən çox Astara (58,6 faiz), Balakən (49,3 faiz), Lənkəran (44,1 faiz), Zaqatala (41,5 faiz), Oğuz (40,0 faiz), Xankəndi (36,7 faiz), Ağdərə (36,6 faiz), Qəbələ (31,0 faiz), Hadrut (30,3 faiz), İsmayıllı (29,2 faiz) rayonlarında, ən az isə Naxçıvan (0,4 faiz), Kürdəmir (0,4 faiz), Tərtər (0,6 faiz), İmişli (0,7 faiz), Ucar (0,7 faiz) və Sabirabad (1,0 faiz) rayonlarındadır. Abşeron, Zərdab, Salyan və Ordubad rayonlarında, demək olar ki, tamamilə meşə yoxdur".

Akademik bu bölgələrdə meşələrin az olmasını apardığı genişmiqyaslı araşdırmalardan sonra müəyyən etmişdir.




Problemin aradan qaldırılması üçün alim hər bir Azərbaycan vətəndaşının bir ağac əkməsinin vacib olduğunu qeyd edirdi. Özü də bu kampaniyanın önündə getməklə, əsl ziyalı və BÖYÜK AZƏRBAYCANLI olduğunu nümayiş etdirirdi. Əksər hallarda qruplar təşkil edən alim şoran ərazilərdə meyvə ağaclarının əkilməsini həyata keçirirdi. Bilavasitə onun rəhbərliyi ilə Böyük Qafqazın şərq qurtaracağındakı geniş sahələrdə salınan püstə, badam, fıstıq, qoz, alma, armud və digər meyvəli meşə massivi bu gün də xoş əhval-ruhiyyə yaradır, insanlara böyük nemət

bəxş edir. Quraq təbiəti olan alçaq dağlıq ərazilərdə meşəsalmaya xüsusi önəm verən akademik bu istiqamətdə geniş iş aparmışdı. Çəkilən böyük zəhmət hesabına Həsən Əliyev Kür boyu ərazilərdə əsasən iynəyarpaqlı ağac növlərindən meşə salınmasına nail olmuşdur.



Akademik Həsən Əliyev Azərbaycanın cənubunda bitən relikt ağac və kol kökləri haqqında ətraflı məlumat verir və bu ağacların mühafizəsinin vacibliyini qeyd edirdi. Məhz onun səyi və zəhməti hesabına Lənkəran rayonunun düzən və dağətəyi zonasında Hirkan dövlət meşə qoruğu yaradılmışdır. Söz yox ki, bu bölgədə Talış dağlarının meşə örtüyü, yaşıllıqları

daha cəlbedicidir. Bu bölgənin hər bir ağacı, kolu insan üçün qiymətlidir, əzizdir. Həm də belə meşələr dağların gözəlliyi, yaraşığı, əzəməti olub, eyni zamanda, istirahət və sağlamlıq sahəsidir. Ona görə də bu bölgə təbiətin əvəzedilməz yadigarı kimi qorunub saxlanılmalıdır. Təəssüf ki, Həsən Əliyevin yerlərdə meşələri qorumaq barədə təbliğati işlər, maarifləndirmə tədbirləri aparmasına baxmayaraq yenə də ağaclara balta çalan, sağlam, nadir ağac növlərini öz mənfəətləri xatirinə məhv edənlər olurdu. O dövrdə Lənkəran və Masallı ərazilərinin düzən və dağətəyi hissəsində yüzlərlə qanunsuz, özbaşına kəsilmiş ağaclar olmuşdur. Hündür dağlıq zonasında meşələrə daha çox divan tutulurdu. Yaddan çıxarılırdı ki, dağ meşələri yamaclarda torpaqları məhv olmaqdan, yuyulub dərələrə aparılmaqdan mühafizə edir, çayların su axınını nizama salır. Ağacların özbaşına kəsilməsi səbəbindən tez-tez Talış dağlarına yaxın ərazilərdə sürüşmələr baş verir, nəticədə, çaylar məcrasını dəyişir, yaşayış evləri uçqunlara məruz qalırdı. Sonrakı illər Azərbaycan hökumətinin qərarına əsasən, Talış dağlarında min hektarlarla yeni üzüm bağları salındı. Bu plantasiyaların salın-

ması elmi əsaslara söykənmişdir. Çünki üzüm bağları dəniz səthindən 800-1000 metr hündürlükdə salına və bol məhsul verə bilər. Üzümçülüyün inkişaf etdirilməsi o dövrün qarşıya qoyulan əsas vəzifələrindən idi. Bu həm də o bölgə əhalisinin məşğulluğunun artırılması, yaşayış durumunun yaxşılaşdırılması demək idi. Bununla belə, meşələrin qorunub saxlanması, inkişaf etdirilməsi həyati məsələ hesab olunurdu. Bu səbəbdən o dövrdə Talış dağlarında üzümçülüyün salınması ilə yanaşı, meşə massivinin də yaradılmasına xüsusi önəm verilirdi. Ümumilikdə, Talış dağlarında 1970-1975-ci illərdə badam ağacları və şabalıdyarpaq palıd əkilmişdir. Vətəni Azərbaycan hesab olunan Eldar şamı ilk dəfə hələ keçən əsrin sonlarında Gəncədə və Şüvəlanda da əkilmişdir. Eldar şamının geniş sahələrinə hazırda Abşeronda daha çox rast gəlmək olar. Azərbaycanın bəzi bölgələrinin, o cümlədən Abşeron, Bakı və Sumqayıt şəhərlərinin yaşıllaşdırılmasında Eldar şamı əsas yer tutur. Eldar şamı qiymətli bioloji-ekoloji xüsusiyyətlərinə və təsərrüfat əhəmiyyətinə görə digər ölkələrin quraqlıq rayonlarında da özünə şöhrət qazanmışdır. Hazırda bu ağaca Fransada,

Bolqarıstanda, Rumıniyada, Suriyada, Misir Ərəb Respublikasında da rast gəlmək olar. Respublikamızın meşə xəzinəsində, Talış dağətəyi meşələri ilə yanaşı, tuqay meşələri də böyük əhəmiyyətə, qiymətə malikdir. Bu meşələrin tarixi qədimdir. Bu haqda Həsən Əliyev "Kürqırağı tuqay meşələri" əsərində geniş və əhatəli şəkildə yazmış, tuqay meşələrinin keçmişi və indiki vəziyyəti haqqında öz tədqiqatlarına əsasən xeyli məlumatlar vermişdir. Ümumilikdə, tuqay meşələrinin qalıqlarını bir çox düzən çayların ətrafında görmək olar.



Tuqay meşəsi daha cox Kür çayının sahillərində yerləşir. Yaşadığı dövrdən 50-60 il əvvəl Kür çayı sahilində meşə örtüyü barədə fikirlərini bildirən təbiətşünüs Həsən bəy Zərdabi yazırdı ki, Kür çayı sahilləri bütün axını boyu meşə ilə örtülü olmuşdur. Uzaq olmayan keçmişdə 20 min hektar Samux meşəsi adı ilə tanınan tuqay meşəsi Mingəçevir dənizinin altında qalmışdır. 5 min hektardan çox Kürqırağı meşəsi Şəmkir su elektrik stansiyasının tikilməsilə bağlı su altında qalmışdır. Akademik Həsən Əliyev 1969-1972-ci illərdə Kürboyu tuqay meşələrində hökm sürən acınacaqlı vəziyyətin səbəblərini tədqiq etmişdir. Alim tuqay meşələrinin Mingəçevir su anbarından aşağı ərazilərdə quruması səbəblərini aşkar etmiş, onların kserofil ağac kol qruplaşmaları ilə əvəz olunmasını müəyyənləşdirmişdir. Bundan sonra tuqay meşələrinin müasir vəziyyətini əks etdirən irimiqyaslı xəritə tərtib edilmiş, onların bərpası üçün elmə əsaslanmış tədbirlər sistemi hazırlanmışdır. Kürqırağı zonada yerləşən 8 meşə təsərrüfatının ümumi sahəsi 63 min hektar təşkil edir. Meşə ilə örtülü sahə isə  25 min hektardır, bu isə ərazinin 41 faizi deməkdir. Kür çayı boyu təbii meşələrin sahəsi 21 min hektara

bərabərdir. Bu meşələrin yalnız 8 min hektarı əsas ağac cinsi olan qovağın payına düşür. Kür çayı zonasında qovaq meşələrinə Salyana qədər bütün çay boyu rast gəlmək olur. Bu meşələrin əsas sahəsi Ağdaşın Körpükəndinə kimi səpələnmişdir. Söyüd meşələrinin sahəsi Kür qırağında 3,5 min hektar olub əsasən Kürün Körpükənddən aşağı axınında təmsil olunmuşdur. Hazırda Ağdaş və Bərdə rayonları ərazisində Körpükəndə qədər olan məsafədə xırda qruplarla cavan qarağac meşəsinə rast gəlinir. Burada qarağac meşələrinin sahəsi 1030 hektara çatır. Kürqırağı zonada qarağac meşəsinə cəmi 440 hektar sahədə rast gəlmək olar.



Həsən Əliyev meşəyə, yaşıllığa xüsusi diqqət yetirirdi. Təmasda olduğu insanları meşələri qorumağa, yaşıllıqlara diqqətli olmağa çağırırdı. Akademik söhbətlərində, yazdığı əsərlərində yaşıllıqları təbiətin təkrarolunmaz hissəsi adlandırırdı. Deyirdi ki, meşə bütün canlı aləm üçün əlverişli şərait yaradır, özünü, ətrafını qida və su ilə təmin edir, insanlara təmiz hava, gözəl əhvali-ruhiyyə bəxş edir.  Məhz bu kimi amillər səbəbindən akademik Həsən Əliyev hər zaman əlindən gələni edərdi ki, meşələrin, yaşıllıqların məhv olmasının qarşısını alsın. Hansısa bir şəxsin hansısa bir ağaca və ya yaşıllığa zərər verdiyini görsəydi, onu etdiyi hərəkətinə görə danlayardı. Çünki Həsən Əliyev təbiətlə nəfəs alan bir şəxsiyyət idi. O, Azərbaycan təbiətinin təbliğatçısı idi.

Təbii ehtiyatların tədqiqi, təbiətdən səmərəli istifadənin elmi cəhətdən əsaslandırılması və onların mühafizəsinin təşkili akademik Həsən Əliyevin elmi və ictimai fəaliyyətinin əsas istiqamətini təşkil etmişdir. Azərbaycan təbiətinin, torpağının və suyunun mühafizəsi sahəsində onun xidmətləri əvəzsizdir. O, cəmiyyətin ekoloji maarifləndirilməsinə, təbiətin mühafizəsi haq-

qında biliklərin təbliğinə böyük əhəmiyyət verirdi. Böyük alim əsərlərində Azərbaycan təbiətini çəkdiyi bütün şəkilləri ilə təsvir edirdi. Təbiətin vurğunu olan alim onun qorunması üçün insanlar arasında maarifləndirmə işi aparmaqla kifayətlənməyib, tez-tez mətbuatda çıxışlar edər, təbiətin qorunması, zənginləşdirilməsi problemlərindən söz açar, təbiəti qorumaq yollarına dair çağırışlar edərdi.

Onun təkidi ilə yaradılmış və 15 ildən artıq baş redaktoru olduğu "Azərbaycan təbiəti" jurnalı hər bir meşəçinin, torpaqşünasın tribunasına çevrilmişdi. Jurnalda kənd həyatı, təbiət, ətraf mühitin öyrənilməsi və qorunması, ekologiya ilə bağlı istənilən suala cavab tapmaq olurdu. Eyni zamanda, "Azərbaycan təbiəti" jurnalında bölgələrdə bitən nadir ağaclar, füsunkar təbiət mənzərələri orijinal fotoşəkillərlə əks olunurdu ki, bu da insanların təbiətə bağlılığında müstəsna rol oynayırdı. Bir növ "Azərbaycan təbiəti" elmi-kütləvi jurnalı ətraf mühitin mühafizəsində fəal iştirakçı, təbii ehtiyatların qorunması və bərpası sahəsində geniş elmi və təbliğat işləri aparırdı ki, bu da Həsən Əliyevin həm də maarifpərvər bir ziyalı olduğunu göstərirdi.

Meşə insan həyatının varlığı deməkdir. Əgər meşə yoxdursa, kənd təsərrufatı, hava və su da yox kimidir. Meşə rəssamı ilhama gətirəndir. Yəni meşə hər şey deməkdir. Meşəni sevən millətinə də bağlı olar. Akademik Həsən Əliyevin xalqına bağlılığı, meşəyə olan sevgisi ilə tamamlanırdı. O, yorulanda, istirahət etmək istəyəndə dağ yamaclarına üz tutar, meşələr qoynuna çıxardı. Ruhi rahatlığını müxtəlif ağacların budaqlarına əl gəzirməklə yarpaqlarına sığal çəkməklə tapardı.

Böyük alim torpaqların coğrafiyasının tədqiqinə, Azərbaycanda beynəlxalq bioloji proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir. Bundan başqa, o, meşə torpaqlarının coğrafiyası, torpaqların xəritələşdirilməsi, ekoloji problemlərin həlli, torpaq meliorasiyasının inkişafı sahələrində misilsiz xidmətlər göstərmişdir. Respublikanın bütün torpaq mənzərəsinə yaxşı bələd olan alim onun mühafizəsi problemlərinin beynəlxalq aləmdə təbliğatçısı olmuşdur.

Zəhmətkeşliyi, fəaliyyətini elmin inkişafına sərf etməsi ona böyük hörmət, nufuz qazandırmışdır.



Böyük elm xadimi müxtəlif vəzifələrdə çalışsa da, torpaq heç vaxt diqqətindən yayınmamış, əksinə, imkanlarının genişlənməsi hesabına bu istiqamətdə tədqiqiat işlərini daha da gücləndirmişdir. Bununla da o, təbiətin mühafizəsinə, qayğısına  xüsusi önəm verdiyini nümayiş etdirmişdir. Eyni zamanda, o, rəhbər vəzifələrdə çalışmasına  baxmayaraq elmi-tədqiqat işlərində yaxından iştirak etmiş, günlərlə yolsuz, izsiz ucqar kəndlərdə qalaraq elmi-tədqiqat işləri aparmışdır. Akademik bu cür işlərdən yorulmadığını, əksinə, böyük güc aldığını deyirdi. Əldə etdiyi elmi nəticələri, kəşfləri böyük həvəslə insanlarla bölüşməkdən, elmi jurnallarda dərc etdirməkdən zövq alırdı.

Həsən Əliyev Azərbaycanın ətraf mühitini dərindən öyrənən, tədqiq edən, onun havası ilə yaşayan bir şəxs idi. Onun elmi fəaliyyət dairəsinə torpaqşünaslıq nəzəriyyəsi, botanika, biocoğrafiya, meşəşünaslıq, torpaq-meşə, meliorasiya və aqrokimya, bitkiçilik, təbii ehtiyatların daha səmərəli istifadəsi kimi problemlər daxil olmuşdur. Bu problemlərin yaranma səbəbləri və onların həlli yolları barədə Həsən Əliyev bir sıra qiymətli elmi əsərlər nəşr etdirmişdir.



Akademik Həsən Əliyev təkcə Azərbaycan torpaqlarını, ekologiyasını deyil, həm də Böyük Qafqazın dağ-çəmən torpaqlarını araşdırmış, bütün Qafqazın torpaqlarının yaranması və

yayılması qanunauyğunluqlarını təhlil etmişdir. Akademik Həsən Əliyev elmi tədqiqatlarının nəticələrini daim müvafiq sahəyə tətbiq etməyə çalışırdı. Ona görə də, torpaqlara, meşələrə, əkinçiliyə və digər sahələrə dair nəticələri ümumiləşdirir, rayonlaşdırır və xəritələşdirirdi. Son nəticədə onların əsasında ərazilərin inkişaf problemlərinə dair təkliflər verirdi. Həmin təkliflər bu gün də öz dəyərini və aktuallığını saxlamışdır. Akademik Həsən Əliyev təbiətin və ətraf mühitin mühafizəsi sahəsində genişmiqyaslı tədbirlər planının hazırlanmasına və tətbiqinə nail olmuşdur. O elmi fəaliyyətinin son dövrlərində əsas diqqətini Azərbaycanın ekoloji problemlərinə, o cümlədən respublikanın torpaq fondunun qorunması, torpaqların eroziyası, çirklənməsi və rekultivasiyası məsələlərinə yönəltmişdir. Bu istiqamətdə əldə etdiyi tədqiqatlarını, elmi araşdırmalarını kitablar şəklində ümumiləşdirərək, cəmiyyətə, insanlara çatdırmışdır. Bu baxımdan, brmənalı şəkildə demək olar ki,  Azərbaycan təbiətinin qorunması işinin təşkilində Həsən Əliyevin nümunəsi hər kəsə həmişə çox böyük dayaq olmuşdur. Məhz elə bu səbəbdən də hər bir vətəndaş daim təbiətin mühafizəsi işinə ciddi

yanaşmağa, qısası, Həsən Əliyev məsləhətlərinə əməl etməyə çalışıb. Məlum faktdır ki, dünyada iqlim dəyişikliklərinin baş verməsi təbiətdə arzu olunmaz təhlükələr yaradır. Dünya alimlərinin fikrincə, iqlim dəyişikliklərinin əsas səbəbləri antropogen faktorlarla, yəni insan fəaliyyətinin təsirləri nəticəsində yaranan səbəblərlə bağlıdır. Məsələ burasındadır ki, qlobal iqlim dəyişikliklərinin atmosfer proseslərinə təsir imkanları artdıqca təbii fəlakətlərin artma tendensiyası da planetimizi daha çox təhdid edir.



Bu gün qlobal istiləşməni əsrin ən böyük təhlükəsizlik problemi kimi qiymətləndirmək olar. Terrordan belə daha təhlükəli sayılan qlobal

istiləşmənin nəticəsi olaraq, iqlim dəyişikliklərinin qarşıdakı illərdə də artacağı gözlənilir. Dünya alimləri iqlim dəyişikliyinin doğurduğu fəsadların qarşısını almaq üçün yollar axtarırlar. Burada əsas məqsəd iqlim dəyişikliyinin ətraf mühitə vurduğu zərəri və antropogen təsiri minimuma endirməkdir. Qlobal istiləşmənin meydana gətirdiyi təbii fəlakətlər yalnız can itkisi ilə məhdudlaşmır, həm də dünya iqtisadiyyatına mənfi təsirlərini göstərir. Dünyanın müxtəlif bölgələrində zəlzələlər, qasırğalar, sellər və bu kimi digər fəlakət xəbərlərini, demək olar ki, hər gün eşidir, müşahidə edirik. Təbii fəlakətlərin təxminən 80 faizi hidrometeoroloji, yalnız 15-20 faizi yerin daxilində gedən tektonik proseslər nəticəsində baş verir. Özünü göstərən və təsirlərini hiss etdirən qlobal istiləşmənin təməl səbəbləri sırasında xüsusilə sənayeləşən ölkələr tərəfindən atmosferə atılan müxtəlif qazların istixana təsiri yaratmasıdır. İnsan tərəfindən atmosferə buraxılan qazların istixana təsiri yaratması nəticəsində Yer səthində istiliyin artması qlobal istiləşmənin xarakterik xüsusiyyətidir. İstixana təsirinin artması, atmosferin üst hissəsinin, yəni stratosferin soyumasına, altdakı troposferin isə

istiləşməsinə gətirib çıxarır. Parnik effekti yaradan qazlar günəş şüalarını qısa dalğalarda buraxırlar. Yerdən əks olunan uzun dalğaları isə udur və əlavə istilik effekti yaradır. Yeri gəlmişkən, qeyd edək ki, qlobal iqlimin qorunması istiqamətində dünya miqyasında bir sıra tədbirlər həyata keçirilib. Məsələn, 1992-ci ildə BMT-nin "İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası" qəbul olunub ki, burada da məqsəd iqlim dəyişmələrinin müəyyən çərçivəyə salınmasını nəzərdə tutur. Onun işlək mexanizmi kimi Kioto Protokolu qüvvədədir. Qlobal istiləşmənin nəzəri cəhətdən ortadan qalxmasını gözləməyin heç bir xeyri yoxdur. Yaddan çıxarmaq olmaz ki, uyğun olmayan şərtlər daxilində ərazi istifadəsindəki dəyişikliklər, meşələrin qırılaraq azaldılması, müxtəlif insan fəaliyyətləri nəticəsində atmosferdəki təcrübələr, sənaye inqilabından sonra əhəmiyyətli səviyyədə artan istixana qazları və başqa bu kimi hadisələr iqlim dəyişikliklərinə səbəb olmaqdadır. Bu vəziyyət isə qlobal istiləşməni meydana gətirir.

Təbii ki, iqlim dəyişikliklərinin başlıca səbəbləri kimi bəzi dövlətlərdə hərbi münaqişələr, eləcə də ekoloji vəziyyəti tənzimləmədən

iri zavod və fabriklərdən tüstülərin atmosferə buraxılması, kütləvi çirklənmələr və azon qatının deşilməsi göstərilir. Bu cür təhlükəli vəziyyətin aradan qaldırılması üçün ağaclar müxtəlif məqsədlər üçün kütləvi şəkildə qırılır, meşələr səhlənkarlıq səbəbindən oda, alova bürünür. Bu yerdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tarixi fikrini qeyd etmək istəyirəm. O deyirdi: "Təbii sərvətlərə qayğı ilə yanaşılması, planetin genefondunun qorunması, ekoloji sağlamlıq və digər problemlər ayrılıqda hər bir dövləti ciddi düşündürsə də, onları birgə səylərlə həll etmək mümkündür".



Bəli, Ulu öndərin qeyd etdiyi kimi, istənilən problemi həll etmək mümkündür, yetər ki, birgə

səylər olsun. Qlobal iqlim dəyişikliyinin ağır fəsadlarını da aradan qaldırmaq üçün o zaman akademik Həsən Əliyev ağacların əkilməsi, meşələrin salınmasını çıxış yolu kimi göstərir və deyirdi ki, oksigenin mənbəyi ağaclardırsa, deməli iqlim dəyişikliyini aradan qaldırmaq üçün ağacların əkilməsinə nail olunmalıdır. Bu istiqamətdə o, geniş və əhatəli işlər gördü. Faktlara əsasən demək olar ki,  o zaman respublika ərazisinin cəmi 9 faizini meşələr təşkil edirdi. Bilavasitə Həsən Əliyevin torpaq-meşə tədqiqatları nəticəsində artıq 1970-ci ildə bu göstərici 11 faizə yüksəlmişdir. Görkəmli təbiətşünas alim Həsən bəy Zərdabinin məlumatına görə, keçmişdə Azərbaycan ərazisinin çox hissəsi meşə ilə örtülü olmuşdur. Zaman ötdükcə əkinçiliyin və maldarlığın sürətli inkişafı, eləcə də insanların meşələrdən düzgün istifadə etməməsi nəticəsində onun xeyli hissəsi sıradan çıxmışdır: "Bizim dağlarımız vaxtilə sıx meşələrlə örtülü olmuş, sonra bu meşələr qırılmış və bunun nəticəsində çaylarımızda olan suyun miqdarı azalmışdır". Akademik tədqiqatlarında torpaq-meşə əlaqələrini çox ciddi surətdə araşdırmışdır. Bu barədə onun "Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə-

bozqır torpaqları" kitabında daha geniş şəkildə yazılmışdır. Həsən Əliyev kitabında yazır: "Quba-Xaçmaz zonasının və Bakı şəhərinin əhalisi içdikləri təmiz Şollar suyuna görə bu dağların meşələrinə və torpaqlarına borcludurlar".



Bu fikirlə akademik insanlara meşələrə, dağlara həssas yanaşıb, onların qayğısına qalmalarını tövsiyə edir. O deyirdi ki, "təbii gözəlliyi görmək hər şeydən əvvəl ona qarşı qayğı göstərmək deməkdir. Əgər bu gözəlliyin qayğısına qalmırıqsa, deməli, onu görmürük". Məhz süni gözəlliyin təbii gözəlliklə əvəz olunması üçün akademik Həsən Əliyev müxtəlif növ ağacların

əkilməsinə, yaşıllıq zolaqlarının salınmasına xüsusi maraq göstərirdi.

1960-1970-ci illərdə Azərbaycanın bir sıra rayonlarında genişzolaqlı ağac və kol cinslərinin əkilməsində akademik Həsən Əliyevin xüsusi rolu olmuşdur. Şabran rayonunun Qusar rayonu istiqamətində, magistral avtomobil yolunun sağ və sol hissələrində mövcud olan meşə zolaqlarını məhz Həsən Əliyev saldırmışdır. Bu gün həmin meşə Həsən Əliyev meşəsi adlandırılır.



Akademikin oğlu, memar Rasim Əliyev demişdir: "Atam Azərbaycan meşələrinin məftunu idi. Deyərdi ki, ən qansız, qəddar insan təbiətə qəsd edəndi. Mən istəyirəm ki, Azərbaycanda heç bir ağacın budağı da kəsilməsin, meşələr qırılmasın, nadir sərvətlərimizin nəsli kəsilməsin. Bir ağacı ərsəyə gətirmək üçün bəzən bir insan ömrü bəs etmir. İnsanlar bilməlidirlər ki, selin, suyun, daşqının qarşısını kəsən, təbii fəlakətlərə sinə gərən meşələrdir. Meşələr həm də torpağın zinətidir. Bir sözlə, Azərbaycan təbiəti bütün nemətləri, gözəllikləri ilə atamı özünə elə bağlamışdı ki, o, ömrünün mənasını bu zümrüd dünyanın mühafizəsində görürdü. Heç bir fəslin fərqi, vaxt anlayışı onun üçün yox idi. O, hər bir ağaca, gülə, çiçəyə, bulağa nəfəsi gedib-gələn canlı varlıq kimi baxırdı".

Akademik Həsən Əliyev torpağın çirklənməsinin, deqradasiya prosesinin qarşısının alınmasına çalışıb. Bu baxımdan o, Pirquluda stasionar təşkil etməklə torpağın əmələgəlmə prosesini geniş şəkildə öyrənmək imkanını yaratdı. İnsan öz təhlükəsizliyini təmin etmək üçün təbiətlə əlaqələrini düzgün qurmalıdır. Əks münasibət yaşayış məskənlərinin çökməsi ilə yanaşı, insanın

da zülmə, əziyyətə düçar olmasına gətirib çıxara bilər. Bu baxımdan təbiətə münasibətdə ögeyliyə, biganəliyə əsla yol vermək olmaz. Yaxşı bir ənənənin əsasını qoyan  Həsən Əliyev bununla bir nümunə göstərib və ağac əkmək, meşə salmaq kimi təmiz, xeyirxah bir nümunəni ölkəmizin bir sıra ərazilərində meşə massivlərinin salınması ilə ortaya qoyub.



Azərbaycanda müxtəlif növ ağacların bitdiyini nəzərə aldıqda meşə təsərrüfatının zəngin olduğunu demək olar. Bu ağaclar yalnız insanelara meyvə və odun tədarükü üçün deyil, həm də

torpaq bərpa işlərində də böyük əhəmiyyətə malikdir. Xüsusilə də, Vətəni Azərbaycan hesab olunan Eldar şamı dağətəyi ərazilərdə errozi-yanın qarşısının alınmasında müstəsna torpaq bərpa işlərinə malikdir. Alimlərin gəldiyi qənaətə görə, dünyada şamın yüzə qədər növü məlum-dur. Azərbaycanda isə iki növ şam ağacı bitir: bunlardan biri Eldar, o birisi isə Qırmaqvarı şam növüdür. Qırmaqvarı şama təbii halda respub-likamızda həm Böyük Qafqaz, həm də Kiçik Qaf-qaz dağlarında rast gəlinir. Kəpəzdə şam meşə-lərinin yaranması tarixi XII əsrdə baş vermiş, qədim Gəncə şəhərini dağıdan dəhşətli zəlzələ nəticəsində Kəpəz dağının bir hissəsinin uçması hadisəsi ilə bağlıdır. Aparılan araşdırmalar za-manı Kəpəz dağında axırıncı şam ağacı dəniz səthindən 2280 metr yüksəklikdə qeydə alınmış-dır. Qrup halında və tək-tək yeni əmələ gələn şam ağaclarının əsasən 10-30 yaşı vardır. Bu ərazidə bir neçə ədəd də 80-100 yaşı olan şama rast gəlmək olur.

Akademik Həsən Əliyev rayonlarda olarkən gününü daha cox meşələrdə, dağlar qoynunda keçirərdi. Onu özünə daha çox çəlb edən uzunömürlü, yaşları əsrlərə bərabər olan ağaclar

olardı. Bir sözlə, o, meşələrin vurğunu olmaqla bərabər, həmçinin Azərbaycanın bütün meşələri haqqında ensiklopedik biliklərə də malik idi. Onun Azərbaycanın bütün regionlarındakı meşələr haqqında məlumatı vardı: meşədə bitən ağacları yaxşı tanıyır, onların latınca adlarını da bilirdi. Ümumiyyətlə, akademik hələ uşaq ikən əksər ağac və kolların adı haqqında bilgilərə malik olmuşdur. Təbii ki, yenə də onun bu sahədə ilk müəllimi babası olmuşdur. Akademik "Həyəcan təbili" kitabında yazır: "Babamdan soruşdum ki, babası ona nə vəsiyyət eləyib? Babam dedi:

- Bala, mən də sənin kimi bu kollara ilişib yıxılanda gileylənmişdim ki, niyə bu meyvəsiz kolları qırıb yandırmır, odun üçün meşəyə gedirsiniz, kərmə, təzək qurudursunuz? Babam cavabında demişdi:

- Bala, deyirlər ki, ardıc ağacını qırmaq günahdır, onun közü gec sönür. Babalarımız da bu müqəddəs ağacın ocaqdakı közünü bu gündən sabaha saxlayarmışlar.



İndi ki od saxlamırlar. Kibrit var. İstənilən vaxt ocağı yandırmaq mümkündür, - deyə mən səbirsizliklə dilləndim. Babam bu dəfə cavab verməyə tələsmədi. Papağını çıxardı, əlini geniş alnında, çal saçlarında gəzdirdi və dedi:

- Camışuçan güneydəki buğda əkdiyimiz yerin üst tərəfini kolluq - ardıc kolu və badamçalıq (badamça cır badama deyirlər) basmışdı. Onları doğrayıb yandırdıq ki, əkin yeri bir qədər genişlənsin. Demə, burada torpaq qatı çox yuxa, cəmisi 7-8 sm qalınlığında olub. Yazın gur yağışı ağzını açanda yuxarıdan sel gəldi, kolluğun yerini təmiz yudu, taxıl zəmisini də kökündən süpürüb apardı. Comərd babamın vəsiyyəti yadıma düşdü. Doğrudan da kartof yerini, taxıl zəmilərini yuxarı tərəfdən sel sularından müha-

fizə edən həmin ardıc ağacları və cır armud kolları imiş".

Respublikamızda meşələrin və meşə torpaqlarının elmi cəhətdən tədqiqi və mühafizəsi sahəsində akademik Həsən Əliyevin müstəsna rolu olmuşdur. 1956-cı ildə bu böyük alim Azərbaycan EA Toraqşünaslıq və Aqrokimya İnstitutunda işləyərkən orada meşə torpaqşünaslığı şöbəsi yaratmış və ömrünün sonuna qədər meşələrin və meşə torpaqlarının öyrənilməsi ilə məşğul olmuşdur. Eləcə də Azərbaycan EA Coğrafiya İnstitutunda respublikanın meşə örtüyünün hərtərəfli öyrənilməsi üçün təbiəti mühafizə şöbəsi və biocoğrafiya laboratoriyası akademikin ideya müəllifliyi ilə yaradılmışdır.

Akademik elmi təcrübələrindən əldə etdiyi nəticələrdən müxtəlif növ ağaclar yetişdirmişdir. Hazırda həmin ağaclar respublikamızın müxtəlif bölgələrində meşələrimizi bəzəməkdədir. Bu istiqamətdə elmi-tədqiqat işləri aparарkən Həsən Əliyev respublikanın müxtəlif regionlarında ayrı-ayrı ağac sortları da yetişdirmişdir. Ümumiyyətlə, o, Coğrafiya İnstitutunun direktoru işlədiyi dövrdə respublikamızda 40 min hektardan artıq dağ- meşə altından çıxmış torpaqlardan daha

səmərəli istifadə etməyin yollarını müəyyənləşdirmişdir. Azərbaycan kimi ölkə üçün bu rəqəm olduqca ürəkaçandır.

Akademik 1969-1990-cı illərdə apardığı çöl tədqiqatları nəticəsində ayrı-ayrı dağ və düzən bölgələrin müxtəlif təbii zonalarında hələ az-çox ilkin vəziyyətini saxlamış meşə obyektləri aşkar etmiş və onların mühafizə olunması üçün yeni qoruqların və yasaqlıqların təşkili ilə bağlı təkliflər vermişdir. Təkliflərin nəzərə alınması səbəbindən meşələrin sıradan çıxmasının qarşısı alınmışdır. Məhz bu tədqiqatların nəticələri olaraq akademik "Azərbaycanın Kürboyu tuqay meşələri", "Yaşıl sərvətin keşiyində", "Meşənin taleyi insanın öz əlindədir", "Meşə sərvətdir" monoqrafiyalarını və kitablarını yazmışdır. Eyni zamanda, elmi-tədqiqat işlərinin müsbət nəticəsi olaraq akademik Həsən Əliyevin səyi ilə ilk dəfə respublikanın meşələrində etalon ağacların məhsuldarlığını müəyyənləşdirmək üçün modellər hazırlanmış, 1:600000 miqyasında Azərbaycan respublikasının meşə örtüyü xəritəsi tərtib edilmişdir. Meşə örtüyünün ziyanverici həşəratlardan mühafizəsi üçün antomofaqlar aşkar edilmiş,

entomoloji ziyanvericilərə qarşı mübarizə üsulları işlənib hazırlanmışdır.

Akademik Həsən Əliyev tuqay meşələrinin Allahın Azərbaycan xalqına verdiyi ən böyük sərvət, xəzinə olduğunu bildirirdi. Amma təəssüf hissi ilə onu da qeyd edirdi ki, bu sərvəti özümüz, öz əlimizlə məhv etməyə çalışırıq: "Sahil boyu uzanan tuqay meşə zolağını isə təbiət özü bizə bəxş etmişdir. Onun olduqca böyük əhəmiyyəti vardır.



Bu təbii zolaq onu əhatə edən ərazinin iqlimini nizama salır, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının sabitliyinə və yüksəldilməsinə gözəl və əlverişli şərait yaradır. Bundan başqa, bu meşələr böyük torpaqqoruyucu və sahilbərki-

dici rola malikdir. O, həm də Kür çayının təbii, əvəzsiz bəzəyi kimi göz oxşayır. Ov heyvanları və quşlar üçün isti sığınacaq, ipək qurdundan ötrü yaxşı yem bazası, əmək adamlarının isə gözəl istirahət guşəsi rolunu oynayır. Vaxtilə Kür sahillərində tuqay meşələri çaydan aralandıqca, xüsusi təbii zonallıq əmələ gətirir. Çayın lap kənarı ilə subasar hissədə yayılan söyüd meşəsi sahildən uzaqlaşdıqca üstünlük ağyarpaq qovaqlara keçir. Bu meşələr çoxmərtəbəli ağaclıqlar yaradır. Burada birinci mərtəbəni iri qovaq, ikinci mərtəbəni qarağac, bəzən tut ağacları, üçüncü mərtəbəni isə müxtəlif kollar tutur. Bu meşəliklərdə bir sıra həmişəyaşıl sarmaşıqlar geniş yayılaraq bəzən sıx cəngəlliklər əmələ gətirir. Azərbaycan meşələrinin insanlara bəxş etdiyi böyük xeyir, tükənməz mənfəəti ilə akademik çoxsaylı tədqiqat işləri aparmış və bütün əsərlərində, monoqrafiyalarında meşənin insan həyatında rolunun yüksək olduğunu qeyd etmişdir. Məlum faktdır ki, meşələr müxtəlif coğrafi zona və rayonların iqliminin, havasının formalaşmasına təsir göstərir. Meşə yaşayış məntəqələrini və şəhərlərin mədəni-estetik görünüşünə xüsusi gözəllik verməklə yanaşı, insanların səhiyyə-

gigiyenik cəhətdən təminatında da önəmli rol oynayır. Eyni zamanda, meşələr fabrik və zavodların havaya ötürdüyü karbon qazını udur və atmosferi insanın tənəffüsü üçün labüd olan oksigenlə zənginləşdirir. Bu baxımdan yaşıllıqlar insanın sağlamlığı və uzun ömür sürməsi üçün əsas şərtdir. Həsən Əliyev deyirdi ki, meşələr insanın sağlamlığında təbib rolunu oynayır. Təbiətşünas alim Həsən bəy Zərdabi isə yazırdı ki, bitki aləmi bizim üçün nəinki yalnız qida kimi, əsas etibarilə bir də ona görə lazımdır ki, bizi boğulmaqdan qoruyur. Alimlərin hesablamalarına görə bir hektar meşə bir gün ərzində 24 kq karbon qazı udur. Rus alimi K.A.Timiryazev yaşıl ağacları "həyat mənbəyi" adlandırmaqla yanaşı yazırdı ki, bir hektar meşənin istehal etdiyi oksigen 30 nəfərin normal tənəffüsünü təmin edir. Meşə havanın təbii süzgəci olub onu zərərli qarışıqlardan, hisdən və tozdan təmizləyir. Bir hektar küknar meşəsi 32 ton, şam meşəsi 36 ton, palıd meşəsi 54 ton, fıstıq meşəsi 68 ton tozu özündə saxlaya bilir. Meşə və yaşıllıqlar şəhər və qəsəbələrdə səs-küyün qarşısını alır. Akademik Həsən Əliyev dünya meşələri haqqında ətraflı araşdırmalar da aparmışdır. O,

əsərlərində qeyd edir ki, yer səthinin üçdə bir hissəsini meşəliklər təşkil edir. Onun qənaətincə, meşə sahələri başdan-başa qırılmış, yandırılmış, kənd təsərrüfatı üçün istifadə olunmuş və tədricən sıradan çıxmışdır. Eləcə də bir sıra dağ və düzən meşələri intensiv otarılmış, nəticədə tropik meşələrin 40 faizi məhv edilmişdir: "Yalnız Amerikanın hərbi bazalarının yerləşdirilməsi üçün burada on minlərlə hektar qoruq meşələri dağıdılmışdır. Meşələrin yox edilməsi dünyanın bir sıra ölkələrində su dövrünün zəifləməsinə, eləcə də onun mənbələrinin yoxa çıxmasına, çayların qurulmasına və ya daşqınların yaranmasına, torpaqların şiddətli eroziyaya uğramasına, həmçinin şimal rayonlarında geniş bataqlıqların, cənub rayonlarında isə səhraların yaranmasına səbəb olmuşdur. Dünyada meşə ilə ən zəngin ölkə keçmiş SSRİ olmuşdur. Burada meşə örtüyü dünya meşələrinin üçdə bir hissəsini, statistik rəqəmlə isə 1 milyard 957 min hektar təşkil etmişdir. Yalnız Rusiya Federasiyasının meşə sahəsi ABŞ, Kanada, İsveçrə, Finlandiya və Fransa kimi ölkələrin birlikdə meşələrindən iki dəfəyə qədər çox olmuşdur. Bu gün də bu göstərici dəyişməz olaraq qalmaqdadır. Azərbaycanda isə

meşə örtüyü 1940-cı ilə qədər 9 faiz, sonralar isə 11 faiz təşkil etmişdir. Ölkəmizdə 1500-ə qədər ağac və kol növü vardır. Daha çox qovaq meşələrinə rast gəlinir. Onların ümumi sahəsi 15,8 milyon hektar təşkil edir. Eləcə də palıd meşələri mövcuddur ki, onların ümumi sahəsi 9,1 milyon hektardır. Azərbaycanda oduncaq ehtiyatı isə 76 milyard kubmetrdir. Meşələrimizin 90 faizə qədəri dağ yamaclarında, 10 faizi isə düzənliklərdə yayılmışdır. Azərbaycan meşələrinin 30 min hektarı dövlət qoruqlarının, 166 min hektarı isə kənd bələdiyyələrinin tabeliyindədir. Azərbaycan Respublikasının dağlarında özünəməxsus meşələr var. Böyük və Kiçik Qafqaz dağlarının aşağı qurşaqlarında İberiya palıdı, orta dağ-meşə qurşağında isə Şərq palıdı meşələri üstünlük təşkil edir. Fıstıq, palıd və vələs meşələrindən başqa, dağlarımızda kiçik sahələrdə səkkiz növ ağcaqayın, cökə, üç növ tozağacı, titrəkyarpaq qovaq, yunan qozu, şabalıd, Qafqaz xirniyi meşələrinə də rast gəlinir. Talışın dağlıq meşələri dünyada müstəsnalıq təşkil edir. Bu meşələrdə azat ağacı, İberiya və şərq palıdı, məxməri ağcaqayın, Lənkəran akasiyasına da rast gəlinir. Respublikamızda sel qorxusu olan 34

çayın hövzəsinin yalnız 30 faizə qədəri meşə ilə örtülüdür.

Dağ yamaclarında meşə sahələrinin azlıq təşkil etməsi sel hadisələrinin yaranmasına səbəb olur. Respublikanın dağlıq qurşağında fıstıq meşələri üstünlük təşkil edən yerlərdə eroziya prosesi nisbətən zəif gedir. Yaşayış məntəqələri ətrafındakı meşələrdə hədsiz dərəcədə mal-qara otarılır və özbaşına, qanunsuz qırıntılar aparılır.



Ona görə də güclü eroziya prosesi gedir, torpağın ana suxuru səthə çıxır, yarğanlar yaranır. Bu cür sahələrə Tovuz, Gədəbəy, Kəlbəcər və Dağlıq Qarabağ regionlarında daha çox rast gəlmək olur. Əhalinin odunla təminatında da

meşələr əvəzsiz rol oynayıb. Yaşı ötən, qurumuş ağaclar kəsilmiş, onların yerinə daha cavan və həmişəyaşıl ağaclar əkilmişdir.

Akademik Həsən Əliyev meşələrdə çürümüş ağacların qalmasının yolverilməz olduğunu bildirir və deyirdi ki, zəif inkişaf edən, çürümüş ağacların meşə örtüyü sıralarında qalması ümumi gözəlliyə xələl gətirməklə yanaşı, eroziyanın da qarşısının alınmasında əhəmiyyətsiz olurlar. Bu baxımdan vaxtaşırı olaraq, meşələrdə budama və təmizləmə işləri aparılırdı. Statistikaya əsaslanaraq demək olar ki, 1970-1980-ci illərdə Balakən, Zaqatala, Qax, Qəbələ, İsmayıllı, Xankəndi, Lerik və Lənkəran meşə təsərrüfatlarından 550 min kubmetr ağac, o cümlədən 300 kubmetr yararlı oduncaq əldə edilmişdir. Bəzən meşələrdə səhvən sağlam, qiymətli ağac növlərinin də kəsilməsi halları baş verirdi ki, buna qarşı akademik Həsən Əliyev dərhal sərt mövqe nümayiş etdirirdi. Alim insanlarla söhbətlərində bildirirdi ki, meşəqırma nizamsız şəkildə aparılarsa biz gələcəkdə qiymətli ağac cinslərindən ibarət məhsuldar dağ meşələrindən məhrum olarıq. Yaddan çıxarılmamalıdır ki, dağ döşündə meşə yalnız oduncaq mənbəyi deyil, həm də bu yamacların

möhkəm əvəzedilməz dayağı, dağıdıcı sellərin qarşısını alan yeganə vasitədir.

Təbiətin hökmdarı hesab olunan insan, eyni zamanda, onun ayrılmaz hissəsidir. Təbiətə xeyirxahlıq sakit həyatın təminatı, firavan yaşayışın yardımçısı deməkdir. Amma reallıq ondan ibarətdir ki, yaşadığımız dünyamızda tarix boyu insanlar təbiətdən istədiyini alsa da, qarşılığında təbiətə lazımi qayğı göstərməmişdir. İnsanlar belə hesab etmişlər ki, təbiət tükənməz bir mənbədir və ondan cəmiyyətin inkişafı üçün hər cür istifadə etmək olar. Əslində isə təbiətin düzgün dərk edilməməsi, çirkləndirilməsi, yaxud da quruluş zəncirinin parçalaması insanın özünə quyu qazması deməkdir.



Təbiətə biganəlik hüdudsuz sərvətlərdən gözgörəsi imtinaya gətirib çıxarır və sağlamlığın itirilməsi ilə nəticələnir. Məhz bu cür təhlükələrin aradan qaldırılması üçün akademik Həsən Əliyev bütün ömrü boyu təbiətə qayğısını əsirgəmədi. Çalışdı ki, insanla təbiət arasında yaranan mütənasibliyin qorunmasını təmin etsin. Birmənalı şəkildə təsdiq etmək olar ki, o, qarşısına qoyduğu bütün hədəfləri fəth etdi. Bununla da akademikin şərəfli, qürurverici, həm də mənalı ömür yoluna yalnız xeyirxahlıq və təşəkkürlər yazıldı. Təbiət vurğunu olan akademik müntəzəm şəkildə Azərbaycanın rayonlarına gedərək orada olan yaşıllıqlarla maraqlanır və əlindən gələn hər bir işi edirdi ki, onların sayı daha da artsın. Həsən Əliyev deyirdi ki, "Yaşıllıq olmayan yerdə həyat ola bilməz. Yaşıllıq harada var orada da həyat var". Bilavasitə onun təşəbbüsü ilə Şabranda, Şamaxıda, Zəngilanda və Talışın dağlıq ərazilərində eroziyaya məruz qalmış yararsız torpaqlarda püstə, badam, saqqızağac, eldar şamı və söyüdyarpaq armuddan istifadə olunmaqla meşə-bağlar yaradılmışdır.

## STRATEJİ SAHƏ-KƏND TƏSƏRRÜFATI

Həsən Əliyev istirahət günlərində də evdə oturmaz, təbiət qoynuna çıxaraq, əkilən ağacların taleyi ilə maraqlanardı. O zaman dağətəyi rayonlarda, xüsusən də Böyük Qafqazın ətəklərində meyvə bağlarının salınması məqsədilə əlverişli torpaq sahəsinin ayrılması aktuallıq kəsb etdiyindən akademik Pirsaatçay, Ağsuçay və Girdimançay hövzələrində böyük miqyaslı torpaq tədqiqat işlərini həyata keçirirdi. Bir müddət sonra bu tədqiqat işləri "Pirsaatçay hövzəsinin orta və aşağı axarlarının torpaq şəraiti və ondan istifadəyə dair", "Ağsuçay və Girdimançay dərələrinin torpaqları meyvə bağlarının genişləndirilməsi fondu kimi" və "Pirsaatçay, Ağsuçay və Girdimançay hissələrinin torpaqları" və digər əsərlərində öz əksini tapmışdır. Bu tədqiqatlar onun bütün gələcək elmi fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmişdir. Hələ EA-nın akademik katibi vəzifəsində işləyərkən Torpaqşünaslıq və Aqrokimya İnstitutunun şöbə müdiri kimi respublika torpaq fondunun pasportlaşdırılmasına başçılıq etmişdir. O, həmin illərdə əsas diqqətini meşə torpaqlarının öyrənilməsinə yönəltmiş və

bu istiqamətdə ilk laboratoriya təşkil etmişdir. Həsən Əliyevin o dövrdə olan elmi axtarışları Böyük Qafqaz zonası ilə bağlı olmuşdur. O, Böyük Qafqazın torpaqlarının genetik-coğrafi cəhətdən öyrənilməsi sahəsində bir sıra dəyərli əsərlər yazmışdır. Bunların içərisində "Azərbaycanda qəhvəyi meşə torpaqlarının yayılması", "Azərbaycanda qara torpaqların yayılması məsələsinə dair", "Yüksək dağlıq zonada torflu torpaqların bəzi xüsusiyyətləri", "Böyük Qafqazın şərq hissəsinin qəhvəyi meşə torpaqları" və digər elmi əsərlər daha çox maraq kəsb edir.



Akademik torpaqlardan səmərəli istifadə olunmasına çox ciddi fikir verirdi. Kənd yerlərinə gedərək təsərrüfat rəhbərləri ilə söhbətlərində istifadəsiz qalmış torpaqlardan üzümçülükdə, bağçılıqda, dənli bitkilər əkinində istifadə etməyi tövsiyə edirdi. O, "Həyəcan təbili" kitabında yazır: "Elmin nəticələrinə, tövsiyələrinə laqeyd qalmaq olmaz... Axı üzümçülüyün inkişafı üçün də torpaq tədqiqatını və elmi əsaslarla təklifləri hələ 15-20 il əvvəl hazırlayıb əlaqədar təşkilatlara çatdırmış, kütləyə geniş məlumat vermişdik. Lakin bu elmi tədqiqat işlərinin nəticələri yalnız son illərdə, Azərbaycan KP MK-nın ardıcıl tədbirləri sayəsində praktikada öz ifadəsini tapmışdır. Elmdən faydalanmağın, işə elmi münasibətin nəticəsidir ki, indi bizim respublika ölkədə ən böyük üzüm istehsalçısı olmuşdur. Əlbəttə, indi kimya əsridir, sənaye sürətlə inkişaf edir. Lakin sintetik kimya nə qədər inkişaf etsə də, kosmik fəza fəth olunsa da, yenə bizim nəslimiz Yer kürəsində yaşayacaq və təbiətin gözəl nemətlərindən istifadə edəcək. Heç də təsadüfi deyildir ki, İkinci Dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatı yanında Beynəlxalq Təbiəti Mühafizə İttifaqı yaradılmışdır. Üç ildə bir dəfə

ayrı-ayrı ölkələrdə təbiəti mühafizə məsələsinə həsr edilmiş beynəlxalq konqres çağırılır. Bu konqreslərdə təbii sərvətlərin, nadir bitki və heyvanat növlərinin mühafizəsi barədə dünyanın tərəqqipərvər alimlərinin məruzələri dinlənilir, beynəlxalq qanunlara riayət edilərək onları saxlamaq barədə qərarlar qəbul edilir".

"Azərbaycan SSR-nin torpaqları" monoqrafiyasının əsas müəlliflərindən biri və məsul redaktoru Həsən Əliyev olmuşdur. 1950-ci ildə yazılmış bu qiymətli kitab Böyük Qafqazda torpaq əmələgəlmə şəraitinin və torpaqların taksonomik vahidlərinin tədqiqinə həsr edilmişdir. "Böyük Qafqazın şimal-şərq hissəsinin meşə və meşə bozqır torpaqları" monoqrafiyasında müəllif meşə, meşə bozqır, alp və subalp zonalarının çimli dağ-çəmən, dağ-çəmən bozqır, açıq boz, dağ-meşə torpaqlarının, torpaqəmələgəlmə şəraitini və morfogenetik xüsusiyyətlərini səciyyələndirmişdir.

Qeyd etdik ki, Həsən Əliyev 1957-ci ildə EA-nın Torpaqşünaslıq və Aqrokimya İnstitutunda "Meşə torpaqşünaslığı" laboratoriyasını təşkil etmişdir.



Sonralar həmin laboratoriya Coğrafiya İnstitutunda böyük bir şöbəyə çevrilmişdir. Şöbənin nəzdində yaradılmış Pirqulu elmi stasionarında isə "İnsan və biosfer" beynəlxalq proqramı üzrə biogeosenoloji müşahidələrin aparılması təşkil edilmişdir. Alimin elmi fəaliyyəti xarici ölkələrin alimlərinin də diqqətini cəlb etmişdir. Akademik Həsən Əliyev 1960-cı ildə Beynəlxalq Torpaqşünaslıq Cəmiyyətinə üzv seçilmiş, keçmiş ittifaqın ən nüfuzlu alimləri sırasında ABŞ-da keçirilən torpaqşünasların VII Beynəlxalq Konqresinə dəvət olunmuşdur. Bundan

sonra Buxarestdə keçirilən torpaqşünasların VIII Beynəlxalq Konqresində "Şərqi Qafqazın enliyarpaqlı meşələrinin müxtəlif ekoloji şəraitində kül elementlərinin torpağa qaytarılması" mövzusundakı çıxışları da maraqla qarşılanmışdır. Akademikin bütün çıxışlarının, slaydlarla verdiyi izahatlarının ana xəttini doğma Azərbaycanın təbliği, xalqımızın milli maraqlarının təminatı təşkil etmişdir.



Akademik Həsən Əliyev Cənubi Qafqaz torpaqlarının əmələgəlməsinin və coğrafiyasının tədqiqinə, Azərbaycanda Beynəlxalq Bioloji Proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir. Onun fikrincə, respublika üçün

strateji əhəmiyyət kəsb edən məsələlərdən biri də kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin qorunmasıdır. O, bu məsələdə də bacarıqlı elm təşkilatçısı olduğunu kənd təsərrüfatında torpaq tədqiqat işləri aparmaqla sübut etmişdir. 1960-1965-ci illərdə akademikin elmi rəhbərliyi altında Azərbaycanın 15 rayonunda torpaq-tədqiqat işləri aparılmışdı. Tədqiqatda məqsəd az istifadə olunan, eroziyaya məruz qalmış dağətəyi ərazilərin üzümçülük plantasiyalarına çevrilməsi idi. Torpaq tədqiqatları müsbət nəticələrlə yekunlaşmış və ərazilərin xəritəsi tərtib olunmuşdur. Həsən Əliyev sübut etmişdir ki, Şamaxı, Ağsu, İsmayıllı, Cəlilabad və digər rayon əraziləri üzümçülük üçün daha əlverişlidir. O, kənd təsərrüfatında üzümçülüyün inkişaf etdirilməsini daha vacib sahələrdən hesab etmiş və tərtib olunmuş xəritə əsasında düzənlik və dağətəyi rayonlarda torpaqlarda üzümçülüyün salınmasını təklif etmişdir. Təklif irəli sürməklə kifayətlənməyən alim təklifini layihəyə çevirməklə özünün rəhbərliyi ilə üzümçülük plantasiyalarının salınması işini aparmışdır. Bu cür prinsipial fəaliyyəti nəticəsində o, Azərbaycanın bəzi rayonlarının üzümçülük

rayonları kimi inkişaf etməsinə nail olmuşdur. Məhz onun  rəhbərliyi ilə respublika üzrə 70 min hektara yaxın torpaq sahəsində üzüm plantasiyaları salınmışdır. Bu işləri həyata keçirməkdə alimin əsas məqsədi insanların həyat şəraitinin daha da yaxşılaşdırılmasına yardımçı olmaq idi. Bunlarla o, Azərbaycanın inkişafına, xalqının rifahına çalışan bir ziyalı, vətəndaş və nəhayət ictimai xadim olduğunu sübut etdi. Düzənlik və dağətəyi rayonlarda torpaqlarda üzümçülüyün salınması, həm də eroziyaya uğramış torpaqların daha münbit torpaqlara çevrilməsinə imkan yaratmışdı.



O zaman Azərbaycan MK-nın birinci katibi olan Ulu öndər Heydər Əliyevin təsdiq etdiyi proqrama uyğun olaraq Azərbaycanın kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, xalq təsərrüfatının bütün sahələrində xüsusi canlanma müşahidə olunurdu. Ulu öndərin respublikanın inkişafına, əhalinin yaşayış durumunun daha da yaxşılaşdırılmasına xüsusi önəm verməsi torpaq-tədqiqat işləri aparan alimlərin əldə etdikləri müsbət nəticələrin kənd təsərrüfatında tətbiq olunmasına imkanlar yaradırdı. Ümummilli lider Heydər Əliyev kənd təsərrüfatını üzləşdiyi ağır, böhranlı durumdan çıxarmaq üçün bir neçə tarixi qərarlar vermişdi. Bunlardan "Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" (1970-ci il), "Azərbaycanda kənd təsərrüfatı istehsalının daha da intensivləşdirilməsi tədbirləri haqqında" (1975-ci il), "1976-1980-ci illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" (1976-cı il) və "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" (1979-cu il) qərarlar xüsusi əhəmiyyət kəsb edirdi.

Təsdiq olunan bu qərarlar hesabına Azərbaycanda kənd təsərrüfatı istehsalının yüksəldilməsinə, inkişafına nail olundu, uğurların davam etdirilməsi üçün elmi əsaslara söykənən proqramlar qəbul edildi.

Yaradılan münbit şərait Azərbaycan alimlərini, eləcə də torpaqşünaslıq və təbiəti mühafizə tədqiqatlarını aparan akademik Həsən Əliyevi daha böyük əhval-ruhiyyə ilə işləməyə həvəsləndirirdi. Bu məqamda o, Azərbaycan təbiətinin mühafizəsi, ekoloji tarazlığın qorunmasına xidmət edən milli parkların da salınmasına xüsusi önəm vermişdir. Məhz prinsipiallığı nəticəsində Həsən Əliyev tuqay meşələrinin qorunub, inkişaf etdirilməsi üçün Turyançay, Bəsitçay, Hirkan, Şirvan və Qızılağac dövlət təbiət qoruqlarının yaradılmasına nail olmuşdur. Daha doğrusu, bu məsələni ilkin olaraq irəli sürmüş və ittifaq səviyyəsində məsələ qaldırmışdır. Akademik Həsən Əliyev az sonra istəyinə nail olmuş, sözügedən ərazilərdə meşə zolaqları salınmış və bura dövlət təbiət qoruqları elan olunmuşdur. O, bu barədə yazırdı: "Qoruq sözü varsa, deməli, təbiətimiz qorunur. Qorunursa, daha da gözəlləşəcək və zənginləşəcək".

Hazırkı mərhələdə akademik Həsən Əliyevin ideya müəllifliyi ilə yaradılan parkların əraziləri daha da genişlənib. Bunlar Şirvan, Ağ Göl, Abşeron, Hirkan və akademikin adını daşıyan Ordubad Milli parklarıdır. Bu parklar 2003-2005-ci illərdə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yaradılmışdır.

Şirvan Milli Parkı Salyan və Nefçala rayonları ərazisində, həmçinin Bakı şəhərinin Qaradağ rayonun ərazilərində yerləşir. Milli Parkın yaradılmasında əsas məqsəd yarımsəhra landşaftının başlıca komponentlərini, Azərbaycan Respublikasının "Qırmızı kitabı"na düşmüş ceyranları və o ərazi üçün səciyyəvi olan fauna növlərini qoruyub saxlamaq, ekoloji monitorinqi həyata keçirmək, əhalini ekoloji maarifləndirmək, turizm və istirahət üçün şərait yaratmaqdır.

Ağgöl Azərbaycanın ən məşhur çöl-göl ekosistemi olub, köçəri və yerli quşların və digər heyvanların məskunlaşdığı ərazilərdən biridir. Ağ gölün qorunmasının beynəlxalq əhəmiyyəti vardır. Bu da göldə adları Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahı"sına və Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş quşların məskunlaşması ilə bağ-

lıdır. Ağgöl mühüm su-bataqlıq ərazisi kimi miqrasiya edən quş növlərinin qışlama yeri olub, 2001-ci il 25 may tarixində "Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyəti olan sulu-bataqlıq yerlər haqqında" Ramsar Konvensiyasının "Ramsar Siyahısı"na daxil edilmişdir.



Ağ göl Milli Parkının yaradılmasının əsas məqsədi mühüm su-bataqlıq ərazilərini, həmin əraziyə xas olan yarımsəhra landşaftını, göldə və onun ətrafında məskunlaşmış nəsli kəsilmək təhlükəsi altında olan fauna növlərini qorumaq,

ərazi üçün xarakterik olan bəzi fauna növlərini keçmiş ərazilərinə reintroduksiya etmək, eləcə də ətraf mühitin monitorinqini, əhalinin ekoloji cəhətdən maarifləndirilməsini və ekoturizmin inkişafını təmin etməkdir. Xüsusilə qeyd etmək lazımdır ki, hələ sağlığında akademik Həsən Əliyev bu ərazinin milli park kimi formalaşmasının elmi əsasını vermiş və təkidlə həyata keçirilməsini tələb etmişdir.

Akademik Həsən Əliyev adına Ordubad Milli Parkının yaradılmasında məqsəd ərazidə ayrı-ayrı komponentlərin mühafizəsi, ərazinin özünəməxsus iqlim, relyef və digər fiziki-coğrafi xüsusiyyətlərə malik olması, burada müxtəlif növ heyvanların, o cümlədən endemik növlərin qorunub saxlanılması ilə yanaşı, ərazi üçün səciyyəvi olan fauna növlərini qoruyub saxlamaq, ekoloji monitorinqi həyata keçirmək, əhalini ekoloji maarifləndirmək, turizm üçün əlverişli şərait yaratmaqdan ibarətdir.

Hirkan Milli Parkı Azərbaycanın cənub-şərqində, Lənkəran və Astara inzibati rayonlarının ərazisində yerləşir. Onun yaradılmasında əsas məqsəd həmin ərazidə təbiətin kompleks şəkildə qorunması, relikt və endemik bitki

növlərinin mühafizəsi, Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş tipik flora və fauna növlərinin qorunub saxlanılması, ətraf mühitin monitorinqinin həyata keçirilməsi, ictimaiyyətin məlumatlandırılması, eləcə də tədqiqatlar, turizm və istirahət üçün şəraitin təşkilidir. Hirkan Milli Parkının ərazisinin çox hissəsi meşələrlə örtülüdür. Milli Parkda dəmirağac, şabalıdyarpaq palıd, fıstıq meşələri mövcuddur. Burada ayıdöşəyi, Hirkan bigəvəri, Hirkan şümşadı, pırkal, müxtəlif lianlar geniş yayılmışdır. Bu bitkilərin əksəriyyətinin adı Azərbaycanın "Qırmızı Kitabı"na daxil edilmişdir. Hirkan Milli Parkının ornitofaunasına müxtəlif növ nadir quşlar daxildir. Parkın heyvanat aləmi də çox zəngindir.

Yeni təbiət qoruqlarının salınması da davam edir ki, bu gün onların sayı 14-dən artıqdır. Eyni zamanda 20 dövlət yaşıllığı mövcuddur. Mühüm təbiəti qoruyucu əhəmiyyətə malik olan və əsrlər boyu Kür çayı sahilləri ilə Xəzər dənizinə qədər uzanan tuqay meşələrinin vəziyyəti alimi daha çox düşündürürdü. O, insanın təsərrüfat fəaliyyəti nəticəsində kəskin surətdə azalan meşələrin 25 min hektarının Mingəçevir, Şəmkir

su anbarlarının altında qalmasını heç vaxt yaddan çıxarmırdı. Alimin rəhbərliyi altında Ağstafa, Ağdaş meşə təsərrüfatları ərazisində eyni tipli tuqay meşələri əsasında qoruqların yaradılmasının çox vacib olduğu fikri irəli sürülmüşdü. Tuqay meşələrini bərpa etməklə Kür çayı boyunca təbii mühiti yaxşılaşdırmaq, burada istirahət və sağlamlıq ocaqları təşkil etmək, ərazinin estetik vəziyyətini gözəlləşdirmək alimin böyük arzusu idi. Akademik Həsən Əliyev Azərbaycan EA-nın Təbiəti mühafizə komissiyasının sədri kimi respublikada bu sahədə aparılan elmi-tədqiqat işlərinin genişləndirilməsinə və bir çox tədbirlərin həyata keçirilməsinə nail olmuşdu. Onun təşəbbüsü ilə Kürboyu tuqay meşələrinin və onun canlı aləminin qorunub saxlanması məqsədilə Qarayazı, Ağgölün bataqlıq-su ekosistemlərinin və heyvanlarının mühafizəsi məqsədilə Ağgöl, respublikamızda yeganə şərq çinar ağaclığının qorunub saxlanılması məqsədilə Bəstiçay, arid saqqız-ardıc meşə ərazisinin, onun heyvanlarının mühafizəsi məqsədilə Türyançay, Böyük Qafqazın cənub yamacının şərq hissəsində meşə landşaft kompleksini qoruyub saxlamaq üçün İsmayıllı, astroiqlimə

mənfi təsir göstərən havanın tozlanmasının və çirklənməsinin qarşısını almaq və meşənin şərq hüdudunda meşə landşaftlarının qorunub saxlanması məqsədilə Pirqulu, Kiçik Qafqaz Göygöl, Qarabağ vulkanik yaylasının cənub hissəsində "Qaragöl" və nəsli kəsilmək təhlükəsi olan ceyranların mühafizəsinin artırılması məqsədilə Şirvan dövlət qoruqları yaradılmışdır. Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin qurultayındakı məruzəsində Həsən Əliyev qoruqlarmızda qoruq rejiminin pozulması və bu vəziyyətin təbii ekosistemlərə mənfi təsirini göstərərək demişdir: "Qoruq ərazisində mal-qaranın otarılması, otçalımı, torpaqların özbaşına şumlanması və digər pozuntular mövcuddur. Buna oxşar faktlar Göygöl, Şirvan, Qarayazı, Hirkan və digər qoruqlarda da müşahidə edilmişdir. Qoruq rejiminin pozulması demək olar ki, adi hala çevrilmişdir..."

Bütün bunlar nurlu isan, böyük şəxsiyyət Həsən Əliyev ideyalarının davamlı xarakter daşıdığını göstərir. Akademikin daha bir istəyi Bakının su təchizatının yenilənməsi idi.



Hazırkı mərhələdə Azərbaycanın daxili investisiyası hesabına reallaşan Oğuz-Qəbələ-Bakı su kəməri məhz akademik Həsən Əliyevin zamanında arzu etdiyi ideyalardan biri idi. Bu ideyanın gerçəkləşməsi "həqiqətən də dahilərin arzuları, onların ideyaları kağız üzərində qalmır" prinsipini bir daha təsdiq etmiş oldu. Akademik Həsən Əliyev "Həyəcan təbili" kitabında yazır: "Bu "təbili" heç yerdən asmaq lazım deyil. O, bu günün insanının ürəyidir. Bu ürək ətrafına daha həssas baxmalıdır. Azərbaycan təbiətinə kor-koranə münasibət görəndə bu təbil daha böyük həyəcanla döyülməli, bizi ayıq-sayıq salmalıdır. Bəlkə, toya, yasa və digər mərasimə yubanmaq

da olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır".

Onun rəhbərliyi ilə 1972-ci ildən etibarən respublikanın ayrı-ayrı bölgələrində radioaktiv elementlərin miqdarı öyrənilmiş və müxtəlif torpaq tiplərində radioaktiv elementlərin miqdarının xəritə-sxemi tərtib edilmişdir. Eyni zamanda, zavod və fabriklərin tullantılarının ətraf mühitə və kənd təsərrüfatı bitkilərinin keyfiyyət və məhsuldarlığına təsiri öyrənilmişdir. Gəncə şəhərində sənaye tullantılarının ətraf mühitin ekoloji vəziyyətinə təsiri, ümumi gücü 5mln kvt-dan çox olan doqquz iri istilik elektrik stansiyasının ətraf təbii mühitin komponentlərinə təsiri öyrənilmişdir. Eyni zamanda, Abşeron göllərinin ekoloji vəziyyəti tədqiq edilmiş və onun sağlamlaşdırılması yolları araşdırılmışdır. Həsən Əliyev torpağın üst məhsuldar qatının eroziyaya uğrayaraq dağılmasına, çirklənməsinə, məhsuldar torpaqların üzərində tikinti-inşaat işlərinin aparılmasına öz etirazını bildirirdi. İnsanları vətəndaşlıq borcunu yerinə yetirməyə və milli maraqlara biganə qalmamağa çağırırdı. Bu isə böyük alimin qəlbinin Vətən sevgisi ilə dolu olduğunu bir daha təsdiqləyir. Onun üçün bir amal,

bir prinsip vardı: təbiəti qorumaq, meşələri mühafizə etmək, ekologiyanın, ətraf mühitin çirklənməsinin qarşısını almaq. O, torpağın da, meşələrin də, su hövzələrinin də, fauna və floranın da qayğısına eyni qaydada qalır və onların qorunması üçün var qüvvəsini əsirgəmirdi. Vaxtaşırı respublikamızın bütün bölgələrində təbiətin mühafizəsi ilə bağlı maraqlı mühazirələr söyləyər, əhalini bu sahəyə diqqətli olmağa çağırar və maarifləndirərdi. Həsən Əliyev respublikanın universitetləri ilə də sıx əlaqələrə malik olmuş, tələbələrlə daim görüşüb, onlara Azərbaycan təbiəti haqqında mühazirələr oxumuşdur. Məhz Bakı Dövlət Universitetində "Ətraf mühiti mühafizə və təbii ehtiyatlardan səmərəli istifadə kafedrası" Həsən Əliyevin səyi ilə yaradılmışdır. 1983-cü ildə isə həmin kafedranın Elmlər Akademiyasında filialının yaradılmasına nail olmuşdur.

Birmənalı şəkildə demək olar ki, Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövr bütün sahələrdə olduğu kimi kənd təsərrüfatında da böyük uğurların əldə olunmasına imkanlar yaratmışdır. Məhz Ümummilli lider Heydər Əliyev 1969-1982-ci

illərdə Azərbaycana rəhbərlik etdiyi illərdə daim ölkəmizin inkişafı naminə, xalqın gələcəyi naminə əlindən gələni əsirgəməmişdir. Ulu öndərin uzagörən, müdrik siyasəti nəticəsində Azərbaycanda bütün sahələrdə böyük uğurlara, nailiyyətlərə imza atılmışdır. Halbuki Ümummilli lider Heydər Əliyevin siyasi rəhbərliyə gəlişindən əvvəl respublikamız nəinki xarici ölkələrdə, demək olar ki, keçmiş SSRİ respublikalarında belə o qədər də tanınmırdı.



Dahi öndərin xalqın maraqlarından çıxış etməsi nəticəsində Azərbaycan İttifaq daxilində ən inkişaf edən, qabaqcıl respublikalardan birinə çevrildi. Məhz Ulu öndərin böyük nailiyyətləri hesabına  o dövrdə yalnız Rusiya və Azərbaycanın müstəqil yaşamaq gücünə malik respublikalar olduğu vurğulanırdı. Bu baxımdan, Ümummilli lider Heydər Əliyevin Azərbaycana  birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illəri Azərbaycanın intibah, tariximizin "qızıl dövrü" kimi qiymətləndirmək olar.  Bu dövrə qədər, bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatı sahəsində də Azərbaycan ittifaq respublikalarından geridə qalırdıq. Demək olar ki, kənd təsərrüfatı məhsullarının ixracatında heç bir ürəkaçan göstərici yox idi. Buna görə də Ulu öndər Heydər Əliyev aqrar sahəni inkişaf etdirmək üçün 1970-ci ildə mühüm qərar qəbul etdi. Aqrar sahənin inkişafı və torpaqların meliorasiyası ilə bağlı həyata keçirilən tədbirlər qısa müddətdə öz mühüm bəhrəsini verməyə başladı. 1969-cu ildə 534 min ton taxıl istehsal olunurdusa, 1974-cü ildə bu rəqəm 910 min tona çatdı. 1982-ci ildə isə taxıl istehsalı 1 milyon 24 min tonu keçdi. Pambıq istehsalı isə 10 il ərzində 3 dəfəyə yaxın artaraq

1982-ci ildə 1 milyon tondan çox oldu. Eləcə də tərəvəz istehsalı bu illərdə 372 min tondan 608 min tona, meyvə istehsalı 52 min tondan 345 min tona çatdı. Ulu öndər 1979-cu ildə üzümçülüyün inkişafına dair yeni qərar qəbul etdi ki, bu da həmin sahədə məhsuldarlığı daha da yüksəltdi. Belə ki, üzüm istehsalı 1969-cu ildəki 272 min ton göstəricidən 1982-ci ildə 1 milyon 816 min tona çatdı. 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-də kənd təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul etdi. Bu qərarı qəbul etdirmək həmin zaman üçün, təbii ki, çox nadir hadisə idi. Belə əsaslı tədbirlərin həyata keçirilməsi nəticəsində Azərbaycanın kənd əməkçiləri 1971-1975-ci illərdə məhsul istehsalının artırılması, əkinçilik və heyvandarlıq mədəniyyətinin yüksəldilməsi sahəsində çox böyük nailiyyətlər qazandılar. Kənd təsərrüfatının orta illik ümumi məhsul istehsalının dəyəri 1971-75-ci illərdə 1,4 milyard manata çatdı ki, bu da 1966-1970-ci illərdə olan müvafiq göstəricidən 34 faiz çox idi. Bütün kənd təsərrüfatı məhsulları istehsalı üzrə nəticələr nəzərdə tutulduğundan xeyli artıq oldu. 5 il ərzində taxıl və tütün istehsalı,

hətta gələcək 2 ilin əvəzinə, pambıq və meyvə istehsalı gələcək 1 ilin əvəzinə də yerinə yetirildi. 1975-ci ildə kənd təsərrüfatında ümumi məhsul istehsalı 1969-cu ildəki 999 milyon manatlıq əvəzinə 1 milyard 572 milyon manatlıq oldu, başqa sözlə, 57 faiz artdı. 1976-1980-ci illərin yekunları göstərir ki, Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın kənd təsərrüfatı yeni, daha yüksək pilləyə qalxmışdır. 5 illik üçün nəzərdə tutulan istehsal 1978-ci ildə vaxtından 2 il əvvəl yerinə yetirilmişdir. 1980-1981-ci illərdə respublikamızda istehsal olunan kənd təsərrüfatı üzrə ümumi məhsulun dəyəri 2,4 milyard manatdan çox olmuşdur ki, bu da o zaman üçün olduqca böyük göstərici idi.



Təsadüfi deyil ki, kənd təsərrüfatının inkişaf sürətinə görə, o dövrlərdə Azərbaycan keçmiş sovet respublikaları arasında birincilər sırasına çıxmışdır. Əgər 1966-1970-ci illərdə respublikamızın payına Sovet İttifaqı üzrə kənd təsərrüfatının ümumi məhsulunun 1 faizi düşürdüsə, 1976-1980-ci illərdə bu, 1,5 faiz təşkil etmişdir. İlk baxışdan az görünən bu artımın arxasında 1970-1980-ci illərdə kənd təsərrüfatının ümumi məhsulunun təxminən 2 dəfə çoxalması dururdu. Araşdırmalara əsasən demək olar ki, o dövrdə SSRİ üzrə 1976-1979-cu illərdə 1966-1970-ci illərə nisbətən kənd təsərrüfatı üzrə ümumi məhsul istehsalının orta illik artımı 23,8 milyard manat olmuşdur ki, bunun da 3,8 faizi respublikamızın payına düşmüşdür. 1980-ci ilin yekunları göstərdi ki, ölkə üzrə kənd təsərrüfatının ümumi məhsulunun mütləq artımında respublikamızın rolu daha da yüksəlmişdir. Əkinçilik məhsullarının belə sürətli artımı həlledici dərəcədə məhsuldarlığın yüksəlməsi ilə bağlı olmuşdur. 5 il ərzində taxılın məhsuldarlığı 48, pambığın məhsuldarlığı 29, üzümün məhsuldarlığı 51, tərəvəzin məhsuldarlığı 37, meyvənin məhsuldarlığı 45 faiz artmışdır.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" 1975-ci il 9 iyul tarixli, həmçinin Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək, habelə irriqasiya-meliorasiya obyektlərinin layihələşdirilməsi və tikilməsi tədbirləri haqqında qərarlar qəbul edilmişdir. Bu qərarların 1970-1980-ci illərdə respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətlərinin müəyyən edilməsində mühüm əhəmiyyəti olmuşdur. Həmin illərdə respublikanın iqtisadi və sosial sahələrinin inkişaf etdirilməsi üzrə qarşıya qoyulmuş vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində respublikada irriqasiya-meliorasiya işləri, eləcə də üzümçülükdə çox böyük uğurlar əldə edilmişdir. 1969-1980-ci illərdə üzümçülüyün ərazi strukturu xeyli dəyişdirilmiş, yeni üzümçülük rayonları yaradılmışdır. Xüsusən dağ rayonlarında üzümçülük inkişaf etdirilmişdir ki, bu da onların iqtisadiyyatının möhkəmləndirilməsinə, mövcud əmək ehtiyatlarından daha səmərəli istifadə olunmasına müsbət təsir göstər-

miş, pambıqçılıq sahəsində də yüksək uğurlara nail olunmuşdur.



Belə ki, 1969-cu ildə Azərbaycanda 299 min ton pambıq istehsal olunmuşdursa, 1982-ci ildə bu göstərici 1 milyon tona çatdırılmışdır. Bundan əlavə, 1980-ci ildə respublikamızda üzüm istehsalı 1,4 milyon ton olmuşdur ki, bu da Azərbaycan üçün rekord göstərici idi. Yığılan üzümün keyfiyyəti də xeyli yaxşılaşdırılmış, şəkərliyi 1979-cu ilə nisbətən 17 faiz qalxmışdır. Üzümlüklərin məhsuldarlığı orta hesabla 91 sentnerə çatdırılmışdır ki, bu da 1975-ci ildəkindən 26 sentner çox idi. Təbii ki, üzümçülük plantasiyalarının salınmasında akademik Həsən Əliyevin böyük zəhməti və əməyi olmuşdur.

Məhz akademikin səyi və yardımı nəticəsində qısa müddətdə 70 min hektardan artıq sahədə üzümçülük plantasiyaları salınmışdır. Ümummilli liderimiz Heydər Əliyev  Həsən Əliyev kimi böyük alimlərdən güc almaqla kənd təsərrüfatında böyük uğurlara imza atılmasına nail olmuşdur. O dövrdə üzümçülüyün inkişafında ancaq süfrə üzümünün yetişdirilməsi əsas hədəf olaraq götürülməmişdir. Eləcə də  həm şərabçılıq sənayesinin, həm də Azərbaycan kəndinin sosial-iqtisadi inkişafına xüsusi önəm verilmişdir. Həmin illərdə şərabçılıq sənayesinin istehsal həcmi 6 dəfədən çox artmış və respublikadakı bütün sənaye istehsalı həcminin altıda bir hissəsini təşkil etmişdir. Şərabçılıq sənayesi müəssisələrinin gücü 1969-cu ildə 106 min ton idisə, 1982-ci ildə 1 milyon 80 min tona çatmış və ya 10,2 dəfə artmışdır. Ümumiyyətlə, 1976-1980-ci illərdə dövlətə 5 milyon tona yaxın üzüm satılmışdır.

Keçmiş SSRİ respublikaları məkanında Azərbaycanda istehsal olunan üzümün miqdarı Moldovanın, Şimali Qafqazın, Ermənistanın, Gürcüstanın, Orta Asiya respublikalarının və Ukraynanın birgə istehsal etdikləri üzümün ümumi həcmindən çox idi.



Təsadüfi deyil ki, iqtisadi göstəricilərinə görə, Azərbaycan məhz bu illərdə ardıcıl olaraq 13 dəfə Sovet İttifaqı KP MK-nın, SSRİ Nazirlər Sovetinin "Keçici Qırmızı Bayrağı" ilə təltif edilmişdir. Təbii ki, bütün bu uğurlar Ümummilli lider Heydər Əliyevin müdrik siyasəti, böyük zəhməti hesabına əldə olunmuşdur. Həm də bu uğurlarla xalq - Ulu öndər Heydər Əliyev birliyinin dönməz və sarsılmaz tellər üzərində qurulduğu öz təsdiqini tapmışdır. Bu birliyin saf və təmiz, səmimi münasibətlər üzərində qurulduğu sontakı mərhələdə, 1993-cü il 15 İyul Milli Qurtuluş Günü ilə də nümayiş etdirildi...

## O, dünyaya, xalqa xidmət etmək üçün gəlmişdi

Ətraf mühit dedikdə, bitkilər və heyvanlar aləmi, dağlar, dərələr, meşələr, hava, su, torpaq və s. nəzərdə tutulur. Başqa sözlə, biosfer və atmosfer ətraf mühitdir. Aydın şəkildə desək, ətraf mühit təbiət deməkdir. Ekologiya sözünü ilk dəfə 1858-ci ildə Q.D.Toro elmi əsərlərində qeyd etmiş və onun tərifini vermişdir. Bundan sonra ekologiya canlıların ətraf mühiti haqqında elm hesab edilmiş, bəzən isə biologiya sözünün dar mənasında işlədilmişdir. Amma 1866-cı ildə məşhur alman filosofu E.Hegel bu ziddiyyətlərə son qoymuşdur. E.Hegel nəzəriyyəsinə görə, orqanizmi təbii sığınacaq yerində, yəni öz "evində" öyrənmək ekologiya hesab olunur. Bütün dövrlərdə elmin ekolojiləşdirilməsi də coğrafiyanın ekolojiləşdirilməsinin başlıca prinsiplərindən hesab olunub. Coğrafiyaşünas X.Berroz "Coğrafiya insan ekologiyasıdır" adlı əsərində bu məsələni tam şəkildə açmağa nail olub. Sonralar X.Berrozun nəzəriyyəsi coğrafi mühiti tədqiq edən alimlər tərəfindən bir qədər də təkmilləşdirilmişdir. Bunu elmin ekolojiləşdirilməsi sahə-

sində tanınmış tədqiqatçı alimlərdən Şvarts, Fyodorov, Kommoner, Gerasimov, Qumilyov, Həsən Əliyev, Budaq Budaqov və başqalarının əsərlərində görmək mümkündür.



Akademik Həsən Əliyevə Azərbaycanda ekologiyanın, ətraf mühitin cirklənməsinin qarşısının alınması üçün dövlət tərəfindən rəsmi səlahiyyət verilmişdi. Bu səlahiyyət çərçivəsində akademik ekoloji tarazlığın qorunmasına xidmət edə biləcək əhəmiyyətli işlər görmüşdür. O, zavod və fabriklərdən ətraf mühiti çirkləndirə biləcək tüstülərin normadan artıq havaya buraxılmasının qaşısını almaq üçün hökumətə təkliflər verir və təkliflərinin reallaşmasına nail olurdu. O dövrdə istilik-elektrik stansiyaların-

dan axıdılacaq isti sular üçün çəkiləcək kanalların istiqaməti və uzunluğu, eləcə də bir çox ekoloji məsələlərin həllində Həsən Əliyev böyük nailiyyətlərə imza atmışdır. Akademik istənilən problemin elmi əsaslarla həllini irəli sürürdü. Məntiqli izahatlar qarşısında susmağa məcbur qalan aidiyyəti dövlət qurumları onun fikirləri ilə razılaşmağa məcbur olurdular. Ətraf mühitin mühafizəsinin həyati vacibliyini qeyd edən Həsən Əliyev Azərbaycanda ilk dəfə olaraq Elmlər Akademiyası Rəyasət Heyəti yanında Təbiəti Mühafizə şöbəsinin açılmasına nail olmuşdur. Təbiəti Mühafizə şöbəsi Azərbaycan Ali Sovetinin sessiyasında təbiəti mühafizə üzrə xüsusi məsələlərin müzakirəyə qoyulması, respublika hökuməti tərkibində Təbiəti Mühafizə üzrə Komitənin yaradılması, Coğrafiya İnstitutunda təbiəti mühafizə şöbəsinin açılması kimi məsələlərin həllinə nail olmuşdu. Akademik bu məqsədlərinə böyük zəhmət bahasına çata bilmişdi. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, beynəlxalq ictimaiyyətin təklifləri və təkidləri nəticəsində 1948-ci ildə Beynəlxalq Təbiəti Qoruma İttifaqı yaradılmışdır. İttifaqın əsas fəaliyyəti ölkələrdə təbiətin qorunmasına dair təkliflər ver-

mək və rəhbərlik etməklə həmin təkliflərin icrasına nəzarət etməkdən ibarət olub. BMT-nin XI Baş sessiyasından sonra BTQİ-də dünyanın 83 ölkəsini təmsil edən 293 təşkilat, 18 beynəlxalq təşkilat və 29 dövlət birləşmişdir. BTQİ vaxtaşırı yığıncaqlar keçirir, təbiətin qorunması sahəsində vacib problemləri həll edir, çıxardığı qərarları üzv ölkələrə göndərir. BTQİ-nin rəhbərliyi altında yaradılan gənclər təşkilatları vaxtaşırı olaraq ayrı-ayrı ölkələrdə beynəlxalq gənc təbiətçilər düşərgəsi təşkil edirlər. BTQİ-nin üzvü olan müxtəlif ölkələrin gəncləri təbii sərvətlərin vəziyyəti ilə tanış olur, onu qorumaq üçün təkliflər verirlər. Həmin dövrdə Bakıda birinci Zaqafqaziya toplantısı keçirilmiş, Həsən Əliyevin ideya müəllifliyi və rəhbərliyi ilə 1963-cü ildə Azərbaycan Təbiəti Mühafizə Cəmiyyəti yaradılmışdır. Cəmiyyətin yaradılmasına qədər isə 1950-ci ildə Həsən Əliyevin rəhbərliyi ilə Elmlər Akademiyasının nəzdində Könüllü Təbiəti Mühafizə Komissiyası fəaliyyət göstərmiş, cəmiyyət 10 il ərzində böyük uğurlara imza atmışdır. Artıq bu müddətdə cəmiyyətin 1,5 milyon üzvü olmuşdur. Cəmiyyətin fəal üzvləri təbiətin mühafizəsi, ekoloji mühitin qorunması üçün yeni təkliflər

verir, şagirdlər, gənclər ümumilikdə isə əhali arasında təbliğati işlər aparırdılar. Torpaqşünas alimlər, eləcə də akademik Həsən Əliyev təbiətin qorunmasının bir neçə formasını əsas amil kimi göstərmişlər. Birincisi, təbii sərvətlərin ehtiyatını müəyyən etmək, onlardan planlı və səmərəli istifadə etməyin qaydalarını tapmaq, bərpa oluna bilən sərvətləri daha da çoxaltmaq. İkincisi, təbii sərvətlərdən səmərəli istifadə edilməsi və qorunması barədə qanun qəbul edilməsi.



Üçüncüsü, qanun və qərarların icrasına daimi nəzarətin təşkil edilməsi. Dördüncüsü, təbiətin qorunması ilə birbaşa məşğul olan elmi-

tədqiqat müəssisələri və dövlət idarələrinin yaradılması. Beşincisi, təbiətin qorunması elmini əhali arasında yaymaq, bu sahədə şifahi və yazılı təbliğatı genişləndirmək üçün bütün kollektivləri və müxtəlif ixtisasçıları cəlb etmək, habelə onların işinə düzgün istiqamət vermək və s.

1957-ci ildə Bakıda Həsən Əliyevin təşəbbüsü ilə Azərbaycanda təbiəti mühafizə məsələlərinə həsr edilmiş ilk Zaqafqaziya müşavirəsi keçirilmişdir. Bu müşavirədə dövlət təbiəti mühafizə xidmətinin yeni təşkilat formaları, təbiəti mühafizə üzrə komissiyanın fəaliyyəti yenidən nəzərdən keçirilmişdir. Akademik Həsən Əliyevin elmi-təşkilati fəaliyyəti nəticəsində 1959-cu ildən Azərbaycan EA-da Təbiəti Mühafizə üzrə Komitə yaradılmış və o, bu komitəyə sədr seçilmişdir. Akademik Həsən Əliyevin təşəbbüsü ilə 1962-ci ildə Bakı şəhərində təbiəti mühafizə problemləri üzrə ilk Zaqafqaziya müşavirəsi keçirilmişdi. Bu müşavirənin qərarlarında dövlət səviyyəsində yeni təbiəti mühafizə təşkilatının yaradılması və komissiyanın işinin yaxşılaşdırılması üçün təkliflər irəli sürülmüşdü. Həmin qərarların nəticəsi olaraq 1963- cü ildə Həsən Əliyevin təşəbbüsü ilə respublika Təbiəti

Mühafizə Cəmiyyətinin yaradılmasına imkan yaranmışdır. 20 ildən artıq rəhbərlik etdiyi bu cəmiyyət Azərbaycan təbiətinin qorunması və təbliği sahəsində çox böyük işlər görmüş, bitki örtüyünün, o cümlədən meşələrin mühafizəsi və bərpası, həmçinin respublikanın ayrı-ayrı rayonlarında yaşıllaşdırma üzrə böyük tədbirlər həyata keçirmişdir. Təbiəti Mühafizə Cəmiyyətinin yarandığı birinci 10 ildə onun sıralarına 32 min kollektiv cəlb edilmişdi. Bütün bu faktlar bir daha Həsən Əliyevin Azərbaycan təbiətinin mühafizəsinin sipəri rolunu oynadığını aydın göstərir. Onun fikrincə, təbiətin qorunması hər bir vətəndaşın vətandaşlıq borcu olmalıdır. Akademikin vaxtilə yaratdığı təbiəti mühafizə istiqaməti sahəsində bütün işlər bu gün də müvəffəqiyyətlə inkişaf etdirilir. Təbiəti Mühafizə Cəmiyyətinin xətti ilə Həsən Əliyev bir çox məktəblərdə şagird və müəllimlərlə görüş keçirirdi. Onlara təbiəti mühafizə haqqında mühazirələr oxuyur və məktəbin həyətyanı sahəsinin və ətraf ərazilərin yaşıllaşdırılması üçün ağac və kol toxumları, şitillər verilməsini təşkil edirdi. Bu işlərə Həsən Əliyevin özü də qatılar, respublickamızda meşələrin və yaşıllıqların qorunması,

xarici ölkələrdə bu işlərin necə aparılması haqqında çıxışlar edir, öz tövsiyələrini verirdi.



Təbiəti Mühafizə Cəmiyyətinin sədri kimi Həsən Əliyev gərgin əmək sərf etməklə ətraf mühitin mühafizəsi sahəsində bir sıra tədbirlər həyata keçirmişdir. Qeyd etdik ki, respublikamızda mövcud olan əksər dövlət qoruqlarının təşkili bilavasitə Həsən Əliyevin təşəbbüsü ilə bağlıdır. Bəlkə də bu qoruqlar vaxtında təşkil olunmasaydı, Azərbaycan xalqı indi özünün bir sıra

qiymətli flora və fauna nümunələrindən məhrum olardı. Azərbaycan Təbiəti Mühafizə Cəmiyyətinin qurultayındakı çıxışında Həsən Əliyev qoruqlarımızda qoruq rejiminin pozulması və bu vəziyyətin təbii ekosistemlərə mənfi təsirini göstərərək demişdir: "Qoruq ərazisində mal-qaranın otarılması, otçalımı, torpaqların özbaşına şumlanması və digər pozuntular mövcuddur. Buna oxşar faktlar Göygöl, Şirvan, Qarayazı, Hirkan və digər qoruqlarda da müşahidə edilmişdir. Qoruq rejiminin pozulması demək olar ki, adi hala çevrilmişdir..."

Akademik Həsən Əliyev ekoloji tədqiqat məsələsi ilə paralel torpaqşünaslıq və təbiəti mühafizə istiqamətində elmi kadrların yetişdirilməsinə də ciddi əhəmiyyət verirdi. O, Moskvanın tətbiq etdiyi qaydalara baxmayaraq azərbaycanlı gənclərin elmi-tədqiqat işlərinə cəlb olunmasına xüsusi önəm verirdi. Böyük fədakarlığı, mübarizliyi nəticəsində yaradılan bütün maneələri adlamaqla Həsən Əliyev elmi kadrlar arasında azərbaycanlı gənclərin, xüsusi ilə də, torpaqşünas alimlərin çoxluq təşkil etməsinə nail olurdu. Coğrafiya İnstitutuna direktor təyin olunandan sonra onun ətrafında çox sayda gənclərin toplaş-

ması Həsən Əliyevin gənclərin dostu, sirdaşı və qayğıkeşi olduğunu bir daha təsdiqləmişdir. Təbii ki, gənclər də Həsən Əliyevi çox istəyirdilər və ona böyük hörmət bəsləyirdilər. Hər zaman Həsən Əliyev əlindən gələn bütün köməkliyi edirdi ki, gənclər elmi işlərini müdafiə edib, alim olsunlar. Həm də Həsən Əliyev öz tələbələrinə elə dərs keçərdi ki, tələbələr onu dinləməkdən doymazdılar. O, Coğrafiya İnstitutuna təyinatla gələn cavan işçilərin bilik və bacarıqlarını, ailə vəziyyətini, maddi durumunu araşdıraraq onların fəaliyyət istiqamətlərini formalaşdırar, bir hissəsini Sovetlər İttifaqının aparıcı elmi-tədqiqat institutlarına təcrübə mübadiləsinə və aspiranturaya göndərərdi. İstiqamətlər müxtəlif idi: coğrafiya, torpaqşünaslıq, meşəçilik, biologiya, botanika, hidrologiya, okeanologiya. Onu da qeyd etmək lazımdır ki, bu istiqamətlərdə nadir ixtisaslaşmalar üzrə kadr çatışmazlığı olduğundan, məhz onlara üstünlük verilirdi. Həmin illər Azərbaycanda Xəzər dənizi elmi problemləri ilə məşğul olan elmi işçilərin sayı olduqca az olduğundan Həsən Əliyev Moskva şəhərində SSRİ Elmlər Akademiyasının Okeanologiya İnstitutuna bir neçə gənc əməkdaşını uzunmüddətli

təcrübəyə və  aspiranturaya göndərmişdi. Hazırda həmin gənclər respublikamızda və ondan kənarlarda  Xəzər problemləri üzrə tanınmış alim və mütəxəssislərdi. Demək olar ki, adıçəkilən elmi istiqamətlər üzrə Azərbaycanda akademik Həsən Əliyev böyük alimlər yetişdirən məktəbin təməlini qoymuş, Azərbaycan Elmlər Akademiyasının elmi bazasının inkişafına və möhkəmlənməsinə əlahiddə köməklik göstərmişdir.

Ümumiyyətlə, akademik Həsən Əliyev gəncləri çox sevirdi. Sanki həmin gənclərin həm dostu, həm də valideyni idi. Çünki Həsən müəllim gənclər ilə çox səmimi idi və həmin gənclərin nə isə bir problemi olan kimi həmin problemi həll etməyi özünə borc sayırdı. Çalışırdı ki, problemi olan hansısa bir gəncin problemini həll etsin. O, hər zaman gənclərə böyük dəstək və qayğı göstərir, əlindən gələn hər bir  köməkliyi göstərirdi ki, gənclər elmə bağlansın, həyatlarını elmin zirvələrinə yüksəlməyə həsr etsinlər. Bu baxımdan elə gənc yox idi ki, onun xətrini istəməsin. Gənclər arasında Həsən Əliyevin bu cür sevilməsinin başqa bir səbəbi də məhz akademikin sadə, təvazökar olması,

böyüklə böyük, kiçiklə kiçik kimi davranış göstərməsi idi.



Akademik Həsən Əliyevin təkrarsız insani xüsusiyyətlərə malik böyük şəxsiyyət olması, bütün dövrlərdə gənclərin elmi-tədqiqat işlərinə cəlb edilməsi və onların bir tədqiqatçı alim, şəxsiyyət kimi yetişməsi yetişməkdə olan gənc nəsil üçün bir örnək olmuşdur. Elmə gələn hər bir gənc ilk öncə Həsən Əliyevin elmi fəaliyyətini öyrənir, həyatda və elmdə onun kimi olmağa çalışırdı.  Bu gün də bu ənənə yaşamaqdadır. Torpaqşünas, meşəçi, coğrafiyaşünas olmaq istəyən gənc özünə akademik Həsən Əliyevi ideal olaraq seçir. Onun əldə etdiyi elmi nailiyyətləri,

hörmət və nüfuzu təkrarlamağı arzu edir və buna cəhd göstərir. Akademikin hazırladığı milli kadrlar indi Azərbaycanın aparıcı elmi-tədqiqat institutlarında, istehsalat, kənd təsərrüfatı müəssisələrində çalışırlar. Akademik Həsən Əliyevin davamçıları olan alimlərdən akademik R.Məmmədov, akademik U.Ələkbərov, elmlər doktorları Ə.Əliyev, Ə.Nuriyev, S.Qarayev, N.İmanov, Z.Məmmədov, Ş.Göyçaylı, İ.İsmayılov, İ.Həbibov və başqaları onun bu xeyirxah işlərini müvəffəqiyyətlə davam etdirmişlər.

Akademik "Həyəcan təbili" kitabında yazır: "Keçmişdə özünün bir nəfər belə ixtisaslı torqaqsünas alimi olmayan respublikamızda indi iri elmi-tədqiqat institutları və yüzlərlə mütəxəssis vardır. Emlər Akademiyasında və digər institutelarda 20 nəfər elmlər doktoru (onlardan 5 nəfər akademik və akademiyanın müxbir üzvüdür), 80 nəfərdən çox elmlər namizədi, 200 nəfərdən artıq kiçik elmi işçi, aspirant fəaliyyət göstərir və onlar torpaqşünaslıq, coğrafiya, ekologiya, kənd təsərrüfatı sahələrində geniş tədqiqatlar aparırlar". Akademik Həsən Əliyev gənc alimlərin maraqlarını milli mənafelərə yönəltmək üçün onlara daha çox bu istiqamətdə dissertasiya mövzuları

verirdi. Xüsusilə də ermənilərin Azərbaycan təbiətini çirkləndirmələrinə yönələn fəaliyyətlərini ifşa edən mövzularda çıxışlar etmək böyük fədakarlıq, cəsarətli vətənpərvərlik kimi qiymətləndirilirdi. O zaman üçün tək-tək alimlər bu cür cəsarətli mövzularla çıxış edə bilirdi ki, onlardan biri də akademik Həsən Əliyev idi. Belə dissertasiya mövzularına misal olaraq "Zəngəzur filizsaflaşdırıcı kombinatlarının ətraf mühitə təsirinin qiymətləndirilməsi", "Kiçik Qafqazın şimal-şərq hissəsində dağ-mədən tullantıları ilə çirklənmiş torpaqların rekultivasiyası"nı göstərmək olar. Bu ərazilər respublikamızda ekoloji baxımdan gərgin rayonlardan hesab olunurdu. Bir sözlə, qətiyyət, cəsarət nümunəsi. Bunu ancaq Vətənini sevən, xalqına bağlı olan insanlar edə bilər ki, bu nümunənidə Həsən Əliyev edib. Ekologiya və Təbii Sərvətlər Naziri Hüseynqulu Bağırov böyük alim haqqında deyir: "Həsən Əliyev xarizmatik bir şəxsiyyət kimi Azərbaycanda sovet dövründə miçurinçilik nəzəriyyəsinə, dünyagörüşünə əks qoyulan ətraf mühitə dost, ətraf mühitə insanların ümumi hissəsi kimi baxan, ətraf mühitə çox həssas ilk münasibət prinsiplərini aşılayan, ortaya çıxaran ilk insandır, böyük

alimdir. Həsən Əliyev xalqın bu günü və sabahı xatirinə böyük çətinliklərə, süni maneələrə sinə gərib. Sanki o, dünyaya, xalqımıza xidmət etmək üçün gəlmişdi. Məhz bu cür fədakarlığının bəhrəsini xalqımız görüb. Bu gün də xalqımız onun elmi-tədqiqat xidmətlərinin, kəşflərinin bəhrəsini öz yaşayışında, həyatında hiss etməkdədir".



Akademik Həsən Əliyev şüurlu həyatını Azərbaycan xalqının maariflənməsinə, elminin inkişafına, təbiətinin qorunmasına həsr etmişdir.

Torpağı sevmək, təbiətə bağlılıq bu cəfakeş alimin ömür yolu olmuşdur. Həyatını torpağa həsr edən və torpaq qədər əbədi ömrü qazanmış Həsən Əliyev yazırdı: "Təbiəti sevən, təbiətlə daima təmasda olan insan heç zaman nankor, rəhimsiz və vicdansız ola bilməz". Alim həm də onu qeyd edirdi ki, təbiəti qorumaq həm də millətin gələcəyini qorumaq, onun maddi rifahını yaxşılaşdırmaq deməkdir. Onun təbiətlə bağlı insanı dərin xəyallara daldırıb, düşünməyə məcbur edən müdrik fikirləri var. O deyirdi "Torpaq anadırsa, su övladdır. Meşənin bu övladsız dodağı çat-çat olub yanacaq, diri gözlü ölüyə dönəcək", "Azərbaycanda yerin altı tükənməz xəzinə, üstü canlı muzeydir", Təbiətə münasibətdə yubanmaq – yaşamağa yubanmaqdır", "Təbiət elə sənət əsəridir ki, burada nisbilik anlayışı yalnız duyğusuzlara şamil edilməlidir". Akademik Həsən Əliyev başqa bir çıxışında deyirdi: "Təbiətin keşiyini çəkmək üçün söz silahının gücündən istifadə etmək lazımdır". Elmi axtarışlar apararkən üzləşdiyi hər cür çətinliklərdən bacarıqla çıxan, böyük həyat təcrübəsi, zəngin dünyagörüşə malik akademik Həsən

Əliyevin elmi irsi gənc alimlər üçün etibarlı istinad mənbəyidir.

Akademik Həsən Əliyevin bir neçə elmi əsərinin ingilis dilinə tərcümə edilərək xarici ölkələrdə yayılmasında iştirak etmiş tərcüməçi, publisist Zahid Əhmədov deyir: "Həsən Əliyevin xaricdə çoxlu sayda dostları vardı. Bunları Həsən Əliyev öz sadəliyi, savadı, mərdliyi ilə qazanmışdı. Dünyanın əksər nufuzlu akademiyalarının tanınmış alimləri ilə dostluq edirdi. Tez-tez onlarla görüşlər keçirər, söhbətlər aparardı. Qayğıkeş, mehriban təbiətli Həsən Əliyev ona iş üçün müraciət edənləri də ümidsiz qoymazdı. Ona müraciət edənlərə kömək etməyə və onlara arxa, dayaq olmağa çalışardı. İşə qəbul üçün iki nəfər onun qəbuluna gələrdisə, Həsən Əliyev ilk öncə onları ailə vəziyyətləri, yaşayış durumları ilə bağlı sorğu-sual edərdi. Hansının imkanı daha zəif və işə daha çox ehtiyacının olduğunu bildikdən sonra həmin ailənin uşaqlarını işlə təmin edər və ona əlindən gələn köməkliyi göstərirdi".



Akademik Həsən Əliyevin xarakterinə xas olan sadəlik, təbiilik, səmimiyyət, xeyirxahlıq, alicənablıq onu ətrafdakılara doğmalaşdıran və sevdirən ən mühüm keyfiyyətlərdən idi. O, bir şəxsiyyət kimi çox kəşməkeşli həyat yaşadığından ətrafında olan insanlara, xüsusilə də, gənclərə müstəsna dərəcədə qayğı göstərirdi. Təkrarsız insani xüsusiyyətlərə malik Həsən Əliyevin insani keyfiyyətləri bütün dövrlərdə gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması və onların bir tədqiqatçı alim, şəxsiyyət kimi yetişməsi üçün örnək olmuşdur. Bir sözlə, görkəmli alimin hazırladığı milli kadrlar indi Azərbaycanın aparıcı elmi-tədqiqat institutlarında, istehsalat, kənd təsərrüfatı müəssisələrində çalışırlar. Akademi-

kin insani keyfiyyətləri gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması və onların bir tədqiqatçı alim, şəxsiyyət kimi yetişməsi üçün əsas amil olmuşdur. Rəhbərlik etdiyi sahələrdə ilk öncə azərbaycanlılara daha çox üstünlük verərdi. Coğrafiya İnstitutuna direktor təyin olduğu zaman orada ermənilərin və digər millətlərdən olan alimlərin sayı azərbaycanlılara nisbətən çoxluq təşkil edirmiş. Ancaq qısa müddət sonra Həsən Əliyev bu nisbəti dəyişdi, azərbaycanlı gənclər işə qəbul olunmaqla elmi- tədqiqat işlərinə cəlb olundular.



Həsən Əliyev  görkəmli alim kimi, Azərbaycan dilinin səlisliyinə, cümlələrdə işlənən sözlərə,

ələlxüsus elmi terminlərin coğrafiya, ekologiya və digər elmi istiqamətlərdə işlənməsinə xüsusi fikir verirdi. O, bu istiqamətlər üzrə Azərbaycan dilində işlənən terminlərin də lüğətinin tərtib edilməsinə alimləri həvəsləndirirdi. Dəfələrlə elmi seminarlarda, konfranslarda, simpoziumlar-da bu haqda məsələ qaldırar, öz təkliflərini verərdi.

Ümumiyyətlə, Həsən Əliyev öz xalqına çox bağlı və vətənini sevən bir şəxs olub. Yəni vətəninə sonsuz şəkildə bağlı idi. Bir dəfə Yeni il münasibəti ilə xaricə məktub göndərmək lazım gəlir. Ancaq respublikanı təbliğ edə biləcək zərf olmur. Yəni məktubu zərfin içinə qoyub xaricə göndərdikdə, orada məlum olsun ki, bu məktub Azərbaycandan gəlib. Bu barədə akademik Hə-sən Əliyevə məlumat verirlər. Həsən Əliyev dərhal telefonla Rabitə Nazirliyinə zəng vurur və bununla bağlı onlara öz iradını bildirir. Qısa müddət sonra akademikin qaldırdığı problem nazirlik tərəfindən həll olunur. Bu faktın özü Həsən Əliyevin Azərbaycanı canı qədər sevdiyini göstərir. Hətta onun öz vətəninə belə bağlı ol-ması, sevməsi nəinki Azərbaycan, ümumiyyətlə, İttifaq alimləri tərəfindən heyrətlə qarşılanır, bir

növ onları mat qoyurdu. Bu böyük alimin Azərbaycan üçün gördüyü işlər yalnız elmi xidmətlərlə bitmir. Dəfələrlə ermənilərin maraqlarına uyğun olaraq Moskvanın Azərbaycanda zəhərli zavodlar tikmək istəklərinin qarşısını alıb. Moskva Nəvahidə Atom Elektrik Stansiyası tikməyi planlaşdırır. Hətta bunun üçün Azərbaycana işçi qrupu da göndərir. Bunu eşidən Həsən Əliyev özünə yer tapa bilmir. Azərbaycan MK-ya zəng edir, Moskva ilə mütəmadi əlaqələr saxlayır. SSRİ Nazirlər Sovetinə etdiyi zəngində sərt şəkildə bildirir ki, Ermənistandakı Atom Elektirik stansiyasi region üçün təhlükə mənbəyi olduğu halda, yenisinin hansı faciələr yaradacağının fərqindəsinizmi? Buna əsla yol vermək olmaz. Bir sözlə, məsələ ilə bağlı Həsən Əliyev sərt mövqe ortaya qoyur. Nəticədə, Moskva geri çəkilr. Beləliklə, Həsən Əliyevin səyi nəticəsində Azərbaycanda Atom Elektrik Stansiyasının tikilməsinin qarşısı alınır. Araşdırmalar da təsdiq edir ki, Atom Elektrik stansiyasının tikilməsinin qarşısı məhz Həsən Əliyevin səyləri nəticəsində mümkün olmuşdur.



"Təbiəti mühafizə" , "Meşə torpaqlarının coğrafiyası" şöbələri və "Biologiya" laboratoriyası uzun illər EA Coğrafiya İnstitutunun direktoru olmuş Həsən Əliyevin rəhbərliyi altında fəaliyyət göstərmişdir. Təbii amillərin kənd təsərrüfatına vurduğu ziyan, suyun çirklənməsi və Xəzər dənizi problemlərinin aradan qaldırılması üçün məqsədyönlü işlərin aparılması alimin qarşısına qoyduğu ən mühüm məsələlərdən idi.

Akademik Həsən Əliyevin tutduğu rəhbər vəzifələr isə əslində, genişmiqyaslı idi və o,

həmin vəzifələrdən həmişə ölkə ərazisində təbiətin mühafizəsinin təşkili işlərində istifadə etmişdir. Akademik hansı sahəyə rəhbərlik edibsə, orada ancaq inkişafa nail olunub. Harada, hansı sahədə nöqsanlar, çatışmazlıqlar olubsa, onun rəhbər təyin olunması ilə o sahədə problemlər tamamilə aradan qaldırılıb. Həsən Əliyevin Coğrafiya İnstitutuna direktor təyinatına qədər bu institut elmi müzakirələrdən çox dedi-qodu mərkəzi kimi cəmiyyətdə ad çıxarmışdı. Amma Həsən Əliyev bu instituta direktor gələndən sonra iş prosesinə ziyan vuran yersiz söz-söhbətlərə və qalmaqallara son qoyulub. İnstitut İttifaq respublikaları institutları arasında ən nümunəvi bir instituta çevrilib. Bir sözlə, Həsən Əliyev həm də yaxşı təşkilatçı, idarəetmənin bilicisi idi.

## İnsanlıq mücəssəməsi

Akademik Həsən Əliyevin əsas elmi fəaliyyətini təşkil edən torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub daha səmərəli istifadə olunması problemləri, ümumiyyətlə, təbiətşünas-

lığın müxtəlif istiqamətləri Azərbaycan elminə uğurlar, nailiyyətlər gətirib. O, Cənubi Qafqaz torpaqlarının coğrafiyasının tədqiqinə, Azərbaycanda beynəlxalq bioloji proqramın işlənib hazırlanmasına böyük əmək sərf etmişdir.

Bundan başqa, o, meşə torpaqlarının coğrafiyası, torpaqların xəritələşdirilməsi, ekoloji problemlərin həlli, torpaq meliorasiyasının inkişafı sahələrində misilsiz xidmətlər göstərmişdir. Torpağın altına da üstünə də yaxşı bələd olan Həsən Əliyev tədricən onun mühafizəsi problemlərinin beynəlxalq aləmdə təbliğatçısı olmuş, belə zəhmətli, lakin şərəfli işlərə qoşularaq gördüyü xeyirxah əməlləri və tutduğu vəzifələr ona geniş imkanlar açmışdır. Ümumiyyətlə, Həsən Əliyev müxtəlif vəzifələrdə çalışsa da, torpağa diqqətini bir an belə azaltmamışdır. O, bu adı qazandığı bütün digər elmi adlardan həmişə üstün tutmuşdur.

Akademik Həsən Əliyevin kənd təsərrüfatına verdiyi ən dəyərli töhfələrdən biri də "Azərbaycan təbiəti" jurnalı idi.



Cəfakeş, fədakar, yorulmaq bilmədən çalışan tədqiqatçının 15 ildən artıq baş redaktoru olduğu "Azərbaycan təbiəti" jurnalı insanlar üçün xəbər, məlumat, təbliğat bazasına çevrilmişdir. Akademikin redaktəsindən keçən elmi, elmi-kütləvi, ətraf mühitin mühafizəsinə dair məqalələr yarana biləcək istənilən problemə və ya mübahisəli məsələyə işıq sala bilirdi. Jurnal o dərəcədə geniş oxucu kütləsi qazanmışdı ki, Azərbaycanın hüdudlarından kənarda belə özünə böyük hörmət və nufuz qazanmışdı. Uzun müddət akademik Həsən Əliyevlə birgə "Azərbaycan təbiəti" jurnalının nəşr olunmasında fəaliyyət göstərən görkəmli xalq şairi Məmməd Araz yazırdı: "Azərbaycan torpaqşünaslıq elmi öz yaranışı, inkişafı,

tədqiqat yolu üçün həmişə Həsən Əliyevin ruhuna baş əyməlidir. Həsən Əliyev kimi insanlar olmasaydı dağlar arxasız, çaylar məcrasız, düzlər çəmənsiz, meşələr kimsəsiz, təbiət yiyəsiz qalardı".

Torpaqşünas alimlər B.P.Volobuyev, K.Ələkbərov, M.Salayev, E.Şərifov və başqaları akademik Həsən Əliyevin elmi fəaliyyətini yüksək qiymətləndirmiş, onunla uzun müddət birlikdə işləmələrinə görə fəxr etdiklərini bildirmişlər. Akademik Qərib Məmmədov Həsən Əliyev barədə deyir: "Həsən Əliyev nadir ziyalı, istedadlı alim, fədakar elm xadimi, böyük vətənpərvər, geniş ürək sahibi, insanlıq və yaxşılıq mücəssəməsi idi". O, Azərbaycanın elmi, ictimai-siyasi, mədəni həyatında izi qalan bir insan, bir vətəndaş, bir ziyalı kimi dostluqda da sədaqətli, qayğıkeş olub. Onun xətrini dostları həddindən artıq çox istəyirdi. Çünki bu böyük alim hər kəsin qəlbində öz yerini tutmuşdu. O, həm də dostluğa və yoldaşlığa sadiq olan bir şəxs idi. Hər zaman öz səmimiyyəti ilə sayılıb-seçilirdi. Hər kəs, eləcə də, dostları onun yanına gəlib, ondan məsləhətlər alırdı. Bu da bir daha onun böyüklüyünün göstəricisi idi. Xaraktercə səmimi, mehriban,

genişürəkli akademik insanlarla tez ünsiyyət qurar, qısa müddətdə onlarla dostlaşardı. Bu baxımdan onun dostları çox idi. Bəlkə də saymaqla bitməz. Həsən Əliyev xaricdən gələn bütün dostlarını Azərbaycanın hər bir guşəsində gəzdirər və ölkəmiz haqqında onlara məlumat verərdi. Deyirdi ki, Azərbaycanı xaricdə tanıtmaq üçün xarici ölkələrdən gələn elm adamalarına respublikamız haqqında ətraflı məlumatların verilməsinə ehtiyac var. Eləcə də akademik Həsən Əliyevin SSRİ respublikalarının hər bir guşəsində yaxın əlaqələr qurduğu insanlarla dostluq əlaqələri vardı. Vaxtaşırı həmin dostlarını da Azərbaycana dəvət edər, onlara respublikamızın meşələri, çayları, gölləri haqqında geniş məlumatlar verərdi. Həsən Əliyevin o vaxtlar Rusiya, Gürcüstan, Ukrayna və Moldava coğrafiyaşünasları ilə daha sıx əlaqələri vardı. Türkiyə və İran alimləri tez-tez Azərbaycan EA-nın Coğrafiya İnstitutuna gəlir, Həsən Əliyevin rəhbərliyi altında müxtəlif simpoziumlarda və konfranslarda iştirak edirdilər. Qonşu ölkələrdən Azərbaycana gələn alimlərin iştirak etdikləri ekspedisiyalara azərbaycanlı gəncləri də qoşurdu ki, onlar baxıb öyrənsinlər".



Coğrafiya elmlər doktoru, professor Əmir Əliyev elmə gəlişinə görə akademik Həsən Əliyevə minnətdarlığını belə ifadə edir: "Akademik Həsən Əliyev xeyirxah və qayğıkeş insan idi. Onun bu xususiyyəti o dövrdə hər kəsə məlum idi. Tale elə gətirdi ki, mən də onun tabeçiliyində, onun himayəsi altında işləməli oldum. Ümumiyyətlə, Həsən Əliyev gənclərə çox böyük hörmət edirdi. Onların qayğı və problemləri ilə maraqlanır, üzə çıxan çətinliklərin aradan qaldırılmasına köməkliyini göstərirdi. Həsən müəllim var gücü ilə çalışırdı ki, həmin gənclər elmin

inkişafına töhfələr verə bilsinlər. 1972-ci ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra mənim təyinatımı Coğrafiya İnstitutuna verdilər. Coğrafiya İnstitutunda direktor işləyən Həsən müəllim bizi qəbul etdi və dedi ki, mən sizin dəniz, okean üzrə mütəxəssis olmağınızı məsləhət bilirəm. O sahə üzrə alim olmağınız üçün sizi göndərəcəyik Moskvaya və bu işi mükəmməl öyrənəndən sonra aspiranturaya qəbul olunacaqsınız. Biz razılaşdıq. O zaman Xəzər dənizində ətraf mühitin qorunması ilə bağlı böyük elmi işlər aparılırdı. Bizi dünya okeanı ilə dəniz arasında gedən prosesləri öyrənmək məqsədilə aparılan elmi-tədqiqat işlərinə qoşdular. 1973-cü ilin əvvəllərindən biz ekspert qrupunda yavaş-yavaş elmi metodiki təcrübələrə yiyələnməyə başladıq. Sonradan Moskva Dövlət Universitetində də dərslərdə iştirak etdik. Biz orada oxuduğumuz müddət ərzində hər zaman Həsən müəllimlə əlaqə saxlayırdıq və o, Moskvaya gələndə görüşürdük. O, qayğıkeş insan olaraq bizim problemlərimizlə maraqlanır və nəyəsə ehtiyacımız olduqda köməklik göstərirdi. İki il dərslərdə və elmi təcrübələrdə iştirak etdikdən sonra, Azərbaycana qayıtdıq, nəticələrimiz

baradə Həsən müəllimə məruzə etdik. Onun köməkliyi ilə aspiranturaya qəbul olunduq və elmi fəaliyyətə başladıq. Elmə gəlişimin vəsiqəsini Həsən müəllim verdi. Bu səbəbdən ona borcluyam. Əminliklə deyə bilərəm ki, məhz Həsən müəllimin səyləri və köməkliyi nəticəsində Azərbaycanda okeanologiya elmi inkişaf etmişdir. Bu sahədə çalışan Azərbaycan alimləri dünyanın hər yerində tanınır, onların elmi araşdırmaları və nəticələri yüksək qiymətləndirilir".



Akademik Həsən Əliyev tez-tez Qulu Xəlilov, Nəriman Həsənzadə, Bəxtiyar Vahabzadə və digərləri ilə görüşüb söhbətlər aparardı. Yəni dostları ilə arası çox yaxşı idi. Həsən Əliyev şair

və yazıçılarla söhbətlərində xalqımızın adətləri, ənənələri barədə müzakirələr qurardı. Deyərdi ki, unudulmaqda olan adətləri qoruyub yaşatmaq üçün şair və yazıçıların üzərinə böyük məsuliyyət düşür. Özü bu istiqamətdə fəallığı ilə seçilirdi. Novruz bayramının keçirilməsinin qadağan edildiyi zaman Həsən Əliyev Coğrafiya İnstitutunda Novruz bayramını çox təntənəli şəkildə qeyd edərdi. Otaqlarda səməni əkilməsi, novruz atributlarının dillər əzbəri olan sözlərinin müzakirə mövzularından olmasına fikir verərdi. Bu onun amalı, xalqımızın adət-ənənəsinə, keçmişinə sevgisinin etirafı idi. Həsən müəllimlə uzun müddət dostluq etmiş şair Nəriman Həsənzadə deyir : "Bütün varlığı ilə elə-obaya bağlı olan bu böyük insan şeirin, sözün, sənətin aşiqi idi".

Həsən Əliyev həm də çox ailəcanlı idi. Nümunəvi ailə başçısı idi. İşdə və ya xarici ölkələrdə səfərlərdə olmasına baxmayaraq, tez-tez ailəsi ilə əlaqə saxlayar, oğlu Rasimlə maraqlanardı. İlk sualı bu olardı: "Rasim necədir, dərslərini oxuyurmu?".



Həsən müəllimin ətrafında olanlara, xüsusilə də, gənclərə diqqət və qayğısının şahidlərindən olmuş coğrafiya elmləri doktoru Mahmud Xələfov deyir ki, Həsən Əliyev gənclərin dostu, həm də hamisi idi: "Mən Azərbaycan Elmi-Tədqiqat Meşə Təsərrüfatı və Aqromeşəmeliorasiya İnstitutunda şöbə müdiri vəzifəsində işləyirdim. Həsən Əliyev isə Coğrafiya İnstitutunun direktoru və "Meşə torpaqşünaslıq" şöbəsinin müdiri işləyirdi. Həsən müəllimin qəbulunda olanda dedim ki, Həsən müəllim mən Bərdədə işləyirəm və özü də meşəçiyəm. O dedi ki, "mənə də elə meşəçi lazımdır, ərizə yaz səni işə götürürəm". O, vaxtlardan elə Coğrafiya İnstitutunda işləyirəm. Bu institutda işlədiyim dövrdə

Həsən Əliyevlə çox sıx əlaqəm olub. Ümumiyyətlə, Həsən müəllim Azərbaycanın meşələri ilə çox maraqlanırdı. Çünki o, təbiətlə yaşayır, onunla nəfəs alırdı. Həm də Həsən Əliyevi meşələrin vəziyyəti çox narahat edirdi. Məlumdur ki, Yer kürəsində canlı aləmin qorunub saxlanılmasında, atmosferdə oksigen və karbon balansının səviyyəsinin tənzimlənməsində, bəzi kimyəvi elementlərin təbii bioloji dövranında, ayrı-ayrı coğrafi zonalarda iqlim şəraitinin formalaşmasında, torpaqda rütubətin, çaylarda və göllərdə su ehtiyatlarının artmasında meşələrin rolu əvəzedilməzdir. Həsən Əliyev Kürqırağı tuqay meşələrinin pis vəziyyətdə olduğunu gördüyündən birlikdə belə bir mövzu götürdük və üç il birlikdə işlədik. Demək olar ki, bu işi Gürcüstanın sərhədindən başlayaraq, Salyana kimi üç il həmin əraziləri gəzərək xəritələşdirdik. Burada əsasən meşələrin vəziyyətini öyrəndik. Bir sözlə, akademik Həsən Əliyevi həmişə tuqay meşələrinin acınacaqlı vəziyyəti narahat etmiş, o, bu meşələrin müasir vəziyyətini öyrənmiş, mövcud meşə-bərpa işlərini tədqiq etmiş, Kürqırağı tuqay meşələrinin irimiqyaslı xəritəsi onun iştirakı ilə tərtib olunmuşdur. Biz bu xəritədə tuqay

meşələrinin müasir vəziyyətini verdik , həmçinin "Azərbaycanın Kürboyu tuqay meşələri" adlı monoqrafiyasını yazdıq. Azərbaycan meşələrinin vəziyyəti onu çox narahat edirdi. Hər dəfə biz tədqiqat işlərinə gedən zamanı məni istiqamətləndirərdi. Həsən müllimlə çox əməkdaşlıq etdik. Onunla birlikdə "Təbiətin yaşıl libası", "Təbiətin keşiyində" kitabını və "Meşənin taleyi insanın əlindədir" monoqrafiyasını yazdıq. Həsən Əliyev bir elm adamı kimi çox yaxşı müəllim, ustad idi. Ondan öyrənməli çox şey vardır".

# AZƏRBAYCANIN TANINMIŞ ALİMLƏRİ, ŞAİR VƏ YAZIÇILARI AKADEMİK HƏSƏN ƏLİYEV HAQQINDA

*Budaq Budaqov,*
*Akademik*

Akademik Həsən Əliyev Azərbaycan vətəndaşlarını sevdiyi kimi, vətənin hər bir çiçəyini də, çəmənini də, ağacını da, heyvanat aləmini də, ümumən landşaftını da ürəkdən sevirdi. Akademik Həsən Əliyev təbiətə yara vuranları sevməzdi. Çünki təbiət qara sevmir. Azərbaycan təbiətinə qayğısızlıq xalqımıza olan qayğısızlıq deməkdir. Akademik Həsən Əliyev Azərbaycan təbiətinə vurulan və ya vurula biləcək hər bir ziyanın qarşısını almaq üçün həm müvafiq dövlət orqanlarını, həm də xalqı səsləyirdi. Akademik Həsən Əliyev təbiətin hər növ deqradasiyasının qarşısını almaq üçün təbiətindən irəli gələn kəskinliklə üsyan səsini ucaldırdı. Təbiətin bir hissəsinin  zədələnməsi başqa təbii kompleksləri də çəkərək öz arxasınca aparır. Bu səbəbdən də akademik Həsən Əliyev təbiətin bütün təbii komponentlərinin eyni vaxtda qorunmasına can atırdı. Akademik Həsən Əliyevin

fikrincə, təbiəti qorumaq həm dövlətin, həm də hər bir vətəndaşın işi olmalıdır. XIX əsrin təbiətinin qorunmasını Həsən bəy Zərdabisiz, XX əsri isə Həsən Əliyevsiz təsəvvür etmək mümkün deyil. Hər iki dahi şəxsiyyət təbiəti elmi əsaslarda tədqiq etmək, onu ciddi mühafizə etmək iddiası ilə yaşayır və yaradırdı.

*Məmməd Araz,*
*Xalq şairi*

Həsən Əliyev böyük alim, böyük vətəndaş və böyük insan idi. O, həm də dünya miqyasında tanınan alimlərimizdəndir. Dünya səviyyəsində təbiəti mühafizəyə, ekologiyaya dair keçirilən elə mühüm yığıncaq olmazdı ki, Həsən Əliyev ora dəvət olunmasın, orada çıxış eləməsin. O, şeiri-sənəti gözəl başa düşən, şair qələminə dərin hörməti olan bir ziyalı, çox sərrast qələmi olan jurnalist idi. XIX əsrin 20-ci illərinin sonlarında "Molla Nəsrəddin" jurnalının fəal əməkdaşı olmuşdu. O heç vaxt bu barədə danışmazdı. Hərdən o illərdən xatirə söylərdi. Azərbaycan torpağını isə qarış-qarış gəzən, öyrənən tədqiqatçılardan biri, bəlkə də birincilərdən biri idi. O, təkcə yazmırdı, tədqiq etmirdi; bir əli qələmdə,

bir əli telefon dəstəyində nə isə deyirdi, göstəriş verirdi, təbliğ edirdi, təkid edirdi, uçuruma gedən hansısa təbiət parçasını ölümdən xilas edirdi. Bir gün Həsən müəllimlə onun maşınında Lənkəranın Qızılağac qoruğuna yola düşdük. Yolboyu şirin, duzlu söhbətlər edir, gülümsəyir, əsəbiləşdiyi anlar da olurdu. Ceyranların kökü kəsilir - deyir, Vurğunun misralarını xatırlayırdı. Qızılağac qoruğunda dünyanın minbir quş növü var idi. Birinci dəfə görürdüm: sehirli-möcüzəli bir aləm! Suların üstə, qamış şaxlarında, cığırlarda, qayalarda və balaca daşların böyründə quşlar yuva tikmişdilər. Quşların və çiçəklərin gözəllik sərgisiydi. Həsən müəllim quşların, çiçəklərin, ağacların adlarını deyir, xasiyyətini təsvir edirdi. Danışdıqca saflaşır, təbiətləşirdi. Elə bil kin, qərəz, cəmiyyət deyilən şeylərdən heç xəbəri yox idi.

*Əläşrəf Məmmədov,*
*Azərbaycan EA-nın akademiki*

Qəlbimdə silinməz izlər buraxmış bu alicənab, kövrək ürəkli şəxsiyyətlə, düşünən və düşündürən insanla iyirmi il bir yerdə işləmişəm. Mən ondan, sözün əsl mənasında, həyat dərsi

almışam. Müəllimim sandığım bu sadə, mehriban insan haqqında saatlarla, bəlkə də günlərlə danışmaq olar. Onun mənalı ömrünün ancaq mənimlə bağlı bir neçə məqamını oxucuların diqqətinə çatdırmağı özümə borc bilirəm. Bu məqamlarda Həsən müəllimin necə qayğıkeş, xeyirxah, mərd, "cəsarətli, prinsipial, vəzifə borcuna sadiq və yeri gələndə, bir azərbaycanlı kimi təəssübkeş olması özünü açıq-aydın göstərir.

***Əsgər Əyyubov,***
***coğrafiya elmləri doktoru***

Akademik H.Ə.Əliyev adi kənd zəhmətkeşindən Azərbaycan KP MK katibi vəzifəsinə, ibtidai məktəb müəllimindən böyük pedaqoqa, laborantdan akademikə qədər yüksələ bilməkdən ötrü çətin, lakin çox şərəfli yol keçmişdir. O, respublikamızda elmin  təşkilatçılarından, Azərbaycan torpaqşünaslığı və coğrafiyasının banilərindən biridir. Həsən müəllim geniş diapazonlu bir alimdir. Onun əsərlərinin əksəriyyəti təbiət, biologiya və kənd təsərrüfatı elmlərinin müxtəlif sahələrinə həsr edilmişdir. H.Ə.Əliyev birinci növbədə torpaqşünasdır. Onun torpağa münasibəti konkret və mənalıdır. "Torpaq - Vətən de-

məkdir" sözlərini tez-tez təkrar edən alim yarıməsrlik elmi fəaliyyətini respublikamızda torpaqların tədqiqinə, onların tipləşdirilməsinə, torpaqyaradan amillərin təhlilinə və s. həsr etmişdir. O, Azərbaycan Respublikası şəraitində geniş sahələrdə ildə iki-üç məhsul yetişdirilməsi sahəsində böyük imkanlar olduğunu göstərən ilk tədqiqatçılardan biridir.

*İmran Cəfərzadə,*
*professor*

Azərbaycan təbiətinin təbilçisi və cəfakeş müdafiəçisi akademik Həsən Əliyev böyük ürəkağrısı ilə tez-tez bu sözləri deyərdi: "Hər şeyi su ilə yuyurlar, bəs su çirklənəndə onu nə ilə yuyarlar?". Həsən Əliyev bu həyəcanlı sözlərlə Kür və Arazın, onların suyundan bəhrələnən torpaqların və adamların taleyini düşünür, bu çaylarboyu yaşayış bölgələrinin əhalisini xəbərdar edir, qonşu respublikaların rəhbər işçilərinə müraciət edirdi. Bu məqsədlə o səyahətlərdən, konfranslardan, qəzetlərdən və şəxsi görüşlərdən səmərəli istifadə edirdi. Lakin iş elə gətirdi ki, Həsən Əliyev narahat fikirlərini çatdırmaq üçün yeni və çox gərəkli bir auditoriya əldə etdi.

*Eyyub Qurbanov,*
***Biologiya elmləri doktoru***

Akademik Həsən Əliyevin onlarla elmi, fəxri adı, rəsmi və ictimai vəzifələri olsa da, həmişə ona müdrik ağsaqqal kimi baxır və sadəcə olaraq Həsən müəllim deyə müraciət edirdilər. Maraqlı idi ki, müxtəlif peşə sahibləri ayrı-ayrılıqda Həsən müəllimi öz həmkarı sanır və yeri gəldikcə ondan peşəkar səviyyədə cavablar, məsləhətlər alırdılar. Mən nəbatatçıyam və nəzərimdə Həsən Əliyev ən nadir bioloq-meşəşünas kimi canlanır. Son otuz ildə vəziyyəti onsuz da bərbad olan Azərbaycan meşələrinin qayğısına Həsən müəllim qədər qalan, onun dərdlərinə yanan ikinci bir şəxs tanımıram.

***Zahid Şöyübov,***
***Əməkdar müəllim***

Böyük şəxsiyyət, sadə, çoxumuzun ideal sandığımız gözəl insan - Həsən müəllim haqqında çox danışmaq olar. O, xalqına, vətəninə, xüsusən də təbiətə elə bağlı idi ki, bunu adi sözlərlə ifadə etmək mənə çətindir. Həsən müəllim öz gərgin əməyi ilə respublikamızın çox yerində iz qoyub

getmişdir. Mən onun qədər təbiətin vurğunu olan ikinci bir adam tanımıram.

*Əhməd Xaspoladov,*
*jurnalist*

Akademik Həsən Əliyev Azərbaycan təbiətini ehtirasla sevən, onun mühafizəsi işinə daim qayğı göstərən vətəndaş alimdir. O, sözün həqiqi mənasında təbiət vurğunudur. Beynəlxalq Təbiəti Mühafizə Cəmiyyətinin Yunanıstanda, Rumıniyada, Avstraliyada, Kanadada keçirilmiş ümumdünya konqreslərinin fəal iştirakçısı olub. Alimin əsərləri dünyanın on beş ölkəsində nəşr edilib. O, bir çox dünya alimləri ilə elmi əlaqə saxlayır, onların əsərlərini alır, rəy yazırdı. Amerika alimi Harris Sovet İttifaqında coğrafiya elminin inkişafına həsr etdiyi böyük monoqrafiyasının əlyazmasını rəy üçün akademik Həsən Əliyevə göndərmişdi. Azərbaycan aliminin faydalı düzəlişləri, əlavələri Amerika alimini çox razı salmış, monoqrafiya 1975-ci ildə çap olunmuşdur.

*Abbas Səmədov,*
***Filologiya elmləri doktoru, professor***

Görkəmli şəxsiyyət, tanınmış elm xadimi, gözəl insan Həsən Əlirza oğlu Əliyev haqqında fikir söyləmək, yazmaq, kövrək xatirələri yada salmaq ağır və həm də məsuliyyətli işdir. Müxtəlif dillərdə dövri mətbuatda ona həsr edilmiş məqalələr, daha sonra yazılmış kitablar, söylənilən rəylər Həsən müəllimin dünyəvi alim olduğunu, bəşəri ideyalarla yaşadığını, alovlu vətənpərvər, elm fədaisi, mahir tərbiyəçi kimi səmərəli fəaliyyət göstərdiyini aşkarlayır.

***Zahid Əhmədov,***
***Tərcüməçi, publisist***

Hər dəfə işdən evə qayıdarkən Fəxri Xiyabanın yanından keçəndə kənardan kiminsə nəzərlərini üzərimdə hiss edirəm. Çevrilib, sağa baxıram və hər şey mənə aydın olur. Lap elə özü boyda heykəlləşmiş, bürüncləşmiş Həsən müəllimi fikrə dalmış görürəm. Daxili bir narahatlıq keçirir, öz-özümə fikirləşirəm: "Ədalətli və qeyrətli kişi idin, Allah sənə rəhmət eləsin!". Dediklərim yüz dəfə ürəyimdən olsada, narahatçılığım keçmir. Bəzən qəbrini ziyarətə gedirəm,

heykəli ilə üz-üzə durub, söhbət edirəm, olub keçənləri yada salıram. O isə susub, dinmir. Küsübdür, ya da bu günlərimizdən narazıdır, sanıram...

*Barat Cəfərli,*
*Kənd təsərrüfatı elmləri namizədi*

"Bakı" restoranında, Həsən müəllimin müdafiəsi şərəfinə düzəldilmiş ziyafətdə 18 nəfər iştirak edirdi. Böyük qardaşın uğurlu müdafiə məclisini axıradək Heydər Əlirza oğlu idarə etdi. O, Azərbaycan süfrəsi arxasında oturan qonaqları salamladı və onlara xoş arzularını bildirdi. İlk badələr məclisin səbəbkarı Həsən müəllimin şərəfinə qaldırıldı. Sonra Heydər müəllim sevimli qardaşının gərgin və ağır zəhmətini yüksək qiymətləndirən Elmi Şura üzvlərinə, onun sədrinə və rəsmi opponentlərə öz dərin minnətdarlığını bildirdi: "Ailəmiz üçün bu hadisəni mən böyük sevinc və fərəh hissi ilə qəbul edirəm. Eyni zamanda belə hesab edirəm ki, bu hadisə Həsən müəllimin həmkarlarının Azərbaycan torpağına verdikləri qiymətin təcəssümüdür. Mən əminəm ki, neçə-neçə gələcək nəsillər onun elmi-tədqiqat işlərinin nəticələrindən bəhrələnəcəklər". Çıxış edən qonaqlar Heydər müəllimin dediklərinə

qoşuldular və qonaqpərvərlik üçün öz minnətdarlıqlarını bildirdilər. Ziyafət üç saat davam etdi. Sevincimizin hüdudu yox idi...

*Vahid Hacıyev,*
*akademik*

Həsən müəllim tanınmış torpaqşünas olmaqla yanaşı, həm də geniş dünyagörüşlü bir bioloq idi. Botanika, təbiətin, xüsusən də bitki örtüyünün qorunması sahəsində onun xidmətləri saysızdır. O, meşəyə, yaşıllığa xüsusi diqqət yetirirdi. Meşəni "təbiətin təkrarolunmaz hissəsi" adlandırır və qeyd edirdi ki, meşə əlverişli şərait yaradır, özünü, ətrafı qida və su ilə təmin edir, havanı təmizləyir. Nəslinin qorunub saxlanması, davam etməsi üçün özünə qayğı göstərir.

*Qərib Məmmədov,*
*Biologiya elmləri doktoru, professor,*
*AMEA – nın həqiqi üzvü*

Keçmiş xatirələrimi vərəqləyərkən akademik Həsən Əliyev həmişə gözlərim qarşısında narahat bir şəxs, narahat alim kimi canlanır. Şəxsi söhbətlərimizdən mən həmişə belə bir qənaətə gəlirdim ki, elmimizin elə bir sahəsi, elə bir

problemi yoxdur ki, onu düşündürməsin. Həsən Əliyevin elmi fəaliyyətinin böyük bir hissəsi təbiəti mühafizə problemləri ilə bağlı idi. XX əsrin 60-70-ci illərində bizim çoxumuz bu problemin vacibliyini görsək də, onun böyüklüyünü H.Əliyev kimi dərk etmək iqtidarında deyildik.

*Zeynal Mövsümov,*
*Kənd təsərrüfatı elmləri doktoru*

Azərbaycan təbiəti haqqında söhbət gedəndə ani olaraq göz önündə unudulmaz bir obraz - akademik Həsən Əliyevin əbədi obrazı canlanır. Bu sadə insanı Azərbaycan kəndlərində tanımayan, onun əməllərinin bəhrəsilə rastlaşmayan, demək olar ki, tapılmaz. Mən kənd adamlarının adını ilk öncə ona görə çəkirəm ki, bu qəbildən olanların qəlbinə yol tapmaq hər alimə nəsib olmur. Elmi ictimaiyyət arasında tanınmaq üçün bir neçə elmi-kütləvi kitab və məqalənin müəllifi olmaq kifayətdir. Lakin bütün xalq arasında tanınmaq, sevilmək üçün gərək xalqı, vətəni, torpağı öz varlığın qədər sevəsən. Bəli, Həsən müəllim belə şəxsiyyətlərdən idi.

*Səyyaf Xəlilov,*
***Kənd təsərrüfatı elmləri namizədi***

Həsən müəllimin ömür yoluna nəzər saldıqda fikirləşirsən ki, bu insan dünyaya yalnız yaxşılıq etmək üçün gəlibmiş. Mən respublikamızın bir çox rayonlarında torpaq tədqiqatı aparmış, müxtəlif adamlarla rastlaşmış, təmasda olmuşam. Yerindən, yurdundan, kimliyindən asılı olmayaraq, hər yerdə Həsən müəllim haqqında xoş sözlər, xatirələr eşitmişəm. Onlardan biri haqqında söhbət açmaq istərdim. Dəvəçi (indiki Şabran rayonu - red.) rayonunun sakini Qulam kişi belə nağıl edir:

-Dəvəçi rayonunda kolxoz sədri işləyirdim. Müharibə yeni qurtarmışdı. Qəflətən kolxoza yoxlama gəldi. Təftiş aparıldı, ancaq heç bir şey tapa bilmədilər. Yalnız bir itin öldüyünü aktlaşdırıb getdilər. Kolxozun iti öldüyünə görə mənə məhkəmə işi qaldırdılar və həbs olunmaq təhlükəsi qarşısında qaldım. Neçə-neçə vəzifə sahibinin qapısını döydüm, vəziyyəti danışdım, xeyri olmadı. Nəhayət, Nazirlər Sovetinə, Həsən Əliyevin yanına gedib dərdimi danışdım. O, məni diqqətlə dinlədi və əsəbiləşdi. Sonra telefon dəstəyini götürüb Teymur Quliyevə zəng etdi,

dövlət idarələrindəki belə yersiz işlərdən narazılığını bildirdi və itin ölümünün təbii hal olduğunu qeyd etdi. Beləliklə, bu xeyirxah insanın rəsmiyyətdən uzaq səmimiyyəti nəticəsində həbsdən qurtara bildim.

*Xəlil Mustafayev,*
*Kənd təsərrüfatı elmləri doktoru*

Həsən müəllim respublikamızda aparılan elmi işlərin qabaqcıl Avropa ölkələrinin təcrübəsi səviyyəsində olmasına xüsusi fikir verirdi. Əsas məqsəd isə Yer kürəsində durmadan artan əhalinin ərzaqla təminatı problemlərini həll etmək üçün "Beynəlxalq bioloji proqram" yaratmaq idi. Bu münasibətlə Həsən Əliyevin rəhbərliyi ilə Azərbaycanda xüsusi komissiya yaradıldı və bu mövzuda bir neçə elmi məqalələr və kitabçalar çap olundu.

*Şövqi Göyçaylı,*
*Coğrafiya elmləri doktoru*

Həsən müəllim Azərbaycan coğrafiyasının öyrənilməsində əlindən gələni əsirgəmirdi. O, eyni zamanda Azərbaycan təbiətinin, onun mühitinin mühafizəsində də mübariz idi. Tbilisidə

SSRİ Coğrafiya Cəmiyyətinin qurultayında akademik Həsən Əliyev Azərbaycanın ekoloji şəraiti və təbiətinin mühafizəsi barədə məzmunlu və kəskin çıxış etdi. O, qonşu respublikaları - Ermənistanı və Gürcüstanı Kür, Araz çaylarının suyunu çirkləndirdiklərinə görə möhkəm ittiham etdi. Bildirdi ki, Qafqazda ekoloji təmizlik yaradılmasında Qafqaz respublikaları elmi-işgüzar əməkdaşlıq etməlidirlər.

***Şahvələd Xəlilov,***
***Coğrafiya elmləri doktoru, professor***

Həsən Əliyev görkəmli alim və ictimai xadim kimi böyük nüfuza malik idi. Respublika miqyaslı tədbirlərin heç biri onsuz keçirilmirdi. Kənd təsərrüfatı, təbiətin qorunması, su təsərrüfatı və s. sahələrdə planlar və layihələr bilavasitə onun iştirakı ilə hazırlanırdı. Onun dəyərli məsləhətlərinə, arzu və təkliflərinə böyük ehtiyac duyulurdu. Həsən müəllim ona olan ümumxalq məhəbbətindən və özünün kəsərli sözündən böyük miqyaslı məsələlərin həlli, qanunçuluğun bərpası üçün istifadə edirdi.

*Qafar Cəlilov,*
***Biologiya elmləri namizədi***

Həsən müəllim təbiəti, təbii sərvətləri sevən, onlara qayğı göstərən, onların gələcək nəsillərə saxlanması sahəsində qarşıya qoyulan problemlərin həllinə çalışan bir şəxsiyyət idi. O, yaxşıya yaman, yamana yaxşı deməyi sevməzdi. Hər şeyi olduğu kimi görmək, bilmək istəyərdi. Yaxşı-yaman məfhumlarında, bir qayda olaraq, yaxşını üstün tutar, onu yaddan çıxarmaz, yamanı isə unutmağa cəhd edərdi. Haqlını haqsızdan, güclünü zəifdən məharətlə seçməyi bacarar, haqlıya meydan verər, haqsızın qarşısına sipər çəkərdi, haqqı, ədaləti üstün tutardı.

***Habil Haqverdiyev,***
***Coğrafiya elmləri namizədi***

Həsən müəllim çox qayğıkeş adam idi. Öz işçilərinə əlindən gələn köməkliyi əsirgəməzdi. 1978-ci ilin əvvəllərində o, bir dəfə məni yanına çağırıb institutda mənzilə ehtiyacı olan əməkdaşlar haqqında təcili arayış hazırlayıb verməyi tapşırdı. Səhəri gün mən mənzil növbəsinə dayanmış təxminən iyirmi əməkdaşımızın mənzil şəraiti haqqında geniş arayış hazırlayıb ona

təqdim etdim. Mənzil məsələsinin müsbət həll olunması o vaxtlar da çətin idi. Həsən müəllim böyük maneələrə rast gəldi, çox çalışdı, zəhmət çəkdi, lakin istəyinə nail oldu.

*Vahib Rəsulov,*
*Kənd təsərrüfatı elmləri namizədi*

Doğrudan da bu gün Həsən müəllimi səmimi-qəlbdən xatırlayarkən, ilk növbədə, onun insani əməlləri və bizə qoyub getdiyi qiymətli əsərləri nəzərimizdə canlanır. İstər onun yetirmələri olan bizlər, istərsə də elmi ictimaiyyət Həsən müəllimin yazıb bizə irs qoyduğu və bu günə kimi işıq üzü görməmiş əsərlərini, o cümlədən "Şimal-Şərqi Azərbaycanın düzən meşə torpaqları və sahil qumluqları, onların perspektiv istifadəsi" əsərini çap etdirə bilsək, onun əziz xatirəsinə ən böyük ehtiramımızı göstərmiş olarıq.

*Cümrah Musalı,*
*Kənd təsərrüfatı elmləri namizədi*

Azərbaycanın görkəmli alimi akademik Həsən Əliyev təmasda olduğu adamların hamısının xatirində mütləq yadda qalan bir iz qoymuşdur. O, təbiətsevər alim olmaqdan başqa həm də mehriban insan idi. Onu tanıyanlar bu qayğıkeş

insana sadəcə olaraq "Həsən müəllim" deyə müraciət edərdilər.

Akademik Həsən Əliyevin savadlı müəllimlərdən dərs alması, nüfuzlu alimlərlə birgə çalışması, cəsarəti, qarşısına qoyduğu məqsədlərə çatmaq üçün yorulmadan calışması işlədiyi sahədə uğurlar əldə etməsinə yardımçı olmuşdur. Xalq şairi Bəxtiyar Vahabzadə Həsən Əliyevi yaxından tanıyan, onun Azərbaycan elminə verdiyi əvəzsiz xidmətləri barədə geniş məlumatlara malik olan bir şəxs kimi demişdir: "Həsən müəllimin həyatı Azərbaycanı sevənlərçün bir örnəkdir". Eyni fikri kənd təsərrüfatı elmləri doktoru Xəlil Mustafayev də söyləmişdir: "Akademik Həsən Əliyevin elmi və ictimai həyatı elm sahəsində çalışan alimlər üçün nümunədir".



Bəli, böyük vətəndaş, böyük alim Həsən Əliyev harda və hansı sahədə çalışmasından asılı olmayaraq orada savadı, elmi, biliyi və nəhayət qətiyyəti, tələbkarlığı ilə seçilib. Bununla hər bir uğura layiq olduğunu  təsdiq edib. Ömrünün çox hissəsini çalışdığı  Azərbaycan Milli Elmlər Akademiyasında böyük hörmət və nufuz sahibi olub. Elmi fəaliyyətə başladığı ilk gündən xüsusi biliyi, savadı, aydın təfəkkürü ilə diqqətləri özünə cəlb edib. Ona görə də onu akademiyada ən məsuliyyətli institutlardan olan Torpaqşünaslıq və Aqrokimya İnstitutunda elmin daha aktual problemlərinin tədqiqinə yönəldirlər. Kür-Araz ovalığı torpaqlarının prolüvial formalı növündə şoranlaşma mövzusunda elmi-tədqiqat işi aparmaq ona tapşırılır. O dövrdə  Şirvan düzlərinin quruluğu onun özünü də çox düşündürür, narahat edirdi. Bu torpaqlarda mövcud problemləri aradan qaldırmaq Həsən Əliyevin də istəyi idi. Akademik ciddi tədqiqatlara başlayır, elmi axtarışlar onun üçün bir növ həyat tərzinə çevrilir. Çöl və laboratoriya şəraitində apardığı tədqiqat işləri, çoxsaylı torpaq kəsimlərinin analizi zəngin material toplamağa imkan verir. O, torpaqşünaslıq elmi üçün vacib elmi nəticələr əldə

edir. Həsən Əliyev deyirdi ki, torpağa həyat vermək üçün su əhəmiyyətli rola malikdir. Su ağacların canlanması, bitkilərin nəfəs alması, bütövlükdə təbiətin inkişafı deməkdir. Akademikin bu barədə "Həyəcan təbili" kitabında yazır: "Neft bizim üçün həqiqətən "qara qızıldır". Onun əhəmiyyəti misilsizdir və bu barədə geniş söhbət açmağa da ehtiyac yoxdur. Lakin neft yerin dərin qatlarından əziyyətlə çıxarılır. Qəhrəman dəniz fatehlərimiz bəzən hətta ölüm təhlükəsi ilə üzləşir, fırtına ilə əlbəyaxa olurlar. Bununla belə, hasil olunan neftin bir litri qəpik yarıma satılır. Halbuki, "Sirab"ın, yaxud "Badamlı"nın bir şüşəsi 4-5 dəfə ondan bahadır. Həm də çox çətinliklə tapılır. Fikirləşirsən, madam ki, belədir, onda görəsən nə üçün çaylara hədər yerə axıb gedən sular şüşələrə doldurulub pula çevrilmir? "Su dirilikdir, həyatdır" demişlər. Susuz təbiət də, həyat da ola bilməz. Su da çörək kimi hamıya, hər şeyə, həmişə lazımdır. Hətta isbat edilmişdir ki, su çörəkdən də vacibdir. Çünki insan bir aydan çox yeməksiz yaşaya bildiyi halda, susuz beş gün də keçinə bilməz. Görkəmli fransız yazıçısı Antuan Sent-Ekzüperi su haqqında necə də gözəl demişdir: "Su! Sənin nə dadın, nə rəngin,

nə də qoxun var. Səni təsvir etmək qeyri-mümkündür. Sənin nə olduğunu bilməyərəkdən səndən həzz alırlar. Sən "həyat üçün lazımsan" demək". Ətraf mühitin mühafizəsini Coğrafiya İnstitutunda Həsən Əliyev təşkil etmişdi və onun sədri idi. Həsən Əliyevin əsas tələbi o idi ki, biz Xəzər dənizini yaxşı öyrənməliyik və yaxşı saxlamalıyıq. Azərbaycanın havası da, iqtisadiyyatı da Xəzər dənizi ilə sıx əlaqədardır. Xəzər dənizinin Azərbaycan sektorunda olan sahəsi 75 min kvadrat kilometdir. Burda təxminən 6.6 kvadrat kilometr quru var. Xəzər dənizində neft və qaz yataqları təxminən Azərbaycan iqtisadiyyatının 90 faizini təşkil edir. Bakı şəhərində təkcə 4 milyon ev Xəzər dənizinin bilavasitə sahilində yerləşir. Ona görə də, Xəzər dənizi Azərbaycan üçün beş Xəzəryanı ölkələr  arasında ən vacib coğrafi və strateji  əhəmiyyətə malikdir. Onu da nəzərə alaq ki,  Azərbaycanda əhalinin 65 faizi Xəzər dənizinin sahilində yaşayır. Bu göstərici Rusiyada 2,5 faiz, İranda 6 faiz, Qazaxıstanda və Türkmənistanda isə  təxminən 9 faiz təşkil edir. Ona görə də Xəzər dənizi bizim üçün həyati məsələdir.  Məhz bu və digər amilləri nəzərə alan akademik Həsən Əliyev Xəzərin  öyrənilməsinin

daha vacib olduğunu qeyd edirdi. O bildirirdi ki, bütün dövrlərdə Xəzərdə gedən prosesləri öyrənən mərkəz yalnız Azərbaycanda olub. Bu işi daha da genişləndirmək lazımdır.

## Botaniklərin hamisi

Akademik Həsən Əliyevin elmi fəaliyyəti torpaqşünaslığın nəzəriyyəsi, ekologiya, botanika, bitkiçilik, təbii ehtiyatların və təbii şəraitin qorunub daha səmərəli istifadə olunması problemlərini, ümumiyyətlə, təbiətşünaslığın müxtəlif sahələrini əhatə edirdi.



O həm də əkinçilik və təbiəti mühafizə sahəsində görkəmli alim kimi də tanınmışdır. Onun respublikamızın həyatının bütün sahələrində təşəbbüsü, xidməti, zəhməti çoxdur, danılmazdır və bəlkə də əvəzsizdir. Bu barədə arası kəsilmədən, günlərlə danışmaq olar. Həsən Əliyev

tanınmış torpaqşünas olmaqla yanaşı, həm də geniş dünyagörüşlü bir bioloq idi. Botanikanın təbiətin, xüsusən də bitki örtüyünün qorunması sahəsində xidmətləri saysızdır. Botanika İnstitutunda çalışdığı qısa vaxt ərzində onun yüksək peşəkarlığı, geniş ümumi intellekti və eyni zamanda, idarəçilik qabiliyyəti elm ictimaiyyətinin diqqətini özünə cəlb etdirir. Həsən Əliyev Botanika İnstitutunda direktor işlədiyi dövrdə elmi-tədqiqat işlərinin planını yenidən quraraq aktuallaşdırmış, 8 cildlik "Azərbaycan florası"nın yazılmasını və nəşr edilməsini həyata keçirmişdir. Birmənalı şəkildə demək olar ki, bu gün füsünkar gözəlliyi ilə Cənubi Qafqazın ən böyük elmi-tədqiqat mərkəzlərindən biri olan Nəbatat bağı akademik Həsən Əliyevin böyük zəhməti hesabına yenidən yaradılmışdır. Məlumdur ki, Nəbatat bağı 1934-cü il iyun ayının 15-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı əsasında yaradılıb. İlkin mərhələdə bağın ərazisi 100 hektar olsa da, sonradan bəzi səbəblərdən 45, 5 hektara qədər kiçildilmişdir. 1936-cı idə Nəbatat bağının bazası əsasında Botanika İnstitutu təşkil olunur və Nəbatat bağı bir şöbə kimi institutun nəzdində fəaliyyət göstərməyə

başlayır. Bağda nadir ağaclar, bitki kolleksiyaları mövcuddur. Hətta Qafqaz florasından 149 növ nadir və nəsli kəsilməkdə olan və adları keçmiş SSRİ-nin və Azərbaycanın "Qırmızı Kitab"larına daxil edilmiş geofit bitkilərin kolleksiyası da var. Məhz bu cür bitki və ağac növlərini seyr etmək üçün hər ay yüzlərlə insan, xüsusilə də tələbə-gənclər, şagirdlər və şəhərimizə gələn qonaqlar, xarici ölkə alimləri Bağa ziyarətə gəlirlər. Bağdakı füsunkar gözəlliyi seyr edərkən maraq doğuran bitkilərin adını, cinsini, vətənini Azərbaycan, rus və latın dillərində bitkilərin üzərindən asılmış lövhəciklərdən öyrənmək olar. Nəbatat bağının inkişaf dövrü 1970-1980-cı illər hesab olunur. 1977-ci ildə Həsən Əliyevin rəhbərliyi ilə xüsusi komissiya yaradılmış, komissiya bağın inkişafı haqqında tədbirlər planı hazırlamışdır. Bilavasitə akademikin səyi nəticəsində Nəbatat bağı yenidən qurulmuş, ağac və bitki növlərinin sayı artırılmış, Azərbaycanın bəzi şəhərlərinin yaşıllaşdırılması üçün minlərlə ağac, kol və çiçəklər yetişdirilməyə başlanmışdır. Hesablamalara əsasən, demək olar ki, bu müddətdə Nəbatat bağı Bakı, Gəncə, Sumqayıt şəhərlərinin və Naxçıvan MR-in yaşıllaşdırılması üçün 100

növdən ibarət 10 minlərlə ağac, kol və çiçək şitilləri vermiş, o cümlədən Bakı şəhərinin Yaşıllaşdırma İdarəsinə və Abşeronun sənaye müəssisələrinə, məktəb və bağçaların yaşıllaşdırılmasına köməklik göstərmişdir. Eyni zamanda, həmin illərdə Nəbatat bağı 70 xarici ölkənin 290 Nəbatat bağı ilə toxum mübadiləsi aparmış, dərman, efiryağlı, sənaye və bəzək əhəmiyyətli bitkilərin aqrotexniki tövsiyələrini hazırlayıb təsərrüfatlara paylamışdır. Hazırda bağda 2500-ə yaxın faydalı bitki növləri, forma və sortlarının zəngin kolleksiyası toplanmışdır.

Akademik Həsən Əliyevin ideya müəllifliyi ilə əsası qoyulan müxtəlif ölkələrin bağları ilə toxum mübadiləsi bu gündə davam etdirilməkdədir. Hazırda Nəbatat bağı dünyanın 100-dən artıq Nəbatat bağı ilə əlaqə saxlayır, toxum mübadiləsi edir və onlardan introduksiya üçün toxum alır.

Akademik Həsən Əliyevin respublikada yem bitkilərinin, əkinçiliyin və bununla bağlı heyvandarlığın inkişafı ilə əlaqədar yaşıl "konveyer" sisteminin yaradılmasında böyük xidmətləri olub.



Akademik "Azərbaycanın Kürboyu tuqay meşələri" kitabında tuqay meşələrində hökm sürən acınacaqlı vəziyyəti qeyd edir, "Azərbaycanda bəzi yem bitkilərinin payızda əkilməsi" kitabında bitkilərin adı, tərkibi, normal inkişaf etdikləri ərazilər barədə geniş məlumat verirdi. Məsələn, kitabda Şənbələ bitkisi haqqında məlumat verilərkən deyilir: "Şənbələ, Şərq ölkələrində ən qədim vaxtlardan becərilən paxlalı yem bitkisidir. Bunu Həbəşistanda, Misirdə, İraqda, Hindistanda, Əfqanıstanda, Mərakeşdə, Əlcəzairdə becərirlər. Avropada Cənubi Fransada (donuzları yemləmək üçün) və Yunanıstanda əkirlər. Amerikada (Kaliforniyada) yaşıl gübrə üçün istifadə edilir. Şənbələnin nə vaxtdan

becərilməyə başladığı məlum deyildir. Bu bitkinin Azərbaycana kənar ölkələrdən gətirilməsini söyləməyə də heç bir əsas yoxdur. Belə ki, Qafqazda bu bitkinin 23 növünə təsadüf olunur. Bunlardan yalnız birisi (şənbələ) mədəni halda becərilir ki, bunun da yabanısı Quba-Dəvəçi rayonlarında yayılmışdır. Bu rayonların əhalisi qədim vaxtlardan yabanı şənbələni (adına hülbə deyilir) yığıb, xoş ətrinə görə evdə istifadə edərdilər. Görünür ki, əvvəllər əhali onu xoş ətrinə görə həyətlərdə əkmiş, sonralar isə heyvanların da onu yaxşı yediyini görüb, geniş sahələrdə becərməyə başlamışdır". Eləcə də Çölnoxudu bitkisi haqqında məlumatda deyilir: "Azərbaycanda yem bazasının möhkəmləndirilməsində, xüsusən yaşıl yem dövriyyəsi (yaşıl konveyer) qurmaqda, eləcə də qış və payız şəraitində becərmək üçün ən əlverişli bitkilərdən biri də çölnoxududur. Bəzi rayonlarda buna "xarxar", "dovşan gülülü", "gicə gülülü" də deyirlər. Böyük Qafqaz dağları zonasında əhali bu bitkinin yabanı formasını xarxar adlandırır. Çölnoxudu Azərbaycan ərazisinin hər yerində yayılmışdır. Ovalıqdan başlamış dəniz səthindən 2500-2700 metr hündürlüyə qədər təsadüf olunur. Taxılın

içərisində alaq otu hesab olunur. Xüsusən dağ rayonlarında və meşə-bozqır zonasında taxıl əkinlərinin "ot qarışığını" təşkil edir. Küləşin yemlik keyfiyyətini yaxşılaşdırsa da, dənin keyfiyyətini aşağı salır".

**Kürüşnə bitkisi:** Kürüşnə qədim vaxtlardan Azərbaycan SSR və Dağıstan MSSR-in dağ rayonlarında becərilir. Dənli-paxlalı bitkilər içərisində çox dən məhsulu verən (1 hektardan 10-25 sentner), torpağa tələbkar olmayan, quraqlığa davamlı, tez yetişən, tərkibində çoxlu zülal maddəsi olan, eləcə də zərərvericilərə və xəstəliklərə qarşı davamlı bitkidir. Buna görə o, Qafqazın dağlıq rayonlarında iş heyvanlarını yemləmək üçün qidalı yem bitkisi olaraq becərilir.

**Yazlıq çölnoxudu:** Adından məlum olduğu kimi, yazlıq çölnoxudu birillik yazlıq bitkidir. Lakin bir çox illər müddətində apardığımız təcrübələr göstərir ki, bu bitkini respublikamızın aran rayonlarında payızda da əkmək mümkündür. Bu halda o, yaşıl yem dövriyyəsinə daxil edilməklə, payızın axır aylarında istifadə ediləcəksə, avqustun axırında və sentyabrın əvvəllərində, yaşıl yem olaraq yazda istifadə ediləcəksə, oktyabrda əkilməlidir. Botaniki təsvirinə görə

yazlıq çölnoxudunun yarpaqları lələkvaridir, uclarında dırmaşmaq və ya sarınmaq üçün 3 nazik bığcıq vardır. Gövdəsinin kənarı altıkünclüdür, üzərində nazik tüklər vardır, yumşaq olduğuna görə tez yerə yatır. Bitkilərin boyu 50-60 sm-dən 90-100 sm-ə qədər çatır. Hər lələkdə 4-5 cütdən 8-9 cütə qədər yarpaq olur. Yarpaqlar çox vaxt qarşı-qarşıya durur, bəzən də növbə ilə düzülürlər. Təcrübə apardığımız yabanı formaların əksəriyyəti birçiçəklidir və bu çiçəklər saplaqsızdır. Bitkilərin içərisində iki çiçəkli və tək-tək hallarda 3-4 çiçəklilərə də təsadüf olunur. Çiçəklərin rəngi qırmızı-bənövşəyidir.



**Ensizyarpaq çölnoxudu:** Təcrübə apardığımız növlərin içərisində üstünlük təşkil edən bitkilərdən biri də ensizyarpaq çölnoxududur. So-

yuğa davamlılığı orta dərəcədədir. Lakin vegetasiya dövrü çox qısa olduğuna görə az bir müddətdə becərilməsi mümkündür. Avqustun axırında əkildikdə 40-50 gündən sonra hər hektardan 100-150 sentner yaşıl yem verir. Otu zərif olduğuna görə heyvan onu çox həvəslə yeyir. Becərilən növlərin içərisində quraqlığa davamlısıdır. İstər payızda və istərsə də qışda əkildikdə hər hansı iqlim şəraitində (Azərbaycan ərazisində) inkişaf edib toxum əmələ gətirir. Zərərvericilərə qarşı davamlıdır. İndiyə qədər məlum olan və becərilən növlərin bir çoxundan fərqli olaraq, yetişərkən qınları partlamır və toxumları yerə tökülmür. Ona görə də çölnoxudunun başqa növlərinə nisbətən çox toxum verir və əmələ gələn toxumların cücərmə qabiliyyəti yüksəkdir. Bizim təcrübələrimizdə birinci ilin toxumlarının cücərmə qabiliyyəti 100 faiz olmuş və toxum üçün topladıqda hər hektardan 17-20 sentner məhsul alınmışdır. Toxumların heç biri zərərvericilər tərəfindən zədələnməmişdir. Xarici görünüşünə görə yazlıq çölnoxudundan az da olsa fərqlənir.

**Tüklü çölnoxudu:** Tüklü çölnoxudu birillik bitki olub, boyu 50-100 sm-dir. Lakin V.V.Nikitin

Türkmənistan şəraitində onun boyunun 400 sm olduğunu göstərir. Kökü şaquli olub, 100 sm qədər dərinliyə gedir. Ətrafa buraxdığı nazik saçaqlar üzərində çoxlu miqdarda azot toplayan kök yumrucuqları vardır. Gövdəsi zərif olub, yerə yatır. Yarpaqları mürəkkəb və lələkvarı olub, uzunluğu 10-12 sm-dir. Tək-tək yarpaqlar saplaq üzərində növbə ilə düzülmüşdür. Cüt lələk dəstəsi bığçıqlar ilə tamamlanır. Hər bir lələkdə 7-8 cüt, bəzən 10 cütə qədər yarpaq olur. Çiçək qrupu salxım şəklində və göy-bənövşə rənglidir. Qınları (paxlaları) romb şəklindədir, qının içərisində 5-6 toxum olur. Toxumları yumru və qaradır. 1000 toxumun çəkisi 25-30 qramdan 35-40 qrama çatır.

**Gülül bitkisi:** Qışda becərmək üçün mühüm bitkilərdən biri də gülüldür. Hələ 1930-1933-cü illərdə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutu bu bitkinin pambıq rayonlarında qışda becərilməsini öyrənməklə məşğul olmuşdur. O vaxtlar bu bitkini becərməkdə əsas məqsəd payızda əkilən bitkiləri yazın əvvəlində yaşıl gübrə olaraq pambıq üçün istifadə etmək idi. Aparılan təcrübələrdə oktyabrın axırında əkilən gülül 8-10 dərəcə şaxtanı normal keçirib, yazın

əvvəllərində (aprelin 10-15-də) 200-300 sentner yaşıl kütlə vermişdır. Lakin sonralar gülülün payız əkini genişləndirilə bilməmişdir. Görünür ki, əkin üçün iridənəli gülül toxumuna (1000 toxumun ağırlığı 150 qramdır) tələbat çox olmuş və bu tələbatı ödəmək mümkün olmamışdır.

**Ətirli lərgə:** Ətirli lərgə birillik bitkidir. Xarici görünüşünə görə L.Miniatus M.B. və L.Medalantus kimi çoxillik növlərə çox oxşayır, becərilən birillik lərgədən isə xeyli fərqlənir. Ellips və ya yumurta şəklində çox zərif yarpaqları vardır. Bu yarpaqlar körpə vaxtında açıq yaşıl olur, vegetasiya dövrünün axırlarında yarpaqların üzərində nazik tüklər əmələ gəlir. Quraqlıqda və yaxud yayın istiləri başlandıqda həmin tük təbəqəsi daha kəskin ifadə olunur. Gövdəsinin kənarları hamar tirəli olub, yanlara çoxlu budaqlar verir. Uclarda sarmaşmaq üçün nazik sap kimi telləri vardır. 25-30 mm uzunluğunda və müxtəlif rənglərdə (qırmızı, açıq çəhrayı, ağ) kasacıqları, ətirli çiçəkləri vardır. Hər salxımda 2-3 çiçək olur. Qınları (paxlaları) tüklü, 5,5 - 5 sm uzunluqdadır. Toxumları yuvarlaq, hamar, tünd qəhvəyi-bənövşəyi rənglidir, hər

paxlada 7-8 toxum vardır. 1000 toxumun çəkisi 75 qramdır.

Bir sözlə, "Azərbaycanda bəzi yem bitkilərinin payızda əkilməsi" kitabında Akademik Həsən Əliyev hər bir bitkinin adı, tərkibi bitdiyi ərazilər barədə hərtərəfli məlumatlar verir. Hansı ki, bu bitkilərin bəziləri elmə məlum olmayıb. Məhz Həsən Əliyevin uzun müddət apardığı tədqiqat işlərindən sonra yeni bitki növlərinin mövcudluğu barədə tapıntılar əldə edib. Bütün bunlar böyük alim Həsən Əliyevin həm də, botaniklərin sələfi, hamisi, dayağı, yardımcısı olduğunu göstərir.

# Tur Heyerdaldan Həsən Əliyevə minnətdarlıq

Akademik Həsən Əliyevin elmi fəaliyyətinin bütün mərhələləri ətraf mühitin keyfiyyətinin qiymətləndirilməsi və idarəedilməsi ilə əlaqədar olub. Tədqiqatların ilkin mərhələlərində onun çalışmaları ekoloji vəziyyətin təhlilinə, ətraf mühit, onu çirkləndirən müxtəlif amillərin canlıların çağdaş və gələcək nəsillər, ilk növbədə, insan üçün törətdiyi risklərin qiymətləndirilməsinə, neqativ proseslərin qarşısının alınmasına yönəldilmişdir. Adıçəkilən problem dünyada qlobal miqyasda narahatlıq törədirdi və onun həlli üçün beynəlxalq əməkdaşlıq ilbəil güclənirdi. Bu istiqamətdə həmin dövr üçün miqyasına və əhəmiyyətinə görə ən önəmli beynəlxalq əməkdaşlığa misal olaraq 1974-cü ildə SSRİ ilə ABŞ arasında imzalanmış sazişi göstərmək olar.

Akademik Həsən Əliyev ətraf mühitin idarəedilməsi ilə əlaqədar bir sıra digər beynəlxalq təşkilatlarda da fəaliyyət göstərmişdir. Hətta ətraf mühit, torpaqşünaslıq və ya bitkiçiliklə

bağlı qarşıya çıxan suallara cavab tapmaq üçün xarici ölkələrdən ona müraciət edənlər də olurdu.



O da müraciətləri cavabsız buraxmır, onları yaranan suallarla bağlı geniş məlumatlandırır, əldə etdiyi elmi nəticələri onlarla bölüşürdü. Bu səbəbdən alim dünya elmi üçün bir tapıntı, böyük müəllim kimi dəyərləndirilirdi. Bütün mötəbər tədbirlərdə, nüfuzlu konfranslarda akademik xüsusi hörmətlə qarşılanır, yüksək kürsülərə dəvət olunurdu. Əksər hallarda təkcə SSRİ məkanında deyil, hətta Asiya və Avropadan olan dünyaca tanınmış nufuzlu akademiyalara üzvü olmaq istəyənlərə rəy vermək üçün tez-tez akademik Həsən Əliyevə müraciətlər olunurdu. Çünki Həsən Əliyev bir çox nüfuzlu akademiyaların rəsmi eksperti idi. Belə faktlardan birini

akademik Həsən Əliyevin oğlu arxitektor Rasim Əliyev deyir: "Atam rəhmətə gedəndən bir qədər sonra Yaponiyadan bir məktub aldıq. Yapon professoru qeyd edirdi ki, mən ABŞ- ın Tukson Universitetinin elm və mədəniyyət üzrə həqiqi üzvü olmaq istəyirdim. Amma oradan mənə cavab verdilər ki, siz Bakıdan akademik Həsən Əliyevin rəyini almalısınız. Çünki bölgə üzrə əsas ekspert odur. Mən yaponiyalı professora Həsən Əliyevin dünyasını dəyişdiyini yazdım".

Akademik Həsən Əliyev iştirak etdiyi müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycanın maraqlarını xüsusilə qoruyur və təbliğ edirdi, vaxtaşırı tanınmış alimləri Azərbaycana dəvət edir, onlar respublikamızın həyatı ilə bağlı müfəssəl məlumatların əldə edilməsinə, tədqiqatların aparılmasına və bütün bunların demokratik düşüncəli dünya xalqlarına çatdırılmasına yardımçı olurdular. 1981-ci ildə məşhur Norveç səyyahı Tur Heyerdal akademik Həsən Əliyevin dəvəti ilə Azərbaycana gəldi. Tanınmış tədqiqatçının Azərbaycana səfəri nəticəsində tarixi abidələrin xüsusilə də Qobustan abidələrin tədqiqi Azərbaycanın qədim yaşayış məskəni kimi tanınmasına səbəb oldu. Tur Heyerdal səfər zamanı

Azərbaycana rəhbərlik edən Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevlə görüşmüş, görüşü xoş xatirələrlə yada salaraq buna görə Həsən Əliyevə minnətdar olduğunu bildirmişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra da ölkəmizə səfərə gələn Tur Heyerdal 1981-ci il də Həsən Əliyev vasitəsilə tanış olduğu Dahi öndər Heydər Əliyevlə yenidən görüşmək imkanı qazanmışdır. Bu görüşdən məmnunluğunu gizlətməyən tanınmış səyyah akademik Həsən Əliyevlə olan dostluq əlaqələrindən, söhbətlərindən böyük həvəslə danışmışdır. Görüşdə Ulu öndər Heydər Əliyev demişdir: "Mən sizi Azərbaycanın böyük dostu hesab edirəm. Hələ Azərbaycan müstəqil olmadığı bir zamanda, siz 1981-ci ildə Azərbaycana maraq göstərib bura gəlmişdiniz. O, zaman da Azərbaycanda mən rəhbər idim. Xatirimdədir, mənim böyük qardaşım, akademik Həsən Əliyevlə sizin çox şəxsi, mehriban dostluq münasibətləriniz vardı. Biz görüşdük, çox ətraflı söhbətlər etdik. Ondan sonrakı illərdə də bir neçə dəfə görüşdük. Mən çox məmnunam ki, mənə nəsib oldu Osloda sizinlə görüşmək və sizin muzeyi ziyarət etmək".

Həmin görüşdə Tur Heyerdalın söylədikləri də böyük maraq və diqqət çəkmişdir. O demişdir: "Məni o vaxt Azərbaycanın Elmlər Akademiyasına dəvət etdilər. Akademik Həsən Əliyevlə tez bir zamanda dostlaşdıq. Onu deyim ki, Sizin qardaşınızla Azərbaycanın rayonlarını ziyarət etdim, ayrı-ayrı bölgələrində oldum. Bizim ölkələrimiz arasında əlaqələrin olmasının lap qədim köklərə malik olduğu barədə ilk fikirləri də məhz ondan duydum. Məhz onun təşəbbüsü ilə mən Qobustanda oldum, orada yazılarla tanış oldum. Beləliklə, bizdə - Norveçdə olan bu qəbildə yazıların müqayisəsinə başladım".



Böyük alim Həsən Əliyevin Norveç tədqiqatçısı Tur Heyerdalda Azərbaycan haqında yaratdığı böyük maraq dünyada ölkəmizin dünya sivilizasiyasının mərkəzlərindən biri kimi tanınmasında xüsusi rol oynadı. Məlumdur ki, dünyada qayaüstü qayıq təşvirləri ilə məşhur olan abidələr arasında Qobustanın özünəməxsus yeri vardır. Qobustanda oyma üsulu ilə çəkilmiş yüzdən artıq qayıq təsviri vardır. Tur Heyerdalı da Azərbaycana cəlb edən məhz Qobustanın qayaüstü qayıq təsvirləri olub. Böyük səyyah Qobustan "tiqrisləri"nin qamışdan hazırlanması və onların dövrü haqqında məlumatları yoxlayıb dəqiqləşdirmək məqsədilə akademik Həsən Əliyevin dəvəti ilə 1981-ci ildə ilk dəfə Azərbaycana gəlmişdir. O, əvvəlcə Qobustan "qayıqları"nın e.ə.VII-VI minilliklərə aid edilməsinə şübhə ilə yanaşır və belə hesab edirdi ki, Şərq ölkələrində oxşar təsvirlərin yalnız 3500 illik tarixi vardır. Lakin apardığı geniş və əhatəli tədqiqatlardan sonra səyyah fikrini dəyşib və etiraf etmişdir ki, Qobustanda qədim mədəniyyət və ibtidai incəsənət abidələrinin bu qədər zəngin, onun köklərinin, xüsusilə qayıq təsvirlərinin bu qədər zəngin olmasını gozləmirmiş. Bu etirafdan

sonra o, hətta əllərini qaldırıb "mən təslim" deyib və Qobustana vurğunluğunu gizlətməmişdir.

1994-cü il noyabrın 22-də Azərbaycan EA Rəyasət Heyətində respublika elmi ictimaiyyətinin nümayəndələri ilə T.Heyerdalın gorüşü oldu. Maraqlı müzakirələr şəraitində keçən görüşdə T.Heyerdal rəngli slaydların köməyilə dünyanın ən müxtəlif bölgələrində apardığı elmi axtarışlar haqqında geniş məlumat verdi və dünyanın qlobal problemlərindən bəhs etdi. Alim ekoloji fəlakətlərin qarşısını almaq üçün ilk növbədə dəniz və okean sularının təmiz saxlanılması fikrini xüsusilə vurğuladı. Ümumiyyətlə, Tur Heyerdalın Azərbaycanın maddi-mədəniyyət abidələrinə verdiyi yüksək qiymət unudulmazdır. Söz yox ki, böyük səyyahı Azərbaycana  Həsən Əliyevin dəvət etdiyini nəzərə alsaq, akademikə böyük minnətdarlıq fikrini ifadə etməmək mümkün deyil.

# SON

Azərbaycanın dünyada tanınmasında, bu yurdun müqəddəsliyini və torpağının altında da, üstündə də misilsiz sərvətlər olmasını elmi əsaslarla dünya xalqlarına tanıtmaqda böyük alim, böyük şəxsiyyət Həsən Əliyevin misilsiz xidmətləri olduğuna görə Azərbaycan xalqı ona çox borcludur. Bu, heç bir müzakirəyə ehtiyacı olmayan həqiqətdir. Bu həqiqət zaman-zaman öz təsdiqini tapdıqca nə qədər ki, yer kürəsi mövcuddur, Həsən Əliyev də bir o qədər yaşayacaqdır.

Akademik Həsən Əliyevin  xalq və dövlət naminə elmdə gördüyü inqilaba bərabər nailiyyətləri haqqında çox danışmaq,  yazmaq olardı. Sadəcə, bu kitabda onun nəhəng elmi-ictimai fəaliyyətinin yüzdən bir hissəsinə nəzər yetirdik. Başqa cür mümkün deyildi. Çünki böyük alimin həyat və fəaliyyətini qalaq-qalaq kitablar yazmaqla belə tam əhatə etmək mümkün deyildir. Hələ uzun illər keçəcək, Həsən Əlirza oğlu Əliyev epoxası öyrəniləcək, tədqiq olunacaq və yeni əsərlərlə insanlara çatdırılacaq. Bu gün isə Həsən Əliyevin ruhu qarşısında baş əyirik və nə

qədər ki Ulu öndərimiz Heydər Əliyevin qurucusu olduğu müstəqil Azərbaycan dövləti və xalqı var, akademik Həsən Əliyevin tövsiyələri, ideyaları da yaşayacaq, adı bütün dövrlərdə hörmətlə yad ediləcək və əziz xatirəsi həmişə uca tutulacaqdır.

# KİTABIN İÇİNDƏKİLƏR

**-Ön söz ........................................................................ 5**
**-İnsanlığa xidmət ................................................ 9**
**-Pənahəli xan Cavanşirin yadigarı**
**Comərdli ....................................................... 15**
**-Həsən Əliyev beynəlxalq simfoziumlarda .. 49**
**-Qətiyyətli və prinsipial alim.......................... 58**
**-Strateji sahə-kənd təsərrüfatı ......................... 102**
**-O, dünyaya xalqa xidmət etmək üçün**
**gəlmişdi ........................................................ 130**
**-İnsanlıq mücəssəməsi ...................................... 152**
**-Azərbaycanın sələfi tanınmış alimləri,**
**şair və yazıçıları akademik**
**Həsən Əliyev haqqında.................................... 164**
**Botaniklərin hamisi……………………………185**
**-Tur Heyerdaldan Həsən Əliyevə**
**minnətdarlıq .................................................. 197**
**-Son .............................................................. 204**

*Çapa imzalanmış  09.06.2016-cı il*
*Kağız formatı 60x84 1/16, çap vərəqi  13*
*Sifariş 254,  sayı 200*

*ADPU-nun mətbəəsi*
*Bakı, Ü.Hacıbəyov küçəsi, 68*
*Tel: (+912) 493-74-10*
*E.mail. ADPU@Box.az*

***Kitabda akademik Həsən Əliyevin yubleyi ilə bağlı keçirilən tədbirlərdə edilən çıxışlardan istifadə olunub.***